AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 APREL 2023-cü il | CÜMƏ | № 83 (7553) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*



## Kuba Respublikasının Prezidenti Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Prezident,

Kuba Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Xoş ənənələrə əsaslanan Azərbaycan-Kuba əlaqələri bu gün uğurla inkişaf etməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kuba xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva

## Nərimanov rayonunda "Cümə" məscidinin açılışında iştirak ediblər

*Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra "Cümə" məscidinin açılışı olub.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.*

Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dini abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində "Cümə" məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.

Qeyd edək ki, "Cümə" məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.

Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

(davamı 2-ci səhifədə)

# Qarabağda böyük dirçəliş dövrü

**Otuz il ərzində düşmənin qəsdən və biləkdən vurduğu yaraları saran, təbiətin al-əlvan rəngə boyadığı Qarabağda aparılan genişmiqyaslı işlər böyük bir inamla və sürətlə davam etdirilir. İşğaldan azad edilən ərazilərdə quruculuq, bərpa işlərinin həcmi və miqyası gündən-günə artır, ermənilər tərəfindən viran edilmiş yurd yerlərinə yeni bir həyat qayıdır.**

Şanlı Qələbə ilə başa çatan Vətən müharibəsindən sonra azad edilmiş ərazilərin bərpasına başlanılması, bir sıra infrastruktur layihələrin həyata keçirilməsi, o cümlədən elektrik enerjisi ilə təminat və yolların yenidən qurulması onu göstərir ki, Qarabağın bərpası və gələcək inkişafı üçün dövlət tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir. İşğalçılardan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan təmizlənməsidir. Otuz ilə yaxın işğalda saxladığı əraziləri başdan-başa minalarla çirkləndirən Ermənistan üçtərəfli Bəyanatdan sonra bəzi əraziləri boşaltmaq üçün möhlət aldığı müddət ərzində də torpaqlarımıza ölüm sursatları basdırmaqla öz çirkin niyyətini davam etdirdi. Xain düşmənin basdırdığı minalar onlarla dinc sakinin, hərbçinin ölümünə və ya ömürlük şikəst olmasına səbəb olur. Ona görə də əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin



və binaların təhlükəsizliyinin təmin edilməsi üçün ardıcıl olaraq minalardan təmizlənmə işləri davam etdirilir.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov Şamaxıda keçirilən "İşğaldan azad edilmiş ərazilərin investisiya cəlbediciliyi" mövzusunda elmi-praktik konfransda bildirib ki, hazırda Qarabağ iqtisadi rayonu ərazisində ümumi uzunluğu 513 kilometr olan 10 avtomobil yolu layihəsi həyata keçirilir. Həmçinin 157,5 km uzunluğunda Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmiryolu xətləri çəkilir. Prezidentin xüsusi nümayəndəsi, həmçinin, məlumat verib ki, Qarabağda enerji və su infrastrukturunun bərpası və yaxşılaşdırılması üçün Suqovuşanda iki su elektrik stansiyası tam bərpa olunub və fəaliyyət göstərir. Qarabağ iqtisadi rayonunda 35 və 110 kVt-luq 7 yarımstansiya inşa edilib. İqtisadi rayon ərazisində 5 su anbarı var ki, onlardan da iki magistral su kanalı çıxır. Hazırda onların hamısının üzərində qrafiki qabaqlamaqla təmir-bərpa işləri gedir.

(davamı 8-ci səhifədə)




*Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir*

səh. 9



*Qərbi Azərbaycana qayıdacağımız gün yaxındır*

səh. 13



*Faşizm ideologiyasının Cənubi Qafqazdakı müasir davamçıları*

səh. 19

# Azərbaycan Bosniya və Herseqovina üçün mühüm əhəmiyyət kəsb edir

**Aprel ayının 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovinada rəsmi səfərdə olmuşdur. Sarayevo şəhərində "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovina Rəyasət Heyətinin sədri Jelka Tsviyanoviç imzalamışlar.**

Bəyannamədə iki ölkə arasında neft və qaz sahəsində əməkdaşlıq, Bosniya və Herseqovinanın Orta Dəhlizdə iştirakı məsələsi əksini tapıb. Bu Bəyannamə ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində mühüm rol oynayacaq. Həmçinin, Azərbaycan bu ölkəyə qoyulacaq investisiyanı genişləndirməyi nəzərdə tutur. Son dövrlər Avropaya təbii qazla yanaşı, yaşıl enerjinin ixracını da həyata keçirən ölkəmiz bu istiqamətdə də Bosniya və Herseqovina üçün olduqca cəlbedicidir. Səfər iki ölkə arasında münasibətlərdə yeni səhifənin açılmasında atılan ilk addımdır.

Görüş zamanı Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Jelka Tsviyanoviç Azərbaycanın ölkəsinin dostu olduğunu böyük ehtiramla qeyd edib. Əlbəttə ki, ölkələrarası münasibətlərdə dostluq əlaqələri mühüm rol oynayır.

(davamı 4-cü səhifədə)







# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva

## Nərimanov rayonunda "Cümə" məscidinin açılışında iştirak ediblər







(əvvəli 1-ci səhifədə)

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.

Nərimanov rayonundakı "Cümə" məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

* * *

Qeyd edək ki, bu gün qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya, dinin bəzi siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Azərbaycan dövlətinin isə milli-mənəvi dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasəti var.

Prezident İlham Əliyev "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində bununla bağlı deyib: "Azərbaycan xalqı əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir".

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi, ölkəmizin İslam Həmrəyliyi Oyunlarına, eyni zamanda, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna, Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Humanitar Forumu kimi dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın həm İslam, həm də sivilizasiyalararası dialoqla qlobal sülhə töhfəsinin ifadəsidir. Bu yanaşma, şübhəsiz ki, İslamın təməl prinsipləri ilə üst-üstə düşür.

**AZƏRTAC**

## Neftçala rayonunun Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xol Qarabucaq-Xəzər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On beş min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xol Qarabucaq-Xəzər avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Salyan rayonunun Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistralını Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistralını 16 min nəfər əhalinin yaşadığı Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında" 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2004, № 7, maddə 526; 2007, № 6, maddə 601; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 291; 2018, № 3, maddə 410, № 4, maddə 654; 2021, № 7, maddə 728; 2022, № 4, maddə 319; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli 2020 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 2.13-cü bəndə "Agentliyi" sözündən sonra "qismində Azərbaycan Respublikasının Energetika Nazirliyi" sözləri əlavə edilsin;

*1.2.* 2.15-ci bəndə "7-ci maddəsinin" sözlərindən əvvəl "6-5-ci maddəsinin 1-ci, 2-ci və 4-cü hissələrində," sözləri əlavə edilsin;

*1.3.* 2.16-cı bəndə "Qanunun" sözündən sonra "6-3-cü maddəsinin 4-cü hissəsinin dördüncü cümləsində və" sözləri və "Azərbaycan Respublikasının" sözlərindən əvvəl "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində" sözləri əlavə edilsin;

*1.4.* 2.20-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.21-ci bənd əlavə edilsin:

"2.21. həmin Qanunun 6-4-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə qaz qurğularının etibarlı istismarı sahəsi üzrə Enerji Məsələlərini Tənzimləmə Agentliyi qismində Azərbaycan Respublikasının Energetika Nazirliyi və texniki təhlükəsizlik sahəsi üzrə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318; 2018, № 5, maddə 956; 2020, № 8, maddə 1041; 2021, № 8, maddə 926, № 12, maddə 1404; 2022, № 4, maddə 320, № 7, maddə 739) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 3.1.32-ci yarımbəndinə "qaydada" sözündən sonra "qaz qurğularının etibarlı istismarı sahəsi üzrə" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490; 2020, № 7, maddə 896; 2021, № 7, maddə 729, № 8, maddə 926, № 12, maddə 1405; 2022, № 4, maddə 321, № 7, maddələr 739, 750 ) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1.3-cü yarımbəndinə "qaydada" sözündən sonra "qaz qurğularının etibarlı istismarı sahəsi üzrə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593, № 12, maddələr 1356, 1430; 2022, № 5, maddə 459, № 11, maddə 1264) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.18-1-ci yarımbənd əlavə edilsin:

"3.0.18-1. aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087; 2017, № 1, maddə 42, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 5, maddə 466) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə ? "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə" üzrə:

1.1.1. 2.1.4-cü və 3.1.1-ci yarımbəndlərdə "dövlət orqanlarının" sözləri "dövlət orqanlarının və qurumlarının" sözləri ilə əvəz edilsin;

1.1.2. 4.1-ci bəndə "Azərbaycan Respublikası daxili işlər nazirinin," sözlərindən sonra "Azərbaycan Respublikası fövqəladə hallar nazirinin, Azərbaycan Respublikası xarici işlər nazirinin" sözləri və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin" sözləri əlavə edilsin, həmin bənddə "Xüsusi Dövlət Mühafizə"sözləri"Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

1.1.3. 5.2-ci bənd üzrə:

1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Katibliyin funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi həyata keçirir.";

2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Katiblik aşağıdakı vəzifələri yerinə yetirir:

5.2.1. Komissiyanın fəaliyyətini və iclasları ilə bağlı təşkilati məsələləri həll edir;

5.2.2. Komissiyanın müzakirəsinə çıxarılacaq məsələlərlə bağlı sənədləri hazırlayır, kargüzarlıq işlərini həyata keçirir, iclasların protokollarını tərtib edir, eləcə də iclasların yekun sənədlərinin layihələrini Komissiyanın sədrinə və üzvlərinə təqdim edir;

5.2.3. aidiyyəti dövlət orqanlarından və qurumlarından, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisə və təşkilatlardan iclaslarda baxılan məsələlərlə bağlı məlumat, rəy və təkliflər alır;

5.2.4. Komissiyanın qərarlarının icrası ilə əlaqədar tədbirlər görür, Komissiya tərəfindən həyata keçirilməli olan tədbirlərin monitorinqini aparır və nəticələri barədə aidiyyəti üzrə təqdim edilməsi üçün hesabatlar hazırlayır;

5.2.5. fiziki və hüquqi şəxslərin Komissiyaya daxil olan müraciətlərinə baxılmanı təmin edir;

5.2.6. Komissiyanın qərarlarının icrası məqsədilə Komissiya sədrinin tapşırıqlarını yerinə yetirir.";

*1.2.* həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli əlavə ? "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi" aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 958; 2019, № 11, maddə 1702; 2022, № 12, maddə 1436) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.19-1-ci və 3.0.19-2-ci yarımbəndlər əlavə edilsin:

"3.0.19-1. aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən komissiyaların işində iştirak etmək;

3.0.19-2. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 471, № 9, maddə 1028; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2056 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1.12-ci, 2.1.65-ci yarımbəndlərdə, 3.1.2-ci yarımbəndin 6-cı və 12-ci abzaslarında, 3.10-cu bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** 3.2-ci bənddən "Aviasiya Təhlükəsizliyi üzrə" sözləri çıxarılsın.

**3.** 3.2.2-ci yarımbənddə "işçi orqan olan katiblik" sözləri "təmin etmək üçün Aviasiya Agentliyi onun Katibliyi funksiyasını" sözləri ilə əvəz edilsin və həmin yarımbəndin ikinci cümləsi çıxarılsın.

**4.** 3.12-ci bənddən "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 981; 2010, № 7, maddə 610, № 8, maddə 720; 2012, № 2, maddə 79; 2014, № 2, maddə 123; 2015, № 9, maddə 1002; 2016, № 6, maddə 1037; 2017, № 10, maddə 1786; 2022, № 10, maddə 1141) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə üzrə:

*1.1.* 2.1-ci bənddə "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin və həmin bənddən ", onun mülkiyyətçisi (sahibi)" sözləri çıxarılsın;

*1.2.* 2.4-cü bənd üzrə:

1.2.1. birinci abzasda "aşağıdakı hallarda dəyişiklik və (və ya) əlavələr edilir" sözləri "dəyişiklik edilməsinə əsas olan aşağıdakı hallar baş verdiyi və ya bu barədə müraciət edildiyi tarixdən 3 (üç) iş günü müddətində dəyişiklik edilir" sözləri ilə əvəz edilsin;

1.2.2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı və yeddinci abzaslar əlavə edilsin:

"nəqliyyat infrastrukturu obyekti yenidən qurulduqda;

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə uyğun olaraq, daşınmaz əmlak obyekti məhv olduqda.".

**2.** 3-cü hissə üzrə:

*2.1.* 3.2-ci bənd üzrə:

2.1.1. 3.2.3-cü yarımbənd ləğv edilsin;

2.1.2. 3.2.4-cü yarımbənddə "hüquqlar dövlət qeydiyyatına" sözləri "mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata" sözləri ilə əvəz edilsin;

*2.2.* 3.3-cü bəndə "sahibi" sözündən sonra ", tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisi" sözləri əlavə edilsin;

*2.3.* 3.6-cı bəndin ikinci abzasında "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin;

*2.4.* aşağıdakı məzmunda 3.7.1-1-ci yarımbənd əlavə edilsin:

"3.7.1-1. ərazi vahidi üzrə poçt indeksi;";

*2.5.* 3.8-ci bənddə "Daşınmaz əmlak obyektinin ünvanının bu Qaydaların 3.7.4-cü bəndində göstərilən rekvizitinin (ünvan nömrəsinin)" sözləri "Ünvan nömrəsinin" sözləri ilə əvəz edilsin;

*2.6.* 3.9-cu bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binaların, qeyri-yaşayış binalarının, onların tərkib hissələrinin və fərdi yaşayış evlərinin girişlərinə ünvan verilir.";

*2.7.* 3.10-cu bənddə "çoxmənzilli binaların, fərdi yaşayış evlərinin, qeyri-yaşayış sahələrinin" sözləri "daşınmaz əmlak obyektlərinin" sözləri ilə əvəz edilsin;

*2.8.* 3.11-ci bənd üzrə:

2.8.1. birinci cümləyə "mənzilinə," sözündən sonra "tərkibindəki qeyri-yaşayış sahələrinə və" sözləri əlavə edilsin;

2.8.2. ikinci cümləyə "mənzilinə" sözündən sonra ", tərkibindəki qeyri-yaşayış sahələrinə" sözləri əlavə edilsin;

2.8.3. dördüncü cümlədə "Hər bir mənzilin" sözləri "Çoxmənzilli binaların hər bir mənzilinin, tərkibindəki qeyri-yaşayış sahələrinin" sözləri ilə əvəz olunsun və həmin cümləyə "mənzilin" sözündən sonra ", qeyri-yaşayış sahəsinin və ya qeyri-yaşayış obyektinin tərkib hissəsinin" sözləri əlavə edilsin;

2.8.4. beşinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binanın girişlərinə və çoxmənzilli binanın tərkib hissəsi olan mənzillərə (qeyri-yaşayış sahələrinə) ünvanların təyin edilməsi, müvafiq olaraq, tikintisinə icazə alınmış, lakin tikintisi başa çatmamış binanın sifarişçisinin və ya çoxmənzilli binanın mülkiyyətçisinin və ya onun səlahiyyətli nümayəndəsinin müraciəti əsasında Dövlət Xidməti tərəfindən, hər bir mənzilin nömrələnməsi (qapı nömrəsinin quraşdırılması) isə bina inşa edildikdən sonra binanın sifarişçisi və ya mülkiyyətçisi tərəfindən təmin edilir.";

*2.9.* 3.12-ci bənddə "və ya sifarişçisinin" sözləri "(tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisinin) və ya onun səlahiyyətli nümayəndəsinin" sözləri ilə əvəz edilsin;

*2.10.* 3.14-cü bənd üzrə:

2.10.1. birinci cümləyə "rəqəmlərdən" sözündən sonra ", ədədlərdən və onlara əlavə olunmuş hərflərdən" sözləri əlavə edilsin;

2.10.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Girişinə ünvan nömrəsi verilmiş obyektlər arasında yeni obyektin girişinə ünvan nömrəsi rəqəmlərə və ədədlərə hərflər əlavə edilməklə verilə bilər.";

*2.11.* aşağıdakı məzmunda 3.14-1-ci bənd əlavə edilsin:

"3.14-1. Avtomobil və dəmir yollarının yaşayış məntəqələrinin hüdudlarından kənarda yerləşən hissələri, eləcə də yaşayış məntəqələrinin ərazisindən keçən və ad verilməyən magistral yollar boyunca yerləşən daşınmaz əmlak obyektlərinin girişlərinə ünvan nömrələri bir-birindən "-" işarəsi ilə ayrılan iki hissədən ibarət olmaqla verilir. Nömrənin birinci hissəsində ünvan obyektinin yolun başlanğıcından sonuna doğru istiqamətdə neçənci kilometrində yerləşdiyini göstərən ədəd, ikinci hissəsində isə yolun yalnız həmin hissəsi (kilometri) boyunca yerləşən daşınmaz əmlak obyektlərinə bu Qaydaların 3.9-3.11-ci və 3.14-cü bəndlərində qeyd edilən qaydada verilmiş nömrə yazılır.";

*2.12.* 3.20-ci və 3.21-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.20. Nəqliyyat infrastrukturu obyektinin kənarında yerləşdirilən müvəqqəti tikililərə bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq müvəqqəti ünvan verilir.

3.21. Üzərində tikili və (və ya) qurğu olmayan torpaq sahəsinə ünvan təyin edilərkən onun yaxınlığındakı daşınmaz əmlak obyektlərinin ünvanlandırılması nəzərə alınır.".

**3.** 4.2-ci bəndin üçüncü abzasının birinci cümləsində "7 gün müddətində Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərilir" sözləri "Dövlət Xidməti tərəfindən elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ötürülür" sözləri ilə əvəz edilsin.

**4.** 5.1-ci bəndin birinci cümləsinə "nömrələrini" sözündən əvvəl "girişlərinin" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 aprel 2023-cü il.**




# Prezident İlham Əliyev Ramazan bayramı ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində qeyd edilib:** *"Ramazan bayramınız mübarək!".*

**AZƏRTAC**

# Azərbaycan Bosniya və Herseqovina üçün mühüm əhəmiyyət kəsb edir

**(əvvəli 1-ci səhifədə)**

Belə ki, 2014-cü ildə Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə ölkəmizin göstərdiyi köməklik dostluq münasibətlərinin göstəricisidir. Azərbaycanın Bosniya və Herseqovinaya COVID-19-a qarşı mübarizədə göstərdiyi maddi və humanitar dəstəyi də xüsusi qeyd etmək lazımdır. Dövlətimiz dost ölkədə gözdən əlil və ahıl insanlar üçün mərkəzlərin təmirində də yaxından iştirak etmişdir. Dövlət başçımızla keçirilən görüş zamanı bütün bunlar yüksək qiymətləndirilərək xüsusi qeyd edilmişdir. Həmçinin, Jelka Tsviyanoviç onu da vurğulamışdır ki, ölkələrimiz arasında tərəfdaşlıq bundan sonra da inkişaf edəcək. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyır və suverenliyini dəstəkləyir. Azərbaycan torpaqları Ermənistanın işğal altında olduğu zamanlarda Bosniya və Herseqovina dövləti həmişə ərazi bütövlüyümüzü dəstəkləmişdir. Biz bu dəstəyi İkinci Qarabağ müharibəsi dövründə də gördük. Qeyd edək ki, Bosniya və Herseqovina Azərbaycan Respublikasının müstəqilliyini 9 fevral 1995-ci ildə tanımış və həmin gün iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə rəsmi səfəri həm də dostluq münasibətlərinin göstəricisi idi. Ölkəmizin Bosniya və Herseqovina ilə münasibətləri hələ ötən əsrdə, sovetlər birliyi dönəmində qurulmuşdur. Belə ki, 1972-ci ildə Bakı və Sarayevo qardaşlaşmış şəhərlər statusu almışdır. Bu gün hər iki dövlət arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, enerji, investisiyalar, nəqliyyat, turizm, mədəniyyət, elm, təhsil və digər sahələrdə də əməkdaşlıq üçün geniş imkanlar var. Ölkələrimiz hazırkı durumda bir-birinin təcrübəsindən yararlanmaq istiqamətində də mühüm addımlar atır. Məsələn, Bosniya və Herseqovina da Azərbaycan kimi minalardan ən çox əziyyət çəkən və minalarla çirklənmiş ölkədir.



Azərbaycanın təbii qazı Balkan regionu və Bosniya və Herseqovinanın qonşu ölkələrinə ixrac edilir. Azərbaycanın təşəbbüskarı olduğu 3 min 500 kilometr bir məsafəni əhatə edən Cənub Qaz Dəhlizi kəməri Bosniya və Herseqovinanın sərhədindən keçir. Əlbəttə ki, kəmərin Bosniya və Herseqovina sərhədlərindən keçməsi tranzit ölkə kimi bu dövlətə də faydalı olacaq. Həmçinin Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da bölgədə yerləşən ölkələrlə yanaşı, Bosniya və Herseqovina üçün də əlverişli olacaq. Balkan yarımadası və Şərqi Avropa ölkələrində Azərbaycan qazına böyük ehtiyac var. Ölkələrimiz arasında enerji əməkdaşlığı və təbii qazın nəqli və saxlanılması, neft emalı zavodları, neft və təbii qazın hasilatı və emalı kimi müxtəlif sahələri əhatə edir. Eyni zamanda bərpaolunan enerji mənbələri, xüsusən də hidroelektrik enerji potensialı iki ölkə arasında əməkdaşlığın mühüm sahələrindəndir.

Ümumiyyətlə, son illər iki ölkə arasında münasibətlər dinamik və yüksələn xətlə inkişaf edir. 2022-ci ildə ölkələrarası ticarət dövriyyəsi 3,2 dəfə artaraq 5,1 milyon dollara çatıb. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatında deyib: "Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər". Ölkələrimiz bir çox cəhətlərdən bir-birinə yaxın və oxşardır. Gələcək layihələrin iqtisadi yönümdə inkişafı ilə yanaşı, mədəni və elmi sahədə də inkişafına önəm verilir. Əlaqələrimiz mükəmməl münasibətlərin təzahürüdür.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

# Milli Məclisin sədri Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib

**Milli Məclisin sədri Sahibə Qafarova Polşanın paytaxtı Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin sədri abidənin önünə əklil qoyub.

Sonra Sahibə Qafarova xatirə kitabına ürək sözlərini yazıb.

Milli Məclis sədrinin başçılıq etdiyi parlament nümayəndə heyəti, həmçinin Varşava Üsyanı Muzeyi ilə tanış olub. ■






# Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib



**Aprelin 20-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli iqtisadiyyatımızın mövcud müsbət nəticələrini, makroiqtisadi vəziyyəti, cari ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra göstəricilərini nəzərə alaraq 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) ilə bağlı Hökumətə verdiyi tapşırıqlar, o cümlədən, Ortamüddətli Xərclər Çərçivəsi və 2024-cü il və növbəti üç il üçün icmal və dövlət büdcələrinin proqnozları, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası" üçün maliyyə təminatı və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun məruzəsi və Şura üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasın yekununda 2023-cü ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. ■

# Ali Məhkəmədə "Femida dialoq platforması" çərçivəsində Vəkillər Kollegiyası ilə görüş

**Azərbaycan Respublikasının Ali Məhkəməsinin təşəbbüsü ilə yaradılan "Femida dialoq platforması" çərçivəsində Vəkillər Kollegiyası ilə görüş keçirilib.**

**Ali Məhkəmənin sədri İnam Kərimov** qonaqları salamlayaraq, ölkəmizdə məhkəmə-hüquq sistemində islahatların hər zaman dövlətin diqqət mərkəzində olduğunu qeyd edib. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dövlətçiliyin təməl prinsiplərindən sayılan qanunun aliliyinə, insan hüquqları və demokratik dəyərlərin qorunmasına xüsusi diqqət yetirilir: "Əsası Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev tərəfindən qoyulan məhkəmə-hüquq islahatları bu gün dövlət başçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Aparılan islahatlar nəticəsində ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafında əsaslı dəyişikliklər baş verib, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə regionlarda yeni məhkəmələr təşkil edilib, onların səlahiyyətləri genişləndirilib, sayı artırılıb, maddi təminatları yaxşılaşdırılıb, hakimlərin şəffaf prosedurlar əsasında seçilməklə tərkibinin əsaslı şəkildə yenilənməsinə nail olunub".

İnam Kərimov vurğulayıb ki, məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanğıcı hesab olunan sonuncu böyük həcmli islahatlar "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel Fərmanının qəbulu ilə başlayıb. Bu sənədin icrası ilə əlaqədar ölkəmizdə ədalət mühakiməsinin yüksək keyfiyyətlə həyata keçirilməsi və hüquqların məhkəmədə müdafiəsinin daha da güclənməsinə müsbət təsir göstərib. Son illərdə məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmələrin və hakimlərin təminatının gücləndirilməsi ilə bağlı mühüm işlər görülüb: "Aparılan islahatlar nəticəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatının strukturu və ştat cədvəli yenidən müəyyən edilib. Yeni strukturda məhkəmə aparatı gücləndirilib ki, bu da vahid məhkəmə təcrübəsinin formalaşması və tətbiqinə dəstək vermək məqsədi daşıyır".



İnam Kərimov diqqətə çatdırıb ki, aparılan geniş islahatlar vəkillik institutundan yan keçməyib. Son dövrlər ölkəmizdə vəkillik institutunun daha da təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. Ölkə başçısının məlum Fərmanının icrası çərçivəsində məhkəmə-hüquq sistemində bir sıra uğurlu islahatları aparılsa da, qarşıda görüləcək işlər var: "Ölkəmiz böyük qlobal əhəmiyyətli proseslərdə regionun aparıcı liderinə çevrilir və yeni çağırışlarla qarşılaşır. Bu müasir çağırışlara cavab vermək üçün məhkəmələrin müasir tələblərlə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində yüksək peşəkarlığın artırılması və idarəetmədə innovativ texnologiyaların tətbiqi günün tələblərindəndir. Bu tələbləri qarşılamaq üçün məhkəmə-hüquq sisteminin bütün iştirakçıları ilə dialoq qurmağa xidmət edən yeni bir layihəyə - "Femida dialoq platforması" layihəsinə start vermişik".

Ali Məhkəmənin sədri bildirib ki, "Femida dialoq platforması"nın məqsədi hüquqşünaslar, hüquq müdafiəçiləri, vətəndaş cəmiyyəti institutları ilə fəal müzakirələrin təşkili, vətəndaşların hüquqi maariflənməsinin artırılması, məhkəmə-hüquq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ortaya çıxan problemlərin həlli və ölkəmizdə bu sahədə aparılan islahatlara dəstək verməkdir: "Femida dialoq platforması çərçivəsində ilk görüş Azərbaycan Vəkillər Kollegiyası ilə keçirilir. Bu da təsadüfi deyil. Çünki Vəkillər Kollegiyasının üzvləri məhkəmə-hüquq sistemində önəmli funksiyanı yerinə yetirirlər. Bu gün biz həm məhkəmə-hüquq sistemində görülən işlər, hazırkı vəziyyət barədə danışacağıq, həm də vəkillərin üzləşdiyi problemlər və məhkəmə-hüquq sisteminin inkişafı istiqamətində təklifləri dinləyəcəyik. Düşünürəm ki, bu gün birgə uğurlu əməkdaşlığın əsasını qoyacağıq".

Sonra çıxış edən **Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov** görüşün təşkilinə görə Ali Məhkəmənin rəhbərliyinə minnətdarlığını bildirib, eyni zamanda, "Femida dialoq platforması" adlı yeni layihə təşəbbüsünü yüksək qiymətləndirərək, ilk görüşün vəkillərlə keçirilməsindən məmnunluğunu ifadə edib. O əlavə edib ki, Ali Məhkəmə ilə Vəkillər Kollegiyası arasında qurulmuş səmərəli əməkdaşlıq münasibətlərinin bu gündən etibarən daha da güclənməsi, habelə bu müzakirələrin ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə-hüquq sisteminin inkişafı və məhkəmələrdə proses iştirakçıları arasında qeyri-prosessual münasibətlərin aradan qaldırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Anar Bağırov qeyd edib ki, Ali Məhkəmə tərəfindən vəkillərin üzləşdiyi problemlərin araşdırılması və həlli istiqamətində atılan addım təqdirəlayiqdir: "Vəkillərin aparılan məhkəmə-hüquq islahatlarında rolu və tədbirin formatını nəzərə alaraq, biz əvvəlcədən bütün vəkillərə müraciət etmişik və görüşdə iştirak etməyən vəkillərin təklifləri də ümumiləşdirilmiş formada Ali Məhkəməyə təqdim olunacaq. Məhkəmələrdə problemləri, qanunvericilikdəki boşluqlardan vəkillər daha çox məlumatlıdırlar. Çünki onlar gün ərzində bir neçə dəfə məhkəmə prosesində olur, ədalət mühakiməsinin həyata keçirilməsində fəal şəkildə iştirak edirlər. Bu baxımdan, hesab edirəm ki, bugünkü görüşümüz, müzakirələr çox faydalı olacaq".

Sonra tədbir qarşılıqlı müzakirələrlə davam edib, vəkillərin təklifləri dinlənilib.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Fövqəladə hallar naziri Sumqayıtda vətəndaşlarla görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov Sumqayıt şəhərinin və Qubadlı rayonunun sakinləri ilə görüşüb.**

**Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş aprelin 20-də Sumqayıt şəhərində, nazirliyin Sumqayıt Regional Mərkəzinin binasında reallaşıb.**



**Əvvəlcə nazir K.Heydərov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin mərkəzin binasındakı büstünü ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.**

**Sonra fövqəladə hallar naziri Sumqayıt şəhərinin və Qubadlı rayonunun sakinləri ilə görüşüb, müraciətlərin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.**

**Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüb.**

**Görüşə gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.** ■

# 1923 ÜMUMMİLLİ LİDER – 100 – 2023

## Dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri Heydər Əliyev haqqında

*Bakı ilə Pekin arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin xüsusi xidmətləri var. Cənab Heydər Əliyev Çin xalqı arasında böyük nüfuza malikdir. Hələ 1980-ci illərdə Heydər Əliyev keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən, başqa bir dövr, başqa şərait olsa da, o, sovet rəhbərləri arasında Çinlə münasibətlərin qaydaya salınmasına çalışan ilk şəxslərdən biri olmuşdur. O, Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra da Çinlə əlaqələrə həmişə xüsusi diqqət vermişdir.*

**Çjan SİYUN,**
**Çin Xalq Respublikasının Azərbaycandakı sabiq səfiri.**

*Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir.*

**Çingiz AYTMATOV,**
**qırğız yazıçısı, Qırğızıstanın Belçikadakı sabiq səfiri.**

*Prezident Heydər Əliyev Azərbaycan tarixində tutduğu ən yüksək fəxri pilləni həmişə qoruyub saxlayacaqdır. Qafqazı tanıyan hər bir şəxs razılaşar ki, cənab Heydər Əliyev bu regionun tarixində rəhbərlik etmiş ən böyük lider, öz ölkəsini qurmuş və ona yenidən həyat vermiş bir şəxsiyyət olmuşdur.*

*Onun müdrikliyi, peşəkar liderlik qabiliyyəti, beynəlxalq diplomatiyada göstərdiyi ustalıq və Qafqazın siyasi-iqtisadi mürəkkəbliklərini tam başa düşməsi Azərbaycan və Birləşmiş Ştatlar arasında mövcud olan iqtisadi və siyasi münasibətləri möhkəmləndirmiş, ölkədə genişmiqyaslı islahatların həyata keçirilməsinə zəmin yaratmış, Azərbaycanın yaxın və işıqlı gələcəyinin təməlinin qoyulmasında öz əsas rolunu oynamağa imkan vermişdir.*

**Stenli T.ESKUDERO,**
**Azərbaycandakı Amerika Ticarət Palatasının sabiq birinci vitse-prezidenti.**

*Azərbaycan xalqının həyatında bütöv bir epoxa, xüsusilə müstəqil Azərbaycanın təşəkkül tapdığı illər Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Şərq müdrikliyinin təcəssümü və zəmanəmizin böyük siyasətçisi idi.*

**Meret ORAZOV,**
**Türkmənistanın ABŞ-dakı sabiq səfiri.**

*Heydər Əlirza oğlu xoşbəxt adamdır. O, ölkəni qurdu, layiqli oğul böyütdü və bütün həyatını həsr etdiyi işi ona tapşırdı.*

**Kanat SAUDABAYEV,**
**Qazaxıstanın ABŞ-dakı sabiq səfiri.**



*Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi Vətəni vardır... Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.*

## Dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri Heydər Əliyev haqqında

*Cənab Heydər Əliyevin Azərbaycanın inkişafına töhfəsi ölçüyəgəlməzdir. Biz ömrünü öz xalqının tərəqqisinə, millətin sıx birliyinə və beynəlxalq aləmdə ölkənin nüfuzunun möhkəmlənməsinə həsr edən belə insanları alqışlayırıq.*

**Olqa DERQUNOVA,**
**"Maykrosoft" nümayəndəliyinin sabiq başçısı.**

*Heydər Əliyev rəhbər kimi bütün istedadını, təşkilatçılıq qabiliyyətini, təcrübəsini və müdrikliyini öz xalqına xidmətə həsr etmişdir. Ən çətin vəziyyətlərdə yeganə düzgün və dəqiq qərar tapmaq bacarığı həm ölkədə, həm də bütün dünyada ona şöhrət və hörmət qazandırdı.*

*Heydər Əliyev elmin inkişafına, gənclərin təhsil və tərbiyəsinə, Azərbaycan Respublikası üçün yüksəkixtisaslı kadrlar hazırlığına xüsusi diqqət yetirirdi. Fəxr edirik ki, bizim akademiyanın Ukrayna-Azərbaycan Sosial Elmlər İnstitutu Heydər Əlirza oğlunun razılığı ilə onun adını daşıyır. Bu, bizim üçün böyük şərəf və həm də böyük məsuliyyətdir.*

**Georgi ŞYOKİN,**
**Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasının prezidenti.**

*Latviya və Azərbaycan arasında iqtisadi və humanitar əlaqələrin qaydaya salınmasını hər cəhətdən məhz Heydər Əliyev dəstəkləmişdir. Bu da iki ölkənin sahibkarları arasında geniş əməkdaşlığın inkişafına kömək etmişdir.*

**Valeri KARGİN,**
**"PAREKS BANK"ın sabiq prezidenti.**

*Cənab Prezident Heydər Əliyev müharibənin ağır və amansız illəri zamanı hakimiyyətə gəlişi ilə ölkənin birliyini saxlamağa və möhkəmləndirməyə, vətəndaş həmrəyliyi yaratmağa nail oldu. Azərbaycan xalqının özünə inam və sakitlik tapması məni sevindirirdi. Ölkə xalq təhsilinin yüksək səviyyəsinə çatmaqla və öz təbii sərvətlərinə sahib olmaqla, tərəqqi yoluna qədəm qoymaqla yoxsulluqdan müvəffəqiyyətlə çıxa bildi.*

**Gi ŞEVALYE,**
**Fransanın Bakıdakı səfirliyinin sabiq əməkdaşı.**

*Həqiqət ondan ibarətdir ki, möhtərəm cənab Prezident Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O həqiqətən, yeni Azərbaycan dövlətinin qurucusudur.*

**Tim EQQAR,**
**Britaniya-Azərbaycan Cəmiyyətinin sədri, "Monument Oyl ənd Qaz" şirkətinin sabiq baş direktoru.**

# Xalqımızın xilaskarı, müstəqilliyimizin qarantı

**Respublika Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi xalqımızın böyük sevincinə səbəb olmaqla arzu və istəyini reallaşdırdı. Çünki xalqımız əbədi xilaskarının xatirəsini daim böyük ehtiramla yad edir, əziz tutur. Sərəncam imzalanan gün qeyri-ixtiyari olaraq ulu öndərin 1996-cı il aprelin 1-də Prezident sarayında Kəlbəcər rayon sakinlərinin nümayəndələri ilə keçirilən görüşünü xatırladım. Həmin tarixi görüşdə Prezident Heydər Əliyev bildirdi ki, Kəlbəcər rayonu əhalisinin nümayəndələri ilə mənim bugünkü görüşümün məqsədi birinci növbədə, respublikanın ayrı-ayrı yerlərində məskunlaşmış rayon sakinlərinin vəziyyəti ilə tanış olmaqdan ibarətdir. Son dərəcə səmimi və işgüzar şəraitdə keçən görüşdə real vəziyyət geniş müzakirə olundu və lazımi göstəriş verildi.**

Ulu öndərin kəlbəcərlilərlə növbəti görüşlərindən biri 13 sentyabr 2002-ci ildə Goranboy rayonunda oldu. Bu görüşdə də dahi rəhbərimizin unudulmaz fikirləri yaddaşımızda dərin izlər qoyub. Görüşün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayan ulu öndər bildirdi ki, hesab edirəm ki, bu gün bizim görüşümüz çox səmərəli oldu. Bir tərəfdən Kəlbəcərin faciəsini xatirimizə saldıq. Bu faciəni heç vaxt unutmaq olmaz. Faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, onu daim yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət dərsi götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin - Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları, quldurları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Bunu unutmaq olmaz, nəsillərdən-nəsillərə ötürmək lazımdır. Bu baxımdan, bugünkü görüşümüz çox əhəmiyyətlidir. Amma bu görüşün əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, biz Kəlbəcərin işğaldan azad olunması üçün özümüzü daha da səfərbər edirik. Mən çox məmnunam ki, bu gün burada çıxış edənlərin hamısı yekdildir ki, əgər Kəlbəcər, eləcə də işğal olunmuş digər torpaqlarımız sülh yolu ilə azad edilməsə, biz gərək özümüzü hazırlayaq və torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edək. Bu barədə fikrim qətidir. Mən bu yolun yolçusuyam, bu yoldan dönməyəcəyəm.

Görüşdə səslənən bu müdrik fikirlər torpaq həsrəti ilə yaşayan hər birimizin ürəyinə məlhəm oldu və biz tam qətiyyətlə əmin olduq ki, hansı yolla olur-olsun torpaqlarımız işğaldan tam azad ediləcək. Çünki xalqımızın Heydər Əliyev kimi xilaskarı, müdrik dövlət xadimi, qətiyyətli prezidenti, müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı olan ümummilli lideri var.

Ulu öndərin xalqımızın tarixində misilsiz xidmətləri son dərəcə böyükdür və hər birimizin yaddaşında əbədi olaraq qalacaq. Çünki müstəqil dövlətimizi 1918-ci il may ayının 28-də qursaq da, bu xoşbəxtliyi yalnız 1920-ci il aprelin 28-ə qədər qoruyub saxlaya bilmişik. Bu hadisələrin nəticəsi tarixdən hamımıza yaxşı məlumdur. Çox da uzaq olmayan tariximiz - 1988-1990-cı illər də yaxşı yadımızdadır. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün itirilmiş müstəqilliyini bərpa etdi. Bu tarixi hadisə xalqımızın həyatında yeni bir dönüş nöqtəsi oldu. Biz yenidən azad və müstəqil şəraitdə yaşamaq, xalqımızın təbii sərvətlərindən maksimum faydalanmaq istəsək də müstəqilliyin ilk illərində təlatümlü, ağır, məşəqqətli günlər yaşadıq, ölkəmizdə xaos yarandı, iqtisadiyyatımız günbəgün tənəzzülə uğramağa başladı. Xalqımız 1991-1993-cü illərdə böyük çətinliklər, bəlalarla üz-üzə qaldı. Hətta müstəqilliyimizin itirilməsi və respublikamızın parçalanması təhlükəsi ilə üzləşdik. 1993-cü ilin iyununda ölkədə vətəndaş müharibəsi, qardaş qırğını təhlükəsi yarandı. Belə bir şəraitdə bütövlükdə Azərbaycan bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşdi. Bu zaman güclü bir liderə ehtiyac yarandı. Böyük çaşqınlıqlar içərisində qalan xalqımızın yeganə xilaskarı ulu öndər Heydər Əliyev oldu. Çünki xalq yaxşı başa düşürdü ki, onu belə bir çətin vəziyyətdən yalnız ömrü boyu Azərbaycanın tərəqqisi naminə məqsədyönlü işlər görən və xalqımızın bütün arzularını reallaşdıran Heydər Əliyev kimi bacarıqlı, təcrübəli, uzaqgörən, qətiyyətli rəhbər çıxara bilər.

Xalqımızın yekdil çağırışı ilə hakimiyyətə qayıdan ulu öndər bərpa edilmiş müstəqilliyimizi qorumaqla respublikamızın parçalanmasının qarşısını aldı və Azərbaycan tarixinin yeni bir inkişaf dövrünə qədəm qoydu. Bununla da xalqımız, dövlətçiliyimiz, müstəqilliyimiz xilas edildi, ölkəmizdə siyasi sabitlik bərqərar oldu və iqtisadiyyatın inkişafı üçün Dövlət proqramlarının icrasına başlanıldı. Məhz bu səbəbdən də haqlı olaraq vurğulamaq istərdik ki, müstəqilliyimizin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Dövlət müstəqilliyinin möhkəmlənməsi, ölkəmizin beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi, iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq durmadan yüksəlməsi və digər sahələrdə qazanılan bütün uğurlarımızın təməli ulu öndərin hakimiyyətə qayıdışından sonra qoyuldu.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri Heydər Əliyevi daim narahat etdiyindən dəfələrlə çadır şəhərciklərinə gedərək onların yaşayış şəraiti ilə yerindəcə tanış olur, müvafiq göstəriş və tapşırıqlarını verirdi. Məcburi köçkünlərlə görüşlərinin birində ulu öndər demişdi: **"Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".** Çünki ulu öndər yurdundan didərgin düşmüş insanların ağrılarını dərindən duyur, onların bu çətinlikdən xilası üçün məqsədyönlü tədbirlər həyata keçirirdi.

Ümummilli liderin artıq dillər əzbəri olan "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" məşhur tezisini xatırlayaraq demək istərdim ki, "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi və siyasi müstəqilliyini təmin etdi, beynəlxalq münasibətlər sistemində ölkəmizin rolunu artırdı, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirərək əməkdaşlığın coğrafiyasını regional çərçivədən beynəlxalq miqyasa çıxardı. Tarixi Qələbəmizin əsasında bu siyasətin dayandığını xüsusilə vurğulamalıyıq.

Ulu öndərin müdrik siyasəti sayəsində müəyyənləşən yeni neft strategiyasına uyğun olaraq 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" nəinki regionda, eləcə də postsovet məkanında qarşılıqlı etimadın və geniş əməkdaşlığın təməlini qoydu. Məhz bu müqavilə ölkəmizin neft-qaz sənayesinin, ümumilikdə Azərbaycanın bugünkü və gələcək inkişafının başlanğıcı oldu.

Ölkəmizdə ordu quruculuğunun təməli və inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1969-cu ildə respublikamıza rəhbər seçildiyi ilk gündən ulu öndər bu vacib sahəyə də böyük diqqət göstərdi, gənclərin vətənpərvərlik tərbiyəsini önə çəkərək ötən əsrin 70-ci illərində Bakıda xüsusiləşdirilmiş hərbi təmayüllü orta internat məktəbin (indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey) təməlini qoydu. Sevindirici haldır ki, bu gün şanlı ordumuzun zabit heyətinin əsasını məhz həmin məktəbin məzunları təşkil edir.

Artıq qısa zaman ərzində Silahlı Qüvvələrimiz dünya standartlarına uyğun olaraq vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. Ordunun maddi təminatı və təchizatı xeyli gücləndirildi. Ümummilli liderin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbi də müstəqillik illərində yenidən formalaşdı.

Ulu öndər 1998-ci il 13 mart tarixində C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında sərəncam imzaladı və bu gün həmin təhsil müəssisəsi Heydər Əliyev adına Hərbi Lisey kimi fəaliyyətini davam etdirir.

Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyasının 1999-cu il fevralın 20-də yaradılması da hərb tariximizin əlamətdar hadisəsinə çevrildi.

2003-cü il aprelin 21-də Respublika sarayında C.Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş mərasimdə Respublika Prezidenti, Ali Baş Komandan Heydər Əliyev çıxışında bildirdi ki, mən C.Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə özümü çox xoşbəxt hesab edirəm.

Azərbaycan ordusunun yaradılmasının 85 illiyi ilə əlaqədar Heydər Əliyev Silahlı Qüvvələrin şəxsi heyətinə müraciətində deyib: **"Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər".**

Xalqımızın ulu öndəri Heydər Əliyev respublikamızın bütün bölgələri kimi, hər zaman Kəlbəcərə, onun təbiətinə, insanlarına yüksək dəyər verərək rayon sakinləri ilə 1996-cı il aprelin 1-də keçirdiyi tarixi görüşündə demişdir: **"Kəlbəcər rayonu Azərbaycanın gözəl guşələrindən biridir. Onun çox zəngin təbiəti, tarixi abidələri vardır. Kəlbəcər Azərbaycanın qədim dövrlərdən ibarət öz tarixini qəlbində, sinəsində, qoynunda saxlayan ərazilərindən biridir. Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur. Azərbaycanın çox yerlərindən, o cümlədən paytaxtımız Bakıdan da insanlar həmişə Kəlbəcərə ziyarətə gediblər. O dağların, meşələrin gözəlliyindən müəyyən qədər bəhrələnmək üçün, eyni zamanda bu gözəlliyi seyr edib ölkəmizin nə qədər gözəl bir məmləkət, diyar olduğunu bir daha dərk etmək üçün ziyarət ediblər. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar".**

Ulu öndərimizin dediyi həmin şanlı günü yaşayırıq. Bu əbədi xoşbəxtliyi isə xalqımıza ulu öndərin ən layiqli davamçısı, Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev və onun sərkərdəliyi ilə müzəffər Azərbaycan Ordusu bəxş etmişdir.

Vətən müharibəsində Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və Azərbaycan Ordusunun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Ulu öndər Heydər Əliyevin müdrik siyasətinə uyğun olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun düşmən üzərində qazandığı şanlı Qələbə nəticəsində işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də böyük quruculuq işləri görülür. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcər rayonuna səfəri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlini qoyub.

Beləliklə, Kəlbəcər ərazisinin dağlıq relyefi, füsunkar təbiət mənzərələri, keyfiyyətli su ehtiyatları və tarixi abidələri buranın gələcəkdə turizm məkanı kimi şöhrət tapacağına zəmin yaradır. Çünki rayon ərazisi turizmin də inkişafı üçün böyük potensiala malikdir. Kəlbəcərdə infrastrukturun yaradılması xarici ölkələrdən turistlərin rayona cəlb olunmasına geniş şərait yaradacaq.

Beləliklə də İkinci Qarabağ müharibəsi ermənilərin mənfur əməllərinə birdəfəlik son qoydu, Azərbaycan Ordusunun əks-hücumları qarşısında əzilən və darmadağın olan Ermənistan Laçın, Ağdam kimi Kəlbəcəri də əsl sahibi olan Azərbaycana qaytarmağa məcbur oldu. Bu gün Azərbaycan hökuməti azad olunmuş ərazilərdə sürətli bərpa işləri həyata keçirir. Artıq Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolu yenidən tikilib. Kəlbəcər- Laçın istiqamətində də yollar çəkilir. Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Kəlbəcər rayonu yenidən qurularaq tam müasirləşir.

Ulu öndərin rayon sakinləri ilə tarixi görüşlərinin birində müdrikcəsinə əminliklə dediyi **"Kəlbəcər yenə də öz keçmiş, gözəl dövrünə qayıdacaq və gələcəkdə ondan da gözəl olacaqdır. O gün həm kəlbəcərlilər üçün, həm də bizim üçün əziz olacaqdır"** fikri artıq tam reallığa çevrilib və xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ümummilli liderimiz Heydər Əliyevin müdrik ideyalarının uğurla həyata keçirilməsinə çalışır. Çünki bu yol Azərbaycanı durmadan inkişafa, dünya birliyində rolunun genişlənməsinə, xalqımızın rifahının yaxşılaşmasına, iqtisadiyyatımızın inkişafına, ordumuzun güclənməsinə və dost ölkələrlə əməkdaşlığımızın genişlənməsinə aparır.

**Aqil MƏMMƏDOV,**
**Milli Məclisin deputatı.**

# Ulu Öndərin ölkə idmanının inkişafında əvəzsiz rolu

**Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən edib. Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin çoxsahəli fəaliyyətinin əsas istiqamətlərindən biri də idman və bədən tərbiyəsi sahəsi olmuşdur. Ümummilli lider Heydər Əliyev idmanın əhəmiyyətindən bəhs edərək qeyd edirdi: "İdman, bədən tərbiyəsi hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir vasitəsidir".**

Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, zalları tikilmiş, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. 1970-ci illərdə Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Hələ sovetlər dövründə qazandığı müvəffəqiyyətlərlə məşhurlaşmış adlı-sanlı, perspektivli idmançılarımızın böyük əksəriyyəti dözülməz şərait ucbatından Azərbaycanı tərk etmək məcburiyyətində qalmışdılar. İdmana tarixən marağın güclü olduğu ölkəmizdə vəziyyətin belə acınacaqlı şəkil alması gənclərin qeyri-sağlam həyat tərzinə, zərərli vərdişlərə aludəçiliyinə, bir sözlə, mənəvi aşınmasına səbəb oldu. Digər tərəfdən, vaxtilə ulu öndər Heydər Əliyevin göstərişi ilə tikilmiş idman kompleksləri baxımsızlıq üzündən dağıdılmış, ümumilikdə idmanımız acınacaqlı vəziyyətə düşmüşdü. Bunun obyektiv səbəbləri olsa da, subyektiv səbəbləri daha da çox idi. O illərdə idman sahəsində yaranmış vəziyyətə münasibət bildirərkən Heydər Əliyev demişdir:

**"... 1990-1993-cü illərdə Azərbaycanda bütün idman qurğuları dağıdılmışdı. Azərbaycanın ən böyük stadionu bərbad vəziyyətə salınmışdı. Ayrı-ayrı adamlar orada müxtəlif bazarlar, dükanlar açmışdılar, oranı kababxanaya döndərmişdilər. Bilin, mən bu məsələ ilə tanış olanda Azərbaycanda çox şeylər dağıdılmışdı. Amma Azərbaycanın gəncliyi, idmanı üçün ən vacib olan bu stadionun dağıdılması məni həddindən artıq incitdi".**

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli xahişi ilə hakimiyyətə qayıdışından sonra ölkədə idmana münasibət kökündən dəyişdi. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Müstəqil Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. İdmanın üzləşdiyi problemlərin aradan qaldırılması, idmançıların maddi rifahının yüksəldilməsi, onlara gələcək qələbələr üçün stimul verilməsi, habelə ölkədə yeni idman komplekslərinin yaradılması istiqamətində gələcək prioritetlər müəyyənləşdirildi. 1993-cü ilin noyabrında ulu öndər dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi. Bu görüşdə Heydər Əliyev qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar. Bu qayğı həm də ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etməlidir.

Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri əvəzsizdir. Ulu öndər idmançıların cəmiyyətdəki rolunun artması, özlərinə layiqli yer tutmaları üçün əlindən gələni edirdi. Dövlətin idman siyasətinin həyata keçirilməsi üçün 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu mənada, 1994-cü ili respublikanın idman həyatında dönüş ili adlandırmaq olar. 1995-ci il martın 5-də Heydər Əliyev yeni bir fərman imzaladı. Həmin fərmana əsasən, Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün Azərbaycan Prezidenti yanında fond yaradıldı.

Heydər Əliyev Azərbaycanda idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər qazanmaq və dünyaşöhrətli idmançılar hazırlamaq üçün bu sahədə birbaşa məşğul olan qurumlar qarşısında konkret vəzifələr qoymuşdu. İdmanın inkişafı üçün həyata keçirilməli əsas tədbirlər sırasına mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi, yeni idman bazalarının, meydançalarının, stadion və zalların tikilməsi, zəruri avadanlıqlarla təchizatı, idman klublarının açılması, mütəxəssislərinin yetişdirilməsi, ölkə birinciliklərinin və digər yarışların keçirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, yüksək nəticələri olan idmançılara diqqət və qayğı göstərilməsi, Azərbaycanda beynəlxalq yarışların keçirilməsi, uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb olunması daxil edilmişdi. Çox qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız tədricən yüksək qələbələrə imza atdılar, üçrəngli bayrağımız beynəlxalq arenalarda dalğalanmağa başladı. Heydər Əliyev idmanın, bədən tərbiyəsinin inkişafını hər bir sivilizasiyalı xalqın ali ideallarının təcəssümü olmaqla yanaşı, həm də dövlətin beynəlxalq nüfuz və mövqelərinin təntənəsi kimi qiymətləndirirdi. Ulu öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: **"İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".**

Ulu öndərin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim ümummilli lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. Cənab İlham Əliyevin idman və bədən tərbiyəsinin inkişafı, Azərbaycanın dünya idman ailəsinin bərabərhüquqlu üzvünə çevrilməsi üçün atdığı addımlar ölkənin bütün idman ictimaiyyəti tərəfindən razılıqla qarşılandı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər qısa zaman kəsiyində öz bəhrəsini verməyə başladı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı.

Azərbaycan xalqının fiziki-mənəvi sağlamlığına çalışan cənab İlham Əliyev Prezident seçildikdən sonra da idman və bədən tərbiyəsinin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsini diqqətdə saxlamış, daim respublikamızın idman imicinin yüksəlməsinə çalışmışdır. İdmana dövlət qayğısı daha da artmış, ölkəmizin iqtisadi inkişafına, artan maliyyə imkanlarına uyğun olaraq onun maddi-texniki bazasının möhkəmləndirilməsi yolunda ciddi işlərə başlanılmışdır. Dövlət başçısı Azərbaycanın bütün rayonlarında idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bütün bunlar isə gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşməsinə xidmət edir.

Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. Bir vaxtlar maddi çətinliklər üzündən respublikamızı tərk etmiş çoxlu sayda idmançı geri qayıdaraq respublikamızın idman şərəfini uca tutur, üçrəngli bayrağımızı göylərə qaldırır. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da vacib məqam kimi vurğulanmalıdır.

Uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmamış, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir.

Təqdirəlayiq haldır ki, ölkəmizdə idmanın inkişafına olan qayğı tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Aidiyyəti dövlət orqanları bu cür idman növləri ilə məşğul olan idmançılarımızın beynəlxalq yarışlarda iştirakını daim maliyyələşdirir, onları gələcək qələbələrə ruhlandırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirirlər. Cənab Prezident İlham Əliyev bu barədə deyib: "Azərbaycanda idmanın həm olimpiya, həm də qeyri-olimpiya növləri bərabər hüquqa malikdir. Heç bir ayrı-seçkilik yoxdur və bu siyasət Azərbaycanda uzun illərdir aparılır. İstər olimpiya idman növü ilə, istərsə də qeyri-olimpiya idman növü ilə məşğul olan idmançılara biz həmişə eyni gözlə baxırıq. Bu, belə də olmalıdır. Çünki hər bir idmançı beynəlxalq yarışlarda Azərbaycanın idman şöhrətini ucaldır".

İdman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi qəbul edilir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdman ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcək.

İdmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ulu öndər Heydər Əliyevin idmançılarımızdan gözlədiyi məhz qalib olmaq, dövlətimizin adını ucaltmaq idi.

Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Bu çoxşaxəli siyasət strategiyasının əsas istiqamətlərindən birini idman və bədən tərbiyəsi sahəsi təşkil edir. Prezident cənab İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il 5 mart Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. 1995-ci il martın 5-də ümummilli lider Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib. Bununla da ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməli qoyulub. 2006-cı ildə Prezident İlham Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yenidən təşkil edilib. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük uğurlar qazanılır. İdman siyasətinin düzgün müəyyən olunması sayəsində bu sahədə uğurlarımız ildən-ilə artır. Ölkəmiz artıq dünyada idman ölkəsi kimi tanınır və beynəlxalq səviyyədə idman tədbirlərinin keçirildiyi bir ölkəyə çevrilmişdir. Bu barədə cənab Prezident İlham Əliyev demişdir: "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman sahəsində nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbətdə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər".

1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən Prezident İlham Əliyevin ardıcıl səyləri, uğurlu idman siyasəti nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət ildən-ilə daha da artır. Dövlətimizin başçısının idmanı sevməsi, idmançılara xüsusi həssaslıqla yanaşması, onların peşəkarlıqlarının artırılmasına göstərdiyi davamlı qayğı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, Olimpiya İdman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları buna əyani sübutdur. Bu qərarlar müsbət nəticələr verir, Olimpiya və dünya çempionatlarında qazanılan medalların, nailiyyətlərin sayı ildən-ilə artır. Əgər 2000-ci ildə idmançılarımız Sidney Olimpiadasında 3 medal qazanmışdılarsa, 2016-cı ildə RİO Olimpiadasında bu medalların sayı 18-ə çatdı. Azərbaycan komandası medalların sayına görə 206 dövlət arasında 14-cü yeri tutdu. Bakıda 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV-İslam Həmrəyliyi Oyunları çox yüksək səviyyədə təşkil olunmuşdu. Bakı şəhəri artıq neçə illərdir ki, izləyici kütləsi 1-2 milyard arasında dəyişən bir yarışa, "Formula-1" yarışlarına evsahibliyi edir. Bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Bu yarışlar keçirilən zaman Azərbaycana kütləvi turist axını olmuşdur. Aydın məsələdir ki, bu sadəcə turizm sektorunun deyil, həm də bir çox digər sahələrin daha da inkişafı deməkdir. İndi nəinki Bakıda, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri tikilib, idman mərkəzləri uğurla fəaliyyət göstərir. İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib.

Bütün bu uğurlar Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş idmana, gənclərimizin sağlamlığına yüksək diqqət və qayğı siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi sayəsində əldə olunub. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, idmançılara göstərilən diqqət və qayğı, ölkəmizdə ən yüksək standartlara cavab verən mükəmməl idman infrastrukturu qarşıdakı illərdə daha böyük nailiyyətlərin qazanılacağına güclü zəmin formalaşdırır. Bütünlükdə, ölkə rəhbərliyinin diqqət və qayğısı ilə həyata keçirilən bu tədbirlər bir daha deməyə əsas verir ki, Azərbaycanda idman bundan sonra da uğurla inkişaf edəcək.

**Rauf ƏLİYEV,**
**Milli Məclisin deputatı.**



# Heydər Əliyev epoxasının multikultural zənginliyi

**Azərbaycan tarixən dözümlülük, tolerantlıq ənənələrinə görə seçilib. Tarixin bütün inkişaf mərhələlərində iqtisadi-siyasi mərkəz, strateji region funksiyasını özündə əks etdirən yurdumuzda multikultural dəyərlər bəşəri mahiyyət daşımaqla yanaşı, sadə həyat tərzi kimi də qəbul edilib. Hətta dini industriyanın oturuşmuş dövrlərində belə Azərbaycan özünün çoxmillətliliyi ilə diqqət çəkib, millətlərarası münasibətlər dövr, zaman, inkişaf kimi predmetlərdən asılı olmayıb. Başqa sözlə, tarixin bütün dönəmlərində ölkəmizin özünəməxsus tolerantlıq mühiti dünya üçün spesifik örnəyə çevrilib.**

Ulu öndər Heydər Əliyevin Azərbaycanda multikultural dəyərlərin inkişafına verdiyi dəstəyin tarixi hələ Sovet İttifaqı dövrünə, 1969-cu ildən sonrakı zamana təsadüf edir. Həmin illərdə yenicə inkişaf tempi qazanan Azərbaycan ittifaq səviyyəsində dünyaya açılırdı - sənayeləşmə, turizm, iqtisadi potensialın düzgün istiqamətləndirilməsi müəyyən perspektivlər vəd edirdi. Eyni zamanda həmin dövrlərdə Azərbaycanda yaşayan xalqların öz milli-mədəni ənənələrinin qorunması və inkişaf etdirilməsi üçün mühüm addımlar atılırdı. Regionda yaşayan etnik xalqların mədəni inkişafı üçün şərait formalaşdırılır, mədəniyyət evləri açılır, onların milli dəyərlərini inkişaf etdirməsi üçün zəmin yaradılırdı. Xalqların öz dillərində sərbəst danışmasına, bu dilləri yaşatmasına xüsusi diqqət və qayğı göstərilirdi. Eləcə də dini fərqlilik hər hansı bir diskriminasiya yaratmırdı. Məhz ulu öndərin birinci dəfə hakimiyyətdə olduğu dövrdən başlayaraq, bütün xalqlar milli bayramlarını rahat şəkildə qeyd edir, dini inanclarını daha sərbəst formada həyata keçirirdilər.

Beləliklə, ulu öndərin hakimiyyətinin birinci dövründə Azərbaycanda tolerantlığın, multikultural dəyərlərin inkişafı üçün əsl zəmin yarandı. Çünki XX əsrin sonunda - qloballaşmanın vüsət aldığı zamanlarda məhz tarixi tolerantlıq ənənələri Azərbaycanın multikultural həyatının daha yüksək səviyyədə inkişafı üçün təməl rolunu oynadı. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Bu birliyin, bu həmrəyliyin dərinləşməsi, millətlərarası münasibətlərin yeni dövrdə dövlətçilik məfkurəsi ətrafında birləşməsi, tənzimlənməsi fenomenal şəxsiyyət ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev müdrik siyasəti ilə xalqı azərbaycançılıq ideologiyası ətrafında birləşdirməklə ölkəmizin və xalqımızın işıqlı gələcəyinə yol açdı. Ulu öndər milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bu dəyərləri qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. *"...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"*, - deyən ulu öndər Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər bir-biri ilə sıx bağlıdır. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də onu çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. *"Mən fəxr edirəm ki, azərbaycanlıyam!"*, - deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Heydər Əliyev hələ Sovet İttifaqı rəhbərliyində çalışarkən xalqımızın dini dəyərlərinin qorunmasında da müstəsna rol oynamışdı. Ulu öndər bu barədə deyirdi: *"Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il müddətində dinə qarşı aparılmış təbliğat və xüsusən dinin qadağan olunması və təhrif edilməsi idi. Ancaq eyni zamanda bu tarix onu da göstərir ki, din və o cümlədən bizim mənsub olduğumuz İslam dini o qədər qüdrətə malikdir ki, o qədər gücə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət, heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərdi ki, bunu bacara bilmədi".*

Müstəqilliyimiz bərpa olunan zaman ölkəmizdə 20-yə yaxın məscid var idi. Ulu öndər Azərbaycanın müqəddəs məkanlarına, İslam dininə inancı və ehtiramı özündə ehtiva edən ocaqlara xüsusi diqqət və qayğı göstərməklə hər şeydən əvvəl, özünün İslam dininə münasibətini nümayiş etdirdi. Bibiheybət məscidində yenidənqurma və əsaslı təmir işləri başlandı. Dünyanın bir çox yerlərindən gələn müsəlmanların ziyarətgahına çevrilmiş məscid vaxtilə sovet əsgərləri tərəfindən 1933-cü ildə partladılıb dağıdılmışdı. VII əsrin yadigarı olan Bibiheybət ziyarətgahı əsrlər boyu insanların inanc və ibadət yeri olub və Azərbaycan xalqı tərəfindən qorunub. XIII əsrdə burada Şirvanşahlar tərəfindən məscid tikilib. Milli-mənəvi dəyərlərin təbliğ olunması, milli ənənələrimizə qayıdış prosesi ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra yenidən vüsət aldı. Ulu öndərin səyləri nəticəsində ölkədə sabitlik yarandı, quruculuq, inkişaf dövrü başladı. Ən son statistikaya nəzər salsaq, ulu öndər tərəfindən əsası qoyulan siyasətin uğurları göz önündə canlanır:

- 2009-cu ildən bu günədək 993 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 956-sı İslam, 37-si isə qeyri-İslam (xristian - 26; yəhudi - 8; krişna - 1; bəhai - 2) təmayüllüdür. Hazırda respublikamızda Azərbaycan İlahiyyat İnstitutu və 5 dini təhsil müəssisəsi (İslam kolleci) fəaliyyət göstərir. Ölkə ərazisində 2253 məscid mövcuddur, habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Ölkədə ümumilikdə, 748 pir və ziyarətgah müəyyən edilib.

İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. Məscidlərin 65-i tamamilə, 2-si isə qismən düşmən tərəfindən dağıdılaraq yararsız hala salınıb.

Azərbaycan dünyəvi və çoxkonfessiyalı dövlətdir. İslam dini ölkəmizdə tarixi - mənəvi irsin, mədəniyyətin, milli mentalitetin ayrılmaz hissəsi kimi qəbul edilir. Əsrlər boyu müxtəlif xalqların, dini konfessiyaların təmsilçiləri Azərbaycanda dinc yanaşı və əmin - amanlıqda yaşamışlar. Ulu öndər Heydər Əliyev deyirdi: *"Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır".*

Azərbaycan Respublikası hər zaman fərqli dinlərin qardaşlıq zəminində yaşadığı ərazi olub. Təbii ki, müxtəlif dini, siyasi, etnik qarşıdurmalarla müşayiət olunan XX əsrin sonunda Azərbaycanda bütün dinlərin nümayəndələrinin sərbəst şəkildə öz inanclarına etiqad etməsinə şəraitin yaradılması məhz ulu öndər əməyinin nəticəsi idi. Belə ki, Heydər Əliyevin şah əsəri sayılan Azərbaycan Konstitusiyasında dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında bərabər olması Azərbaycandakı tolerantlığın bariz sübutu idi. Müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabər status daşıyır, ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, digər dini icmalara da xüsusi qayğı göstərilirdi. 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası Azərbaycan müstəqillik əldə etdikdən sonra Rus Pravoslav Kilsəsinə verildi. 2001-ci ildə Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın keçmiş Patriarxı, II Aleksey bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdi. Açılış mərasimində ümummilli lider Heydər Əliyev də iştirak etmişdir. Bundan başqa, 1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi - Müqəddəs Məryəmin Miladı baş kilsəsi bərpa olunmuşdu.

Respublikanın katolik icması da hər zaman dövlət qayğısını öz üzərində hiss etmişdir. 2000-ci ildə dini ayinlərin yerinə yetirilməsi üçün icmaya xüsusi bina verilmiş və bu bina kiçik kilsəyə çevrilmişdi. Hazırda respublikamızın paytaxtında layihəsi Vatikan ilə razılaşdırılan katolik kilsəsi inşa edilir ki, xarici görkəminə görə kilsə əvvəllər Bakıda olan katolik kilsəsinə bənzəyir.

Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan dövlətinin qayğısı ilə əhatə olunub. Məhz ulu öndər Heydər Əliyevin şəxsi səyi ilə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ibrani bölməsi açılmışdı, Azərbaycan Milli Elmlər Akademiyasının Etnoqrafiya İnstitutu isə Rusiyanın yəhudi mədəniyyətinin qorunması və inkişafı fondu ilə birgə "Yəhudilər Azərbaycanda" kitabını hazırlamışdır. Bundan başqa, 2001-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasında "Qafqazın dağ yəhudiləri" mövzusunda beynəlxalq seminar keçirilmişdir. Roma-katolik Kilsəsinin sabiq başçısı II İohann Pavelin 2002-ci ildə respublikamıza etdiyi tarixi səfər də xüsusi əhəmiyyət daşıyırdı. Bakıda olarkən Papa Azərbaycandakı tarixi dözümlülük ənənələrini xüsusi qeyd etmişdir. Tarixi faktdır ki, Roma hakimiyyəti tərəfindən vaxtilə təqib olunan xristianlar məhz burada sığınacaq tapmışlar.

Ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti ulu öndər Heydər Əliyevin dövlət-din münasibətlərinin təkmilləşməsi sahəsində aparılan müdrik siyasətinə uyğun olaraq daha da möhkəmlənmiş, ümumdövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Qədim tarixə və zəngin ənənələrə malik xalqımızın xarakterik keyfiyyəti olan multikulturalizmin və tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmış və bu sahə dövlətin qayğısı ilə əhatə olunmuşdur. Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını ortaya qoymaqla respublikamızda tolerantlıq və multikulturalizmin sürətlə inkişaf etməsinə geniş şərait yaratdı. Heydər Əliyev Azərbaycanda yaşayan milli azlıqlarla görüşü zamanı demişdir ki, "mən milli azlıqlarla yox, Azərbaycan xalqı ilə görüş keçirirəm".

Ümummilli lider 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının birinci qurultayında azərbaycançılığın mahiyyətini belə ifadə etmişdir: *"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".*

Ulu öndər öz çıxışlarında həmişə Azərbaycanın çoxmillətli ölkə olmasını, etnik rəngarəngliyini və tolerantlığa böyük əhəmiyyət verməsini xalqımızın böyük sərvəti hesab etmişdir: *"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür... Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".*

2020-ci ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bir çağırışı ilə silaha sarılan, Vətən uğrunda canından keçən igidlərimiz bütün dünyaya nümunə oldular. Ali Baş Komandanımızın əmri ilə erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatları başlanan kimi xalqımız bir yumruğa çevrilməyi bacardı. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qələbə uğrunda mübarizəyə qoşuldu. Azərbaycanda yaşayan bütün dini konfessiyalar, icmalar, etnik azlıqlar ölkə Prezidentinin ətrafında sıx birləşdiyini, Qarabağın azadlığı uğrunda ortaya qoyulan bu iradəni dəstəklədiyini bəyan etdi. Bu, bəlkə də bəşər tarixində görünməmiş bir hadisə idi. Bir xalqın, bir millətin öz haqq savaşı uğrunda "dəmir yumruq" kimi düşmənə qarşı birləşməsi qələbəmizin təminində əhəmiyyətli rol oynadı. Hər zaman qürurla səsləndirdiyimiz çoxmillətli ölkə olmağımız bir daha əyani şəkildə özünü göstərdi. Düşmənə qarşı səngərdə birləşən və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən oğullarımız məhz milli-mənəvi dəyərlərimizin bizə verdiyi gücün, qüvvənin sayəsində Prezidentimizin "Mən hər bir azərbaycanlının Prezidentiyəm", "Biz birlikdə güclüyük" və "Qarabağ Azərbaycandır" şüarlarını özləri üçün həyat fəlsəfəsinə çevirdilər. Belə bir gücün qarşısında isə heç bir düşmən davam gətirə bilməzdi ki, belə də oldu. Bu birlik, bu inam Azərbaycanın qəti və şanlı Zəfəri ilə nəticələndi.

Bütün bu tolerantlıq ənənələrinin dünyada təqdim edilməsi işində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində böyük fədakarlıq göstərən, xeyirxah əməlləri ilə əsl bəşəri dəyərləri təlqin edən, bəşəriyyəti mərhəmətə, qarşılıqlı köməyə, sülhə çağıran Heydər Əliyev Fondunun rolu olduqca böyükdür. Azərbaycan multikulturalizmi yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə öz səmərəli nəticələri ilə insanlara sülh, əmin-amanlıq, qarşılıqlı hörmət bəxş etməyə yönəldilmişdir. Əsrlər boyu iki dünyanın Avropa və Asiyanın təkcə coğrafi deyil, həm də mədəni baxımdan sərhədi sayılan Azərbaycanda multikultural dəyərlərin qorunub saxlanılmasına xidmət edən siyasi kurs yuxarıda qeyd etdiyimiz kimi, uğurla aparılır. Bu kursun uğurla davam etdirilməsində Heydər Əliyev Fondu və onun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri danılmazdır. Tolerant cəmiyyət modelinin özünəməxsus və nadir formasının yaranmasında, qorunub saxlanmasında Heydər Əliyev Fondunun rolu danılmazdır. Fond olduqca əhəmiyyətli, möhtəşəm proqramlar həyata keçirir. Bu proqramlar Azərbaycan multikulturalizminin yalnız ölkə daxilində deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəlifliklərі şəraitində fəaliyyət göstərməsini reallaşdırır. Bu, ondan irəli gəlir ki, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Heydər Əliyev Fondu isə fəaliyyəti ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına, ölkəmizdə formalaşmış gözəl ənənəyə töhfəsini verməkdədir. Heç də təsadüfi deyildir ki, Prezident İlham Əliyev istər ölkə hüdudlarından kənarda, istərsə də ölkə ictimaiyyətinin qarşısında çıxış edərkən deyir: "Multikulturalizm ölkəmizdə hər bir insanın həyat tərzinə çevrilmişdir".

2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışması, milli birliyimizə sədaqətlə xidmət göstərməsidir. Bu gün xalqımız ulu öndər Heydər Əliyevin siyasi varisi - praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir.

**Azər BADAMOV,**
**Milli Məclisin deputatı.**

# Heydər Əliyevin müdrik xarici siyasəti

*Ötən əsrin 90-cı illərində, Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqilliyinə qovuşmuş dövlətlər dövlət quruculuğunun uğurlu olması üçün xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdı. Yəni, daxili siyasətlə xarici siyasət bir-birini tamamlamalı idi. Bu baxımdan, Heydər Əliyevin 1993-cü ildə xalqımızın təkidli xahişi ilə yenidən hakimiyyətə gəlişi Azərbaycanın xarici siyasət kursunun prioritet istiqamətləri dövrün tələblərinə və reallıqlara uyğun şəkildə formalaşdırıldı, bu istiqamətlərdə mühüm vəzifələr müəyyənləşdirildi.*

Həmin vəzifələrdən ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl, müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə, 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Müstəqilliyin ilk iki ilində bəzi qonşu dövlətlərlə əsassız olaraq yaradılmış soyuqluğun aradan qaldırılması istiqamətində bir sıra zəruri tədbirlər görüldü.

O dövrdə ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi üçün atılan addımlar mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsinə və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı Beynəlxalq Konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətində qazanılan ən mühüm nailiyyətlərdən biridir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirilib. 1994-cü il mayın 4-də Heydər Əliyev "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladı. Bu sənəd Azərbaycan Ordusuna NATO-nun hərbi strukturları ilə sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verdi.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də məhz Avropa Şurasıdır. 1996-cı il iyunun 26-28-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) növbəti sessiyası zamanı Assambleyanın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi. Ölkəmizin AŞPA-da təmsil olunmasına və Avropa Şurası tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaratdı. Avropa Şurasının bərabərhüquqlu üzvü olmaqla respublikamız mühüm problemlərini dünya ictimaiyyətinin diqqətinə obyektiv şəkildə çatdırmaq üçün yeni və çox mötəbər tribuna əldə etmiş oldu. 2001-ci il yanvarın 17-də isə Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Və Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan Parlamentinin nümayəndə heyətinə rəhbərlik Milli Məclisin deputatı İlham Əliyevə həvalə edildi.

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, mənə də AŞPA-da ilk nümayəndə heyətimizin üzvü olmaq nəsib olmuş və bu etimad göstərilmişdi.

Qazanılan uğurlarla yanaşı, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ümummilli liderin Heydər Əliyevin xarici siyasətində başlıca yer tuturdu. Bu məqsədlə, 1993-cü ilin ikinci yarısından etibarən ümummilli lider respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzünü beynəlxalq aləmə çatdıraraq, regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışdı. Bu məqsədlə, Azərbaycan Prezidentinin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində apardığı müzakirələrdə göstərdiyi səylər onun məqsədyönlü siyasətinin mühüm tərkib hissəsini təşkil edirdi.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın BMT ilə əlaqələri daha da inkişaf etməyə başladı. Belə ki, Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək bu beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. Bundan başqa, 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil edən sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Belə ki, Zirvə toplantısı zamanı ümummilli liderin siyasi iradəsi və diplomatik fəaliyyəti sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivəsini müəyyənləşdirən sənəd qəbul edildi. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi.

Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi ümummilli liderin iki ölkə arasındakı münasibətlərin möhkəm əsaslarının formalaşmasında müstəsna rolunu qeyd etmək istəyirəm.

25-27 sentyabr 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri dövlətlər arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olmuşdur. Səfər zamanı sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İtaliya Respublikasının Prezidenti Oskar Luici Skalfaro ilə görüşü zamanı ölkəmizin İtaliya ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini, habelə, Azərbaycanın İtaliyanı Avropanın böyük demokratik ənənələrə, inkişaf etmiş iqtisadiyyata malik dövlət, əməkdaşlıq üçün çox yaxşı tərəfdaş kimi baxdığını bildirmişdir. Görüş zamanı müstəqilliyimizin ilk illərində ölkəmizdəki daxili siyasi vəziyyət və Ermənistan-Azərbaycan arasındakı münaqişə mövzusuna da toxunulmuşdur. Həmin gün Prezident Heydər Əliyev Romanın "Giçi saray"ında Baş nazir Romano Prodi, habelə Parlament sarayında Senat sədri N.Mançio və Deputatlar Palatasının sədri L.Violante ilə görüşmüş və ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə olunmuşdur.

Azərbaycan Prezidentinin İtaliyaya səfəri çərçivəsində ölkələr arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanmışdır: Münasibətlərin Prinsipləri haqqında Birgə Bəyanat, İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat, Mədəni, elmi və texnoloji əməkdaşlıq sazişi barədə Birgə Bəyanat, iki dövlət arasında 1997-1998-ci illər üçün texniki əməkdaşlıq haqqında saziş, Turizm sahəsində əməkdaşlıq haqqında müqavilə, Hava xidmətlərinə dair saziş, İnvestisiyaların qorunması və həvəsləndirilməsi haqqında müqavilə.

Həmçinin, sentyabrın 26-da Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın "Eni-Acip" şirkəti arasında "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsas kommersiya prinsipləri və müddəaları barədə sənəd imzalanmış, həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İtaliyanın "Aleniya" şirkətinin prezidenti Kvuaro Kvuani ilə görüşündə Azərbaycan-İtaliya münasibətlərinin daha da canlandırılması üçün geniş imkanların olmasından söz açmışdır.

Heydər Əliyev səfər zamanı Roma və Neapol şəhərlərinin merləri və "Enel", "ENİ" "Fata" kimi böyük İtaliya şirkətlərinin təmsilçiləri ilə görüşlər keçirmişdir. Azərbaycan Respublikasının Prezidenti həmçinin, İtaliyanın "La Repubblica" qəzetinə və "Il Sole 24 ore" kimi nüfuzlu gündəlik iqtisadiyyat jurnalına da müsahibələr vermişdir. Heydər Əliyev "Il Sole 24 ore" jurnalına verdiyi müsahibəsində demişdir: "Mənim ən böyük təəssüratım ondan ibarətdir ki, Sovetlər İttifaqı dağılıb və Azərbaycan öz dövlət müstəqilliyini əldə edib. Hesab edirəm ki, XX əsrin sonunda Sovetlər İttifaqının dağılması bəşər tarixi üçün çox böyük hadisədir. Bu, Azərbaycan xalqı üçün də böyük xoşbəxtlikdir. Məhz bunun nəticəsində Azərbaycan öz milli azadlığını, dövlət müstəqilliyini qazanıb".

Ulu öndərin İtaliya Respublikasına rəsmi səfəri bu ölkə ilə bütün sahələrdə əlaqələrin daha da gücləndirilməsi üçün böyük perspektivlər açmışdır.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, vacib və olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu fövqəldövlət mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi.



Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığa dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvədən düşməsinə gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvədən düşməsi, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni bir istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni kurs çevik taktiki gedişlərlə həyata keçirilirdi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu müttəfiqlər qazanması Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu. Prezident Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açdı, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi.

Ötən əsrin 90-cı illərinə doğru sosializm dəyərlərindən imtina edərək bazar iqtisadiyyatı və demokratiya yolunu seçmiş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulması həm də yeni dövrün reallıqları ilə şərtlənir. Məsələ bundadır ki, vaxtilə keçmiş SSRİ də daxil olmaqla sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi iqtisadi-siyasi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına səbəb olmuşdur. Rəsmi Bakının Mərkəzi və Şərqi Avropa ilə qarşılıqlı faydalı əməkdaşlığı bütün səviyyələrdə genişləndirməyə çalışması bu məkanda yerləşən dövlətlərin Avropanın siyasi mühitinin müəyyənləşməsində mövqeyinin və fəal xarici siyasətinin mühüm təsirə malik olması ilə şərtlənir. Azərbaycan iqtisadi və siyasi islahatları uğurla başa çatdırmış həmin ölkələrin Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsindəki mütərəqqi təcrübəsindən səmərəli şəkildə yararlanmaq niyyətindədir. Hazırda Qərbi Avropa ilə yanaşı, Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa, Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi ölkələr də Azərbaycanın avrostrukturlara inteqrasiyası prosesinə fəal şəkildə dəstək verir, təcrübələrini bölüşürlər. Eyni zamanda Mərkəzi və Şərqi Avropa respublikamızın Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmini baxımından əlverişli geosiyasi məkandır.

Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühüm istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, İslam dünyası ilə münasibətlər təşkil edirdi. Bu baxımdan, dövlət başçısı Heydər Əliyevin Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə, ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək etsin. Bu isə Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırırdı. Odur ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı, bu cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı. Bu illər ərzində Türkiyə ilə əlaqələr ümummilli liderin "bir millət, iki dövlət" formulu əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər respublikamız üçün həlledici oldu. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Bu gün də hər kəs ulu öndəri böyük hörmət və məhəbbətlə anır. Azərbaycan xalqı və dövləti var olduqca Heydər Əliyevin nəhəng tarixi xidmətləri unudulmayacaq, Azərbaycanın əldə etdiyi bütün uğurlarda ulu öndərin izi görünəcək.

**Azər KƏRİMLİ,**
**Milli Məclisin deputatı.**

# DÖVLƏTÇİLİK KONSEPSİYASINDA HÜQUQUN ALİLİYİ

**Ölkə Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamına əsasən Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar ulu öndərin xatirəsinin əbədiləşdirilməsi, zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin daha geniş öyrənilməsi və təbliği istiqamətində silsilə tədbirlər həyata keçirilir.**

Müvafiq sərəncamla təsdiq edilmiş "Tədbirlər Planı"na uyğun olaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyası tərəfindən ötən il dekabr ayının 14-də "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin ədliyyə orqanlarında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilmişdir. Plana uyğun olaraq Nazirliyin bütün struktur və qurumlarında silsilə tədbirlər davam etməkdədir.

Heydər Əliyev siyasi fəlsəfəsinin əsasını dövlət müstəqilliyi, demokratiya, siyasi plüralizm, şəffaflıq, hüququn aliliyi və sosial ədalət təşkil edir.

1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətlənmişdir. Ümummilli lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ulu öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, liberallığı özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin reallaşmasına nail olmuşdur. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır", - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına səy göstərmişdir. Böyük siyasi xadim Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının təşəbbüskarı olmuşdur. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır.

1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da, Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur.

1995-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. İnsan hüquqlarının qorunması sahəsində əldə edilən ən mühüm nailiyyətlərdən biri də BMT ilə Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edilmişdir. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Proqrama əsasən Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi artırılmışdır.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün bir sıra mükəmməl qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə, 21 fevral 1996-cı il tarixdə Hüquq İslahatları Komissiyası yaradılmış, Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının məntiqi yekunu olmuşdur.

1993-cü ildən tətbiqinə moratorium qoyulan ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

Azərbaycanda Heydər Əliyevlə başlanan və ötən 20 il ərzində Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, daha da zənginləşdirilən inkişaf strategiyasının əsas göstəricisi əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsidir. Xalqımızın yeganə ağrılı probleminin aradan qaldırılması göstərdi ki, Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu siyasət Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ilə, eləcə də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələrlə davam etdirilir.

Bu gün Azərbaycanın tarixinə yeni reallıqlar hakimdir. İndi əsas hədəfimiz Qarabağ və Şərqi Zərgəzurun bərpası, Vətən müharibəsinin nəticələri fonunda milli maraqlarımızın təmin edilməsidir. Bu istiqamətlərin hər biri üzrə mənzərə isə qürurvericidir. Qazanılan hər bir uğur, hər bir qələbə göstərir ki, Heydər Əliyev ideyaları yaşayır.

**Məmməd MÜSƏLLİMOV,**
**Bakı şəhəri, Pirallahı Rayon İcra Şöbəsinin icra məmuru,**
**I dərəcəli ədliyyə qulluqçusu.**



# Qarabağda böyük dirçəliş dövrü

(əvvəli 1-ci səhifədə)

Şanlı Azərbaycan ordusu Füzulini işğalçılardan azad edəndən sonra Qarabağ iqtisadi rayonuna daxil olan bu ərazilərdə dövlət tərəfindən yenidənqurma və bərpa işlərinə başlanılıb. Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən ordumuzun Şuşaya doğru hərəkət etdiyi keçilməz dağ cığırlarının yerində Zəfər yolu çəkilib və istifadəyə verilib. Ötən ilin payızından tikintisinə başlanan Əhmədbəyli-Füzuli-Şuşa yolunda işlər artıq yekunlaşır. Qeyd edək ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometrdir və mədəniyyət paytaxtımız olan Şuşa şəhərinə ikinci alternativ yoldur. Hər iki yol boyunca tunellər, körpülər inşa edilib, bütün zəruri infrastruktur yaradılıb. Daha bir uğur isə bölgədə inşa edilmiş hava limanı ilə bağlıdır. Həqiqətən də möcüzə idi ki, 8 ay ərzində mina ilə çox çirklənmiş ərazilər təmizlənsin və beynəlxalq standartlara uyğun hava limanı inşa olunsun. Bölgədə və dünyada analoqu olmayan ən müasir səviyyədə inşa edilərək istifadəyə verilən hava limanı iki ilə yaxındır ki, təyyarələri qəbul edir. Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Ermənistanın xarabalığa çevirdiyi bu qədim şəhər yenidən qurulur. Şəhərin Baş Planı təsdiq edilib. Qeyd edək ki, Füzuli şəhərində 17,8 hektar ərazini əhatə edəcək ilk yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa edilir. Ümumilikdə, məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur. Füzuli şəhəri yalnız hündürmərtəbə binalardan ibarət olmayacaq. Şəhərdə az və ortamərtəbəli çoxmənzilli binalar da inşa ediləcək. Şəhərdə həyətyanı bağ sahələri olan fərdi evlər də tikiləcək. Tezliklə keçmiş məcburi köçkünlər mərhələli şəkildə uzun müddət işğal altında qalan öz yurdlarına. yeni və müasir evlərə qayıdacaqlar.

Qeyd edək ki, azad edilmiş ərazilərdə qısa müddətdə yaşayış üçün münbit şəraitin yaradılması, yolların, dəmiryolu xətlərinin çəkilməsi, enerji təsərrüfatının qurulması, yeni beynəlxalq hava limanlarının inşa edilməsi bu bölgələrdə iqtisadi inkişafın sürətləndirilməsi və əlverişli investisiya mühitinin yaradılmasına güclü təkan verəcək. Hazırda qarşıda duran əsas vəzifələrdən biri də azad edilmiş ərazilərin zəngin resurslarından, infrastruktur potensialından səmərəli istifadə, bu məqsədlə dövlət-özəl sektor tərəfdaşlığının təmin edilməsidir. Dövlət əlverişli biznes mühiti yaratmaqla, həmin ərazilərdə iqtisadi fəaliyyətin canlandırılmasına və dayanıqlı məskunlaşmanın təmin olunmasına çalışır. Mütəxəssislər hesab edirlər ki, Ağdamın böyük quruculuq işlərində mühüm yer alması sosial əhəmiyyət kəsb etməklə, vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

İşğaldan azad edilən yurd yerlərinə köçəcək insanların iş yerləri ilə təmin olunmaları üçün Ağdam Sənaye Parkında rezidentlər tərəfindən sənaye müəssisələrinin inşasına başlanılıb. Qeyd edək ki, bu sənaye parkı Qarabağda ilk nümunədir. Prezident İlham Əliyevin imzaladığı "Ağdam Sənaye Parkının yaradılması haqqında" Fərmanda bildirilir ki, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları və digər mühüm logistika potensialının mövcudluğu rayonda müasir infrastruktura malik sənaye parkının yaradılmasını zəruri edir. Sahibkarların böyük maraq göstərdiyi Ağdam Sənaye Parkının artıq 15 rezidenti qeydə alınıb və onlar tikinti-quruculuq işlərinə başlayıblar. Bu günlərdə sənaye parkında "Ağdam Süd" MMC-yə də rezident statusu verilib. Həmin şirkət Parkda investisiya dəyəri 2,2 milyon manat olan süd məhsullarının istehsalı müəssisəsi yaradacaq və burada 40 nəfər işlə təmin ediləcək.

Dövlətimizin başçısı Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində işğaldan azad edilmiş rayonlarda aparılan quruculuq işləri haqqında danışarkən bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz - bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla, barbarlıqla məşğul olub. Biz - bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal artıq işə start verilmişdir. Hazırda artıq iki yaşayış məntəqəsində keçmiş köçkünlər yaşayır - Ağalı və Talış kəndlərində. Biz bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük - abad şəhərlər, abad kəndlər, ağıllı idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur. Yəni bütün bunlar göz qabağındadır. Yenə də deyirəm, bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə gözəl olacaq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Sahibə Qafarova Varşava Universitetində Ermənistanın hərbi-siyasi təxribatları barədə danışıb




**Milli Məclisin sədri Sahibə Qafarova Varşava Universitetində "Dialoq və həmrəylik: Azərbaycanın əməkdaşlıq və inkişafa baxışı" mövzusunda məruzə ilə çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sahibə Qafarova çıxışında Ermənistanın işğalçılıq siyasəti, hərbi-siyasi təxribatları barədə geniş məlumat verib.

Bildirib ki, Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıb. İşğal illərində Ermənistan tərəfindən şəhər və kəndlərimiz viran edilib, Azərbaycanın tarixi, mədəniyyət və dini abidələri erməni vandalizmi nəticəsində dağıdılıb, həmin rayonların təbiətinə qarşı ekoloji terror törədilib. İşğal olunmuş torpaqlarda Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı məcburi köçkün və qaçqın vəziyyətinə salınıb.

Milli Məclisin sədri deyib ki, Azərbaycan 2020-ci ildə BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən özünümüdafiə hüququndan istifadə edərək, öz gücü ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququn prinsip və normalarını icra etdi, bununla da öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

"İndi biz "ağıllı şəhərlər və kəndlər" konsepsiyası əsasında bu ərazilərin bərpası və yenidən qurulması üzrə genişmiqyaslı işlərə başlamışıq. Keçmiş məcburi köçkünlərin ilk ailələri artıq evlərinə qayıtmağa başlayıb", - deyə S.Qafarova vurğulayıb.

Parlamentin sədri işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən quruculuq işlərində ən mühüm problemlərdən birinin Ermənistanın həmin ərazilərdə bir milyondan çox mina basdırmasının olduğunu söyləyib. O, son iki il ərzində təxminən 300 mülki vətəndaşın və hərbi qulluqçunun bu minalara düşərək həlak olduğunu və yaralandığını deyib.

Azərbaycan regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səylər göstərdiyini vurğulayan S.Qafarova ölkəmizin Ermənistana beynəlxalq hüququn beş prinsipi əsasında sülh müqaviləsi imzalamağı təklif etdiyini deyib. O qeyd edib: "Lakin Ermənistan hələ də öz üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozur, silahlı birləşmələrini Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində saxlayır və regionda bütün kommunikasiya və nəqliyyat marşrutlarının açılmasına mane olur. Ermənistan birtərəfli qaydada sülh danışıqlarından çıxaraq, vəziyyəti gərginləşdirmək məqsədilə Azərbaycanın sərhədində və suveren ərazisində hərbi təxribatlar törətməkdə davam edir. Ermənistanın gələcəyə baxışının nə vəd etdiyi hələ məlum deyil".

Parlamentin sədri Azərbaycan işğala məruz qalmış dövlət olmasına baxmayaraq, gələcəyə baxdığını və sülh uğrunda səylər göstərdiyini diqqətə çatdırıb. Bildirib ki, çünki sülh sabitliyə, inkişafa və əməkdaşlığa aparan yeganə yoldur.

Sonra Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova Varşava Universitetinin Fəxri diplomu və medalı ilə təltif olunub.

Fəxri diplomu və medalı Sahibə Qafarovaya Varşava Universitetinin rektoru professor Novak Alojzy təqdim edib. ■

# Azərbaycandakı əlverişli biznes imkanları Özbəkistan sahibkarlarının sənaye zonalarına investisiya yatırmağa marağını artırır

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratovla görüşündə ikitərəfli münasibətlərin inkişafına xüsusi önəm verildiyi vurğulanıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, dövlət başçılarının səfərləri, keçirilən yüksək səviyyəli görüşlər strateji tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə, qarşılıqlı faydalı əməkdaşlığın davamlı inkişafına təkan verib.

Nazirlərin görüşündə qeyd edilib ki, bu ilin fevralında Daşkənddə keçirilmiş 1-ci Özbəkistan-Azərbaycan Regionlararası Forumu əməkdaşlığımızın genişləndirilməsi üçün yeni üfüqlər açıb. Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın ötən ilin avqustunda keçirilmiş iclasında əldə olunmuş razılıqların uğurla həyata keçirilməsi istiqamətində atılan məqsədyönlü addımlar da səmərəli nəticələr verir. Qarşılıqlı investisiya qoyuluşları sahəsində əməkdaşlığın genişləndirilməsi üçün imkanlar var. Bu məqsədlə Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması üzrə işlər davam etdirilir.



Ləziz Kudratov ölkəsinin Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini vurğulayıb, işgüzar münasibətlərin, Özbəkistan və Azərbaycan regionları arasında əlaqələrin qurulmasının qarşılıqlı faydalı tərəfdaşlığımızı daha da gücləndirəcəyini bildirib. Qeyd olunub ki, Azərbaycandakı əlverişli biznes imkanları Özbəkistan sahibkarlarının ölkəmizdəki sənaye zonalarına investisiya yatırmağa və birgə layihələr icra etməyə marağını artırır.

Tərəflər sənaye, energetika, kənd təsərrüfatı, investisiya, kiçik və orta biznes, ticarət, nəqliyyat-tranzit və digər sahələrdə tərəfdaşlığın gücləndirilməsi baxımından əhəmiyyət kəsb edən məsələlər barədə də fikir mübadiləsi aparıblar. ■

# Azərbaycan səfirliyi Rusiya XİN-ə nota verib

**Azərbaycan səfirliyi Rusiya Xarici İşlər Nazirliyinə (XİN) etiraz notası verib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasının İnformasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsinin sədr müavini Oleq Matveyçevin "RUSARMİNFO" erməni xəbər agentliyinin efirində səsləndirdiyi yolverilməz bəyanatları ilə əlaqədar Azərbaycan səfirliyi Rusiya XİN-ə etiraz notası göndərib.

Səfirliyin notasında "Yedinaya Rossiya" Partiyasından olan deputatın Azərbaycan və Türkiyə ilə bağlı fikirlərinin qəbuledilməz olduğu, regionda sabitliyi pozmağa yönəldiyi vurğulanıb, Ermənistan cəmiyyətində revanşist qüvvələri keçmişdə qalmış münaqişəni yenidən alovlandırmağa təhriki kimi qiymətləndirilib.

İşğaldan azad edilmiş ərazilərdə fəal şəkildə aparılan yenidənqurma işləri fonunda "Azərbaycan tərəfindən münaqişənin qızışdırılması" ilə bağlı bəyanatların cəfəngiyat olduğu qeyd edilib.

Bildirilib ki, 30 illik işğalın ağır nəticələrinə baxmayaraq, ilk olaraq Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə təşəbbüs göstərən, dövlətlərin ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasını nəzərdə tutan sülh gündəliyinin təşviqini davam edən məhz Azərbaycandır.

Azərbaycan tərəfi Rusiyanın hakim partiyasının nümayəndəsinin bu cür bəyanatlarının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün səylər göstərən Rusiyanın vasitəçiliyinə kölgə saldığını bildirib. Oleq Matveyçev Azərbaycan ilə Rusiya arasında 2022-ci ilin fevralında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə barədə xəbərsiz ola bilməz və onun bu cür bəyanatları həmin sənədin müddəalarının pozulması deməkdir. Hakim partiyanın nümayəndəsi olan deputat öz bəyanatlarında məsuliyyətli olmalı və Rusiya Federasiyasının rəsmi mövqeyini rəhbər tutmalıdır.

Rusiya parlamentində informasiya siyasətinə cavabdeh deputatın Azərbaycana qarşı hücumlar üçün informasiya platforması olan, Rusiyada etnik zəmində millətlərarası düşmənçiliyi qızışdıran erməni saytına müsahibəsi onun sifarişli və imperativ xarakter daşımasından xəbər verir. ■

# Dövlət Bayrağımızı yandırmasına görə Aram Nikolyan beynəlxalq axtarışa verilib

**Xəbər verildiyi kimi, aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində mediadan istifadə olunmaqla milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş nümayişkaranə hərəkətlərlə dövlət Bayrağımızın yandırılması faktı üzrə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 12.2-ci, 283.2.1-ci, 12.2-ci, 283.2.2-ci və 12.2, 324-cü maddələri ilə başlanmış cinayət işinin istintaqı Baş prokurorluğun İstintaq idarəsində davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ibtidai istintaqla Ermənistan İctimai Televiziyasının dizayn studiyasının rəhbəri işləmiş, 1982-ci il sentyabrın 28-də Ermənistan Respublikasının İrəvan şəhərində anadan olmuş və həmin dövlətin vətəndaşı olan Nikolyan Aram Vrejinin milli düşmənçilik zəminində Azərbaycan Respublikası vətəndaşları və onun maraqlarına qarşı cinayətlər törətmək məqsədilə hazırda şəxsiyyətləri istintaqla araşdırılan bir qrup şəxslə birləşərək qeyd olunan tədbirdə geniş beynəlxalq auditoriya qarşısında nümayişkaranə şəkildə dövlət Bayrağımızı qəsdən yandırıb, Azərbaycana qarşı Ermənistan cəmiyyətində milli nifrət və düşmənçiliyin salınmasına, eləcə də milli ləyaqətin alçaldılmasına yönələn hərəkətlər törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Aram Nikolyan aprelin 19-da Cinayət Məcəlləsinin 12.2, 283.2.1, 12.2, 283.2.2 və 12.2, 324-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı əsasında barəsində həbs qətimkan tədbiri seçilməklə İnterpol xətti ilə beynəlxalq axtarışa verilib.

Göstərilən xüsusatlarla əlaqədar Baş Prokurorluq tərəfindən həmin cinayət işinin istintaqının birgə əməkdaşlıq çərçivəsində aparılması üçün xarici dövlətlərin hüquq-mühafizə orqanlarına hüquqi yardım haqqında rəsmi müraciətlər göndərilərək Aram Nikolyan barəsində zəruri istintaq hərəkətlərinin keçirilməsi və dövlət sərhədini keçdiyi halda saxlanılaraq Azərbaycan Respublikasına ekstradisiya olunması xahiş edilib.

Azərbaycan Respublikası və onun vətəndaşlarına qarşı milli nifrət və düşmənçiliyinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, eləcə də təqsirkar şəxslərin milli və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri istiqamətində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən kompleks tədbirlərin görülməsi davam etdirilir. ■



# Azərbaycan və Koreya arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Aprelin 20-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov ilə Koreya Respublikasının Milli Assambleyasının üzvü və Koreya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Suh Byonq-sunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı nazir müavini Elnur Məmmədov 2022-ci ilin mart ayında Azərbaycan-Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə bir sıra tədbirlərin təşkil olunmasını və iki ölkənin xarici işlər nazirləri arasında təbrik məktublarının mübadiləsinin həyata keçirilməsini məmnunluqla qeyd edib.

E.Məmmədov Azərbaycan və Koreya arasında yüksək səviyyəli münasibətlərin dinamikasını qeyd edərək, Azərbaycan-Koreya ikitərəfli əməkdaşlıq istiqamətləri və mexanizmlərinin əhəmiyyətini diqqətə çatdırıb. Bu xüsusda, 2022-ci ilin iyul ayında Koreyada keçirilmiş iki ölkənin XİN-lərarası siyasi məsləhətləşmələri və digər ikitərəfli görüşlər məmnunluqla xatırlanıb.

Görüş zamanı Elnur Məmmədov iki ölkə arasında əməkdaşlığı gücləndirmək və genişləndirmək məqsədilə dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

Nazir müavini iki ölkə arasında mövcud olan iqtisadi münasibətlərə toxunaraq, Cənubi Koreyanın 77 investisiya şirkətinin ölkəmizdə qeydiyyatdan keçməsini qeyd edib və Koreya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma və bərpa işlərində iştirak etmək niyyətini yüksək qiymətləndirib. Hazırda Azərbaycanın Koreya Respublikasının Cənubi Qafqaz regionunda ən böyük iqtisadi-ticarət tərəfdaşı olduğunu diqqətə çatdırıb.

Nazir müavini qarşı tərəfə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalardan təmizləmə prosesi, ümumiyyətlə mina təhlükəsi, həmçinin erməni tərəfinin mina xəritələrini təqdim etməməsi, eləcə də Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə proses barədə ətraflı məlumat təqdim edib.

Görüşdə Vətən müharibəsi sonrası işğaldan azad edilmiş ərazilərimizdə "Smart City" və "Smart Village", o cümlədən "Yaşıl Enerji Zonaları" konsepsiyalarının həyata keçiriləcəyini nəzərə alaraq, Koreyanın qeyd olunan sahələrdə qabaqcıl təcrübə və texnologiyalarından faydalanma imkanlarında və həmin sahələrdə Koreya şirkətləri ilə birgə əməkdaşlıq perspektivlərinin nəzərdən keçirilməsində Azərbaycan tərəfinin maraqlı olduğu bildirilib.

Görüş zamanı iki ölkənin bir neçə şəhərləri arasında münasibətlər haqqında sazişlərin və anlaşma memorandumlarının imzalanması barədə məlumat verilib. Xüsusilə, Şuşa və Andonq şəhərləri arasında əməkdaşlığa dair niyyət protokolunun ötən il imzalanması məmnunluqla xatırlanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar. ■

*Suh Byonq-su:*

# Koreya ilə Azərbaycan arasında bir çox tarixi oxşar təcrübələr mövcuddur



**Mən ilk dəfə Azərbaycana 2009-cu ildə Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri olarkən gəlmişdim. Keçən il bir dəfə Azərbaycanda olmuşam. Bu, mənim Azərbaycana üçüncü səfərimdir.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində Koreya Milli Assambleyasının üzvü, Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Suh Byonq-su söyləyib.

Suh Byonq-su Azərbaycana səfərin məqsədini belə izah edib: "Səfərimizin məqsədi Koreya və Azərbaycan nümayəndələrinin tez-tez görüşməsinə nail olmaq, iqtisadi əməkdaşlığı müzakirə etmək, məsləhətləşmələr vasitəsilə hər iki ölkənin inkişafına töhfə verməkdir".

Koreya ilə Azərbaycan arasında bir çox tarixi oxşar təcrübələrin olduğunu bildirən parlamentari deyib: "Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda canını fəda etmiş insanların xatirələrini yad etdim. Çünki Koreya da belə təcrübəyə malikdir. Ümumiyyətlə, ölkələrimiz arasında bir çox tarixi oxşar təcrübə mövcuddur. Bunların əsasında birgə əməkdaşlıq sayəsində gələcəkdə daha böyük nailiyyətlər əldə olunacağına əminəm". ■

*Aprelin 20-də Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində 23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri" mövzusunda konfrans işə başlayıb. Tədbir çərçivəsində professor Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri" kitabının təqdimatı keçirilib.*




# Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir

Tədbiri açan **Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov** konfransın mövzusunun aktuallığından danışıb. O bildirib ki, builki tədbir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur: "Tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, çətinliklər və problemlər üzərində qələbəsini tanıyır. Bu qələbəni biz bu gün yeniləşən və qüdrətlənən Azərbaycanda, ölkəmizin nüfuzunun artmasında görürük, dövlətimizin başçısı İlham Əliyevin son 20 ildə düşünülmüş və müasirləşdirilmiş davamçılıq siyasətinin nailiyyətlərində görürük, Azərbaycan xalqının Prezidentə olan dərin ehtiram və sevgi duyğularında görürük. Rəhbər şəxsə bu münasibəti məşhur kəlamın dili ilə ifadə etsək: "İnsanlar üzərində əsl hakimiyyət yalnız onlara xidmət etməklə əldə olunur".

Bugünkü reallıqlar Ulu Öndərin qələbəsidir, xilaskarlıq missiyasından şanlı zəfər yolundadır, onun fikir və düşüncələrinin cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və varidatına çevrilməsidir.

Kapitulyasiya aktını imzalayan Armeniya rəhbərləri və separatçı qalıqları hazırda ağa axtarışındadır, "gah nala vurur, gah mıxa". Odur ki, 2023-cü il martın 18-də dövlətimizin başçısının müraciətindəki fikirləri xatırladıram: "Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var - bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, hansı ki, indi onlar ancaq bunu istəyirlər, rahat yaşaya bilərlər. Əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var...".

Aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına verdiyi müsahibədə isə demişdir: "...onlar [separatçılar] ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar". Erməni siyasətçilərə bu xəbərdarlığı yaddaşlarında həkk etmək heç də artıq olmaz.

Yaxın keçmişə müraciət etsək görürük ki, riyakarlıq və ikiüzlülük, uydurma və saxtakarlıq hay-erməni siyasətinin aparıcı ana xətti olub.

Haylara məxsus olmayan armen/erməni etnonimini və Armeniya (Ermənistan) adlı qədim toponimini mənimsəyərək, hay-erməni tarixşünaslığı Türkmənçay müqaviləsinin (1828) bağlanmasından sonra Şərqi və Qərbi Armeniya, hətta uydurma "böyük Armeniya" mövcudluğuna dair tezisləri fəal şəkildə gündəmə gətirməyə başladı. Çar Rusiyasının 1827-ci ildə işğal və Qacar İranın ruslara güzəşt etdiyi İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "Şərqi Armeniya" ərazisi elan olundu, halbuki müqavilənin 16 maddəsindən heç birində bu toponim barədə tək kəlmə belə qeyd olunmamışdı.

İrəvan xanlığının torpaqlarında çar Rusiyası tərəfindən yaradılan və süni şəkildə şişirdilən yersiz hay-erməni ərazi iştahası Naxçıvan qəzasının Qarabağ, Zəngəzur torpaqlarına da iddialara təkan vermiş oldu. Hətta bolşevik obrazına girmiş ikiüzlü erməni milliyyətçiliyi və daşnak terroru sonralar bu torpaqların bir qisminin qoparmasına gətirib çıxardı.

1918-ci ildə V.İ.Lenin Naxçıvanın və Zəngəzurun daşnaklara verilməsi haqqında dekret imzaladı, yalnız N.Nərimanovun sovet rəhbərlərinə ünvanlandığı sərt tələbləri, bu torpaqlarda yaşayan əhalinin şiddətli etirazları və Türkiyənin qəti mövqeyi 1921-ci ildə Türkiyə və sovet Rusiyası arasında yaradılmış Naxçıvan Muxtar Respublikasının Azərbaycanın protektoratı altına verilməsi haqqında müqavilə ilə nəticələndi. Erməni iddialarının könlünü almaq üçün isə əvvəlcə Zəngəzur qəzası, 1922-ci ildə isə Göycə (Şərur-Dərələyəz) Azərbaycandan qoparılıb Ermənistana verildi. Bu azmış kimi, bir də 1923-cü ildə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Nədir Şərqi Armeniya? Uydurma "Şərqi Armeniya" torpaqsız sovet Armeniyasının məhz bu yolla Azərbaycan əraziləri hesabına yaradılmasıdır. Əvvəlcə "Şərqi Armeniya" çar Rusiyasına birləşməsi adı altında Azərbaycan ərazilərində yaradılmış bu milli erməni yuvası mahiyyətcə ərazilərin hərbi işğalı ilə nəticələnən təcavüzkarlıq, sovet dövründə isə sülh yolu ilə ermənilərin ərazi iddialarını təmin edən güzəşt olmuşdur. Uydurma "parçalanmış erməni torpaqları" tarixi İkinci Dünya müharibəsindən sonra aktuallaşdı, çünki sovet Rusiyasının Ərdahanı və Qarsı Türkiyəyə qaytarılmasını nəzərdə tutan və 1921-ci ildə imzalanan Türk-Sovet müqaviləsinə yenidən baxılmasını planlaşdıran Stalinin niyyətlərinə uyğun idi. Şükür, Stalinin niyyəti baş tutmadı, ancaq mövcud olmayan "Şərqi Armeniya" çərçivəsində tarixi Azərbaycan əraziləri haylar tərəfindən erməniləşdirildi, bu azmış kimi Sovet tarixi elminin dəstəyi ilə erməni tarixşünaslığı hayların bu torpaqlardakı qədimliliyinə dair yalan və uydurmaları tirajlamağa başladı. Bunun üçün qondarma hay-erməni çar sülalələri uyduruldu, "Şərqi Armeniyanın" Rusiyaya xəyali birləşməsi aspektində Kürəkçay müqaviləsinin əsasnamələri təhrif olunmağa başladı, Qafqaz Albaniyasının tarixi, bu torpaqların əzəli sakinləri olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəni irsi, ümumiyyətlə hay-ermənilərin bu ərazilərdə avtoxtonluğunu "sübut" edə biləcək hər bir şey saxtalaşdırılaraq mənimsənilməyə məruz qaldı.



Bu gün də hay-erməni uydurma qədimliliyi erməniçiliyin təcavüzkar və riyakar izini sürdürür. Heç də təsadüf deyil ki, XVI-XVII əsrlərə dair erməni xalqının tarixi adı altında Azərbaycanın Qarabağ, Gəncə, İrəvan, Naxçıvan və Zəngəzur diyarlarının tarixi təsvir olunur. XV əsrdə patriarx taxtının Eçmiyədzinə köçürülməsindən sonra (Eçmiədzində patriarxat yeparxiyasız fəaliyyət göstərirdi, çünki yeparxiya Kiçik Asiyada qalmışdı) ermənilər bu dövrü lovğalanaraq erməni tarixinin "Eçmiyədzin dövrü" adlandırdılar.

Bundan başqa onlar müxtəlif siyasi və elmi dairələrdə belə bir fikir yaymağa başladı ki, "Qərbi Ermənistan" hələ də Türkiyənin tərkibində qalıb.

Ümumiyyətlə, erməniçilik sayca neçə Armeniya adlı toponim işlədir? Armenistlərin yazı ənənəsini qoyan "erməni tarixinin atası" M.Xorenski V və ya VII əsrlərdə, bəlkə də XIV əsrdə (əslində müəlliflik və yazı tarixi sual altında qalır) yazdığı "Patmutön Xayoü" ("Hayların tarixi"), "İncili" təftiş, "Xalqlar cədvəli"nə Hayk, Armenak və s. fantomları daxil edərək, hay etnosunun Sakalara, Qəmərlilərə qohumluğunu çatdıraraq, hətta Torqom (Toqarma) əcdadlarına (türk soy-kökü) çevirərək, 5 Armeniya (1-4 və yunan) iddiasını irəli sürmüşdü. İki əsr sonra isə A.Şirakatsi öz "Aşxaratsuyts"unda ("Coğrafiya") yenə də anonim deyil, müəllif kimi artıq 8 Armeniya vermişdi, indi isə "Armeniya"ların sayı 35-ə çatıb.

Bəs neçə dənə "Armeniya" adlı dövlət mövcud idi? Bugünkü dövlətləri istisna olmaqla, heç bir dənə. Odur ki, avtoxton xalqlardan fərqli olaraq, erməni alimləri "Armeniya tarixi"ni yox, Ermənilərin tarixi"ni, bir sözlə, etnosun tarixini yazmaq məcburiyyəti qarşısındadırlar, ya da "Hayastan" adlı ölkəsi olmayan mifoloji Hayların tarixini yazırlar və burada digər xalqların ərazisindən və tarixindən söhbət açırlar.

Erməni siyasətinin əsas dəst-xəti mifologiyadır. Erməni miflərini saymaqla qurtarmaz. Onların hamısı məqsəd quruluşuna və praktiki təyinatına görə birləşərək, siyasi mifologiya kateqoriyasına aid olur. Erməni etnik aləminin mənzərəsinin bir hissəsi olan məhz bu mifologiya zahiri reallığın və burada cəmləşən əxlaq mexanizminin erməni etnosu tərəfindən qavranılması üsulunu müəyyən edir. Fikir verin. Bir neçə müasir politoloqların, o cümlədən S.B.Luryenin araşdırmalarına əsasən, digər xalqlardan fərqli olaraq, erməni siyasi düşüncəsinin xüsusiyyəti geosiyasi xarakter daşıyaraq, ermənilərin yaşadığı yerlər əsasında müəyyən coğrafi xəritə qurmaq və yaşadığı yerləri özləri üçün növbəti "Ermənistan" adlandırmaqdan ibarətdir.

Tarixi haşiyənin sonunda ən məşhur qərb filosof-hüquqşünasların dəfələrlə istinad etdiyimiz fikirlərini yada salmaq yerinə düşərdi. Nobel laureatı, liberal fəlsəfənin banisi Fridrix fon Hayek deyirdi: "İnsanların həyatını mümkün edən onların fəaliyyətinin nizamlanması, vərdişlərinin düşünülmüş qayda-qanunlarla əvəz edilməsi və hüquqi normalara riayət edilməsidir". Əks halda, digər qərb alimi, liberal hüququn banisi İyeremiya Bentamın dediyi kimi, "Prinsiplərə riayət etməkdən imtina edən xalqlar gec-tez gücə tabe olmalıdırlar". Vətən müharibəmiz, Qarabağnaməmiz, Müzəffər Ali Baş Komandanın qətiyyəti, əsgər və zabitlərimizin şücaəti bir daha bu deyilənlərin əyani sübutudur.

Kamran İmanov çıxışında, həmçinin əqli mülkiyyət məsələlərinə toxunub. Qeyd edib ki, Ümummilli Liderin uzaqgörənliyi nəticəsində yaradılan, müəllifi olan milli əqli mülkiyyət sistemi Prezident İlham Əliyevin səyləri və dəstəyi nəticəsində uğurla inkişaf edir.

Özü də əqli mülkiyyətin (ƏM) sürətlə dəyişən anlayışı dövründə, özündə çərçivə, sistem formalaşdıran amil kimi hüquq (yurisprudensiya) ilə yanaşı, iqtisadiyyatı və sosiologiyanı nəzərdə tutan dövrdə. Bu isə o deməkdir ki, bir tərəfdən ƏM institutunun sinergetikası, emergentliyi nəzərə alınmalıdır, digər tərəfdən isə ƏM ekosisteminin institusional dəyişiklikləri gündəmə gətirilmiş olur.

Prezident İlham Əliyevin həyata keçirdiyi institusional islahatlar çərçivəsində uzun illər bir-birindən ayrılıqda fəaliyyət göstərən sənaye mülkiyyətinin (ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları) və müəlliflik hüququnun (Copyright) bir örtük altında birləşdirilərək Əqli Mülkiyyət Agentliyinin yaradılması, Respublika Elmi-Texniki Kitabxanasının Agentliyin tərkibinə verilməsi Agentliyin tabeliyində üç mərkəz - Patent və Əmtəə Nişanlarının Ekspertizası, Əqli Mülkiyyət Hüquqlarının Təminatı və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi mərkəzlərinin yaradılması ilə nəticələnib.

Həyata keçirilən digər infrastruktur layihəsi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təlim mərkəzlərinin statusuna bərabər olan "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi", habelə Agentliyin nəzdində Bakı Dövlət Universitetinin Agentliklə birgə yaradılan Əqli mülkiyyət hüququ kafedrası və kafedranın filialı fəaliyyətdədir, Agentlikdə tələbələrin təhsili üçün müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalar ayrılıb. Belə bir kafedra Azərbaycan Memarlıq və İnşaat Universitetində də yaradılıb və onun filialı Agentlikdə yerləşəcək.

İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər sahəsində Agentlikdə yaradılan sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun həyata keçirildiyi "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi xüsusi olaraq qeyd olunmalıdır. Bu sahədə tətbiq edilən "vahid pəncərə" və "istənilən yerdən xidmətə əlçatanlıq" prinsipi açıqlıq, operativlik və şəffaflığı təmin etmiş, ixtira və patent fəallığının artmasına müsbət təsir göstərib, həmçinin dövlət xidmətlərinin səviyyəsini yüksəldib.

Avrasiya ölkələri içərisində ilk olaraq ölkəmizdə rəqəmsal üçölçülü (3D) obyektlər üzrə iddia sənədlərinin qəbuluna başlanılıb.

Son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü işlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Dünya İqtisadi Forumunun sonuncu Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Hesabatına görə (2022-ci ilə görə Hesabat hələlik dərc olunmamışdır), Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutur və bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

132 ölkəni əhatə edən "Qlobal İnnovasiya İndeksi (QİI) 2022 Hesabatı"nda Azərbaycan "İnnovativ resurslar" alt indeksi üzrə reytinqdə 79-cu yeri tutur. "İnnovasiya əlaqələri" istiqaməti üzrə Azərbaycan 56-cı yerdə qərarlaşıb.

2022-ci ildə daha bir beynəlxalq təşkilat - "Mülkiyyət Hüquqları Alyansı" ("The Property Rights Alliance") tərəfindən hazırlanmış 129 ölkəni əhatə edən Hesabatda Azərbaycan reytinqdə 60-cı yeri tutaraq Ermənistan (63), Gürcüstan (72), Qazaxıstan (75), Rusiya (85), Moldova (95) və Ukraynanı (105) qabaqlayır.

"Əqli mülkiyyət hüququ" qrupunda ölkəmiz Qazaxıstan (86), Moldova (90), Ermənistan (91), Ukrayna (93) və Gürcüstandan (112) irəlidədir, üstəlik "Əqli mülkiyyətin mühafizəsinin dərk edilməsi" göstəricisinə görə Azərbaycan reytinqdə yüksək 30-cu yeri tutur.

ABŞ Dövlət Departamentinin 2022-ci ildə Azərbaycanın investisiya mühiti haqqında yaydığı hesabatın ("2022 Investment Climate Statements: Azerbaijan") 5-ci bölməsinin "Əqli mülkiyyət hüquqları" hissəsində də ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunması səviyyəsinin yaxşılaşması qeyd edilib.

Dövlətimizin başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Əqli Mülkiyyət Agentliyinin qarşısında "İnnovasiya ekosisteminin inkişafı" istiqaməti üzrə əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması; effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması və s. vacib vəzifələr, o cümlədən Azərbaycan məhsullarının və "Made in Azerbaijan" brendinin hədəf bazarlarda aktiv təşviqi, mədəni və yaradıcı sənayelərin dinamik inkişafının təmin edilməsi, startapların inkişafı üçün zəruri İKT infrastrukturunun gücləndirilməsi və s. məsələlər dayanır.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev, Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Xarici media ilə iş sektorunun müdiri Fuad Axundov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndəsi Nuri Aksu çıxış ediblər.

Çıxışlarda erməni yalanlarının və saxtakarlıqlarının ifşa edilməsində Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun fəaliyyəti xüsusilə vurğulanıb, konfransın mövzusunun aktuallığı qeyd edilib, bu tədbirin elmi platforma olduğu diqqətə çatdırılıb.

Konfrans çərçivəsində, həmçinin erməni saxtakarlığını ifşa edən "Tarixin izi ilə" silsiləsindən "Keçmişin böyük yalanları: Armeniya və Hayastan" televiziya filmi nümayiş etdirilib.

Konfransda professor Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri", AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru Kərim Şükürovun "Zəngəzurun tarixi demoqrafiyası", Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlilinin "Sünik (Sisakan) adının etimologiyası və onun Üç Ox oğuzları ilə əlaqəsi" mövzusunda məruzələr dinlənilib.

Tədbir çərçivəsində "Erməni uydurmalarını ifşa edən yazılı mənbələr" adlı kitab sərgisi də təşkil edilib. Sərgidə Agentlik tərəfindən nəşr olunan kitablar nümayiş olunub.

Konfransın sonunda erməni uydurmalarının ifşası ilə bağlı qarşıda duran vəzifələrə dair müzakirələr keçirilib.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# İsrail portalı Ulu Öndər Heydər Əliyevlə bağlı məqalə yayıb

**Türk Ağsaqqalları Birliyinin təsisçisi, Missiya Media Qrupunun rəhbəri Ramin Əhmədovun Ulu Öndər Heydər Əliyevlə bağlı yazdığı məqalə İsrail mətbuatında yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, İsrailin Thej.ca agentliyində dərc olunan "Heydər Əliyev və Azərbaycan-İsrail münasibətləri" sərlövhəli məqalədə Ümummilli Liderin İsrail-Azərbaycan münasibətlərinin qurulması və inkişafındakı rolundan söz açılır.

Məqalədə İsrailin Azərbaycanın ən önəmli strateji müttəfiqlərindən biri olduğu vurğulanıb. Eyni zamanda, qeyd edilib ki, Azərbaycanın İsraildə səfirliyinin açılmasından sonra iki ölkə arasındakı münasibətlər daha da inkişaf edək.

Yazıda, Ümummilli Liderin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iki ölkə arasında münasibətlər yüksək səviyyəyə çatdırılıb.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müxtəlif dövlətlərlə yanaşı, İsraillə əlaqələrin inkişafına da xüsusi diqqət yetirdiyi qeyd olunub. İsrail mətbuatının birinci xanım Mehriban Əliyevanın fəaliyyətinə diqqətlə yanaşdığı vurğulanıb. ■

# Qazaxıstan səfirinin Azərbaycandakı diplomatik fəaliyyəti başa çatır

**Aprelin 20-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimovla görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və qardaş Qazaxıstan arasında ikitərəfli və çoxtərəfli formatlarda yüksək səviyyəli səmərəli



əməkdaşlığı, o cümlədən iqtisadi-ticarət, sərmayələr, nəqliyyat, tranzit, humanitar, mədəniyyət, turizm və digər sahələrdə ikitərəfli əməkdaşlıq münasibətləri və onların inkişaf perspektivlərini məmnunluqla vurğulayıblar.

İki ölkə arasında əlaqələrin ortaq etnik, mədəni və tarixi köklərə əsaslandığını qeyd edən nazir Ceyhun Bayramov, bu möhkəm təməl üzərində qurulan Azərbaycan və Qazaxıstan münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini diqqətə çatdırıb.

Nazir fəaliyyəti müddətində ölkələrimiz arasında münasibətlərə verdiyi töhfəyə görə səfir Serjan Abdıkarimova təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir, öz növbəsində diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə inkişafından məmnun olduğunu diqqətə çatdıran səfir, gələcəkdə həm ikitərəfli əsasda, həm də çoxtərəfli platformalar çərçivəsində Azərbaycan və Qazaxıstan arasında qarşılıqlı uğurlu fəaliyyətin davam edəcəyindən əminliyini ifadə edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. ■

# Azərbaycan XİN rəhbəri ABŞ Dövlət katibinin köməkçisinin müavini ilə görüşüb

**Aprelin 20-də xarici işlər naziri Ceyhun Bayramov Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olson ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər arasında Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, bölgədə mövcud olan cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar müzakirə edilib.



Nazir Ceyhun Bayramov postmünaqişə mərhələsində Azərbaycanın Ermənistanla normallaşma, o cümlədən gələcək sülh sazişinin imzalanması istiqamətində əsas təşəbbüs irəli sürən tərəf kimi, prosesin uğurla nəticələnməsində maraqlı olduğunu bildirib. Buna baxmayaraq, qeyd edilən istiqamətlərdə Ermənistan tərəfindən prosesə maneçilik səyləri, sülh sazişinin mətni üzrə Azərbaycanın sonuncu təkliflərinə 6 həftə ərzində hələ də cavab verməməsi, bir sıra provokativ bəyanatlar və təxribatlar diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistandan azaraq Azərbaycana keçmiş hərbçilərin qısa müddətdə Ermənistana geri təhvil verilməsi kimi etimad quruculuğu tədbirlərinə baxmayaraq, Ermənistanda Azərbaycan hərbçilərinə qarşı son zorakılığın Ermənistan tərəfindən pozucu fəaliyyətin nümunəsi olduğu qeyd edilib. Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün tərəflər arasında əldə edilmiş razılaşmaların həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Erika Olson öz növbəsində, bölgədə sülh və sabitliyin bərqərar olunmasının əhəmiyyətini, bunun üçün sülh sazişinin imzalanmasının zəruri olduğunu bildirib. ABŞ tərəfinin Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda aparılan bu danışıqlara dəstək verməyə daim hazır olduğunu diqqətə çatdırıb.

Görüşdə, qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. ■

# ERMƏNİ SAXTAKARLIĞI, UYDURMA TARİX

*Ermənistan bu il aprelin 24-də qondarma erməni "soyqırımının" növbəti ildönümünü" qeyd edir. Hər dəfə də bu qondarma tarixlə bağlı yazılıb-pozulanların gözünə yeni absurd ideyalar qatır, sərsəmlik dərəcəsinə çatdırdıqları bu düzməcələri dünya ictimai rəyinə sırımağa çalışırlar. Haqlı olaraq düşünürsən ki, "ermənilər illərdir ki, xəstə təxəyyülün məhsulundan ibarət olan bir tarix icad edib onu virtuallaşdıraraq elə bu aləmlərində yaşayırlar...". Ən qədimlərə gedib dirənən virtual tarix, böyüklük, əzabkeş obrazı, ilk sivilizasiya yaradıcısı, bir sözlə, hər şeyi əhatə edən virtual mədəniyyət. Bu virtual düzməcələrdə hər gün yeni bir "icad" ilə rastlaşırıq. Həm də ən dəhşətlisi odur ki, bu virtual aləmdə düzüb-qoşduqlarına utanıb çəkinmədən dünyanın bir hissəsini də inandırmağa çalışırlar.*

Onsuz da bu saxta iddiaların ildönümləri Sovet rəhbərliyinə dürtülmüş erməni mikoyanların, kostandyanların, sitaryanların təkidi ilə ötən əsrin 50-ci illərindən Sovet İttifaqında da qeyd edilirdi. Başqa cür də ola bilməzdi. Çünki rusların yaxın köməkliyi ilə Qafqaza köçürülən ermənilər Pyotrun vəsiyyətlərinə uyğun olaraq müsəlmanlar içərisində "xristian anklavının" yaradılmasına nail ola bilmişdilər. Halbuki, Rusiya ilə İran arasında Azərbaycanı bölən Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə qədər bu ərazilərdə bir dənə də olsun erməniyə rast gəlmək olmazdı. Elə Osmanlı imperiyasının Şərqi Anadolu ərazilərinə də ermənilər Fərat və Dəclə çayları arasındakı Mesopotomiya ərazilərindən köçüb gəlmişdilər. Bunu ona görə xatırlatmağı lazım bilirik ki, ermənilər vay-şivən qopararaq bütün dünyaya səs salırlar ki, qondarma soyqırımında guya 1,5 milyon erməni öldürülüb. Lakin akademik qeyd edirdi ki, "Ərzurumdan Vana qədər böyük ərazidə 1914-cü il Osmanlı siyahıyaalmalarına görə ermənilərin sayı heç 900 min nəfərə çatmırdı. Ciddi tədqiqatlar göstərir ki, bu tarix real tarixdən çox erməni tarixçilərinin təxəyyül səyləri hesabına düzəldilmiş hekayətdir". Erməni uydurmaları bununla bitmir ki... Onların öz tarixlərini saxtalaşdırıb şişirtməyə meyilli olduqlarını elə erməni tarixçilərinin özləri də etiraf edirlər. Bu nöqteyi-nəzərdən Xarkovda yaşayan erməni tarixçisi Filipp Ekozyantsin fikirləri diqqətçəkicidir: "Mən çoxdan bir maraqlı fakta diqqət kəsilmişəm. Bütün sivil dünya - ABŞ-dan tutmuş Çinə, İsraildən Norveçə kimi - Ermənistanı Ermənistan, erməniləri erməni adlandırır. Ancaq dünyada bir azsaylı, cırtdan deyilə biləcək qədər kiçik bir xalq var ki, onun dilində "erməni" və yaxud ona az da olsa oxşayan başqa bir söz yoxdur.. Nə qədər paradoksal olsa da, bu xalq - ermənilərdir. Onlar bütün dünyadan fərqli olaraq özlərinə "hay" deyir, öz vətənlərini isə "Hayastan" adlandırırlar".

Yəni "erməni" sözünə əsla oxşamayan bir adın erməni təhtəlşüurunda möhkəm kök salması da təsdiq edir ki, bu xalqın adından tutmuş tarixinə qədər hər şey təkcə saxta, qondarma təxəyyülün məhsulu olmayıb, həm də psixoz dərəcəsinə çatdırılmış psixi natamamlıq kompleksinə söykənir. Yoxsa, "Nuhun gəmisi", "sivilizasiyanın ilk məskəni", "dənizdən-dənizə dövlət" və s. neçə-neçə buna bənzər sayıqlamalar erməni iddialarında yer tapa bilməzdi.

Diqqət etdikdə görürsən ki, bu başabəla xalqın həqiqətən də iki tarixi var - biri həqiqi, biri uydurma. Amma bu tarixin uydurma olan tərəfi daha ağır basır və radikal millətçilik azarına tutulmuş erməniləri öz sehrinə daha çox çəkir. Elə bunun nəticəsidir ki, ermənilər tərəfindən bu haqda artıq çoxlu sayda şişirtmə kitablar yazılıb, hətta "dost" və "düşmənlər"in, "qəhrəman" və "satqınlar"ın adları da müəyyən edilib... Amma nə qədər çalışsalar da, belə qənaət hasil olur ki, sonuncu erməni dövləti 2 min il əvvəl mövcud olub. O vaxtdan XX əsrə kimi ermənilərin ümumiyyətlə dövləti və dövlətçiliyi olmayıb. Özləri də köçəri qaraçılar kimi o ölkə sənin, bu ölkə mənim səfil-sərgərdan baş alıb gəziblər. Sakit, dinc, həm də ləyaqətli həyatı yalnız Osmanlı imperiyası dövründə tapıblar. Di gəl ki, erməni xisləti onlara burada da sona qədər insan kimi yaşamağa imkan verməyib.

Bəli, ermənilərin öz tarixlərini qədimləşdirməkləri, bir vaxtlar "dənizdən-dənizə Ermənistan" haqqında əfsanəni, Ermənistanın "qədim xristianlığın ən inkişaf etmiş sivilizasiya mərkəzi" olması haqqında həyasız iddialarını az eşitməmişik. Bütün bu müəmmalardan sonra ağlı başında olanlar bir qrup siyasi şarlatanın "hay" xalqını necə tarixi-psixi tələyə saldığını aydın şəkildə görür və başa düşürlər ki, o tələdən erməni xalqı heç cür çıxa bilmir, gah forpost, gah quberniya, gah da kiminsə hərbi bazalarının saxlanma meydançası olur. Tələnin bir forması da ondan ibarətdir ki, bu xalq yalnız faktlara əsaslanan bir tarixi deyil, sırf xəyalların məhsulu olan bir tarixi şişirtməklə məşğuldur və o xalqın tarixindən danışırıq ki, o, özünü indiyə qədər adlandırdığımız kimi yox, tamam basqa cür adlandırır. Azərbaycan tarixçilərinin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, biz "tarixi Ermənistan" deyilən ərazidə ta bu minilliyin əvvəllərinə qədər nələr baş verdiyini dəqiq bilirik, yəni sonuncu erməni çarı II Tiqran Fərat sahillərində Bizans imperatorluğu tərəfindən məğlub edildikdən sonra XX əsrin əvvəllərinə qədər erməni dövlətçiliyi olmayıb. Akademik Yaqub Mahmudov demişkən, "bütün məsuliyyətimlə bəyan edirəm ki, ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. Ermənilərin gəlmə olduğunu mənbələr və "tarixin atası" Herodot təsdiq edir".

Passionar enerji haqqında nəzəriyyənin banisi, görkəmli tarixçi Lev Qumilyov qeyd edir ki, müasir ermənilər yalnız mədəni əlamətlərinə görə erməni, etnik məzmunlarına görə isə qarışıq millətdirlər.

Nə qədər qəribə olsa da, riyaziyyat üzrə elmlər doktoru Klesov da yazır ki, çoxmillətli Osmanlı imperiyasının tərkibində yaşayan ermənilər heç vaxt etnik özünüdərk və özünəməxsusluğa malik olmayıblar, daha çox Osmanlı imperiyasının böyük parçası olan türklərin antropoloji xüsusiyyətlərini özlərində əxz ediblər.

Hay xalqının bəzi nümayəndələri isə dəqiq bilir ki, o, son bir neçə əsr ərzində, ən azı 400 il Osmanlı imperiyasının tərkib hissəsi olub, orada onlara ləyaqətli münasibət bəslənilib, sadə insanlar bir-biri ilə yanaşı yaşayıb, normal həyat tərzi sürüblər. Osmanlılar isə yüksək tolerantlıq nümunəsi göstərərək onlara "əziz-millət" ləqəbini vermişdi.

Amma zori balayanlar, silva kaputikyanlar erməniləri inandıra biliblər ki, onların öz qonşuları ilə ən yaxın xalqlarla heç bir ortaq bağları yoxdur, son 400 illik tarixləri, yəni bütün Osmanlı dönəmi onların tarixi deyil və guya bu 400 ildə böyük Osmanlı imperiyasının, zəngin, qüdrətli və maarifləndirici bir dövlətin tamhüquqlu üzvləri yox, hüquqsuz qulları olublar. Halbuki, lənətlənən Osmanlı dövründə erməni xarici işlər, maliyyə, daxili işlər nazirləri, orduda yüksək mövqe tutan generallar haqqında yetərincə söz açmaq olar. Xəyanətlərinə görə qulağı kəsilib tay qulaq qalmış Andranik kimi.

Tarixçi Ekzoyantsın etiraf etdiyi kimi, "Bizim heç bir başqa dövlətimiz gerçəkdə mövcud olmayıb. Varisi yalnız erməni xalqı olan dövlət də yüz faiz olmayıb. Mən yalnız təsdiqlənmiş və hamıya məlum olan faktlara əsaslanaraq öz keçmişimiz haqda həqiqətə inanıram".

Bu tarix ermənilərin Türkiyə və Azərbaycana qarşı kin qusduqları bugünkü günlərdə işlərinə gəlmədiyinə görə, öz tarixləri hesab etmir. Halbuki, bu tarixi dönəm haqda Rusiyadan tutmuş İrana, Avropa və ABŞ-a kimi ölkələrin arxivlərində olduqca böyük sayda səhih sənədlər, sübutlar var. Ən başlıcası bunlar Ermənistanın və təbii ki, Türkiyənin də arxivlərində var. Osmanlı dönəminədək olan tarix isə qaranlıqlar və boşluqlarla, şişirtmələrlə doludur, xəstə təxəyyülün, boş fantaziyaların məhsulundan savayı bir şey deyil. İnkişaf etmiş xristian sivilizasiyası, "dənizdən dənizə dövlət" xəyalları da onun kimi. Bir çoxlarının fikrincə, bu sualın cavabı çox sadədir və üzdə, ən görməli yerdədir: bu da odur ki, hay xalqı bütün dünyaya böyük Osmanlı imperiyası kimi məlum olan bir imperiyanın hissəsi olduqlarını və əsl tərəqqiyə də bu imperiya daxilində çatdıqlarını etiraf etmək istəmirlər.

Amma onlar öz miskin xislətlərinə uyğun olaraq bu imperiyaya xəyanət etdilər. Özü də necə? Bu haqda tarixi həqiqətlər nə deyir? I Pyotr vəsiyyətlərində ruslara guya, provaslavlığın mərkəzi İstanbulu (Konstantinopolu) və ona bağlı Anadolu yarımadasını tutmağı vəsiyyət etmişdi. Ümumiyyətlə, bir gözü cənubun isti sularında olan Rusiya imperiyası bu yolda başlıca maneə kimi Osmanlı imperiyasını görürdü. Bu isə bir neçə qanlı rus-türk müharibəsinə səbəb olmuşdur. 1877-1878-ci illər rus-türk müharibəsi rusların qələbəsi, Bolqarıstanın Osmanlı imperatorluğunun tərkibindən çıxmasını təsbit edən Ədirnə sülh müqaviləsi ilə başa çatdı. Bundan ruhlanan ruslar Qafqaz istiqamətində də Osmanlı imperatorluğunu təhrik edən hərəkətlərə başlayır. I Dünya müharibəsinin (1914-1918) başlaması Rusiyaya Osmanlı imperiyasına qarşı cəbhənin açılmasına imkan verdi. Türklərin rus təcavüzünü durdurmaq üçün başlatdıqları Sarıqamış istiqamətindəki əməliyyatları uğursuzluqla nəticələnir. Rusların qarşısını almaq üçün göndərilmiş 80 min nəfərlik ordu hissələri şaxtalı havada donaraq həlak olur. Bu, rusların Qafqaz bölgəsində daha da fəallaşmaları üçün bir siqnal oldu. Onlar Kars-Sarıqamış istiqamətində hücuma keçərək Türkiyənin Şərqi Anadoludakı ərazilərini işğal etməyə başladılar. Osmanlı təbəələri olan ermənilərin rus qoşunlarına yardımı da elə bu dövrdən başlamışdır. Onların bir hissəsi könüllü olaraq rus ordusunun tərkibinə daxil olur, rusların köməyi və təlimləri altında nizami ordu dəstələri yaradaraq açıq surətdə Osmanlıya qarşı döyüşürdülər. Osmanlı imperiyasının paytaxtında hələ də müəyyən vəzifələr tutan ermənilər rusları kəşfiyyat materialları ilə təmin etməklə onların sürətli hücumuna ciddi surətdə yardım göstərirdilər. Osmanlı ordusunda general rütbəsinə qədər ucalmış Andranik adlı erməni Osmanlı ordusunun Baş Qərargahından mühüm hərbi sirlərin Rusiyaya ötürülməsində ifşa olundu. O, cəzalandırılaraq bir qulağı kəsildi və ordudan qovuldu. Ruslar tərəfə keçən Andranik erməni könüllü dəstələrinin təşkili və onların silahlandırılmasında böyük rol oynadı. Sonradan bu məlun Osmanlı və Azərbaycan türklərinin soyqırımında fəal iştirak edən quldur dəstələrinin, onlara basçılıq edən Dro, Njde, Amazaps kimi quldurbaşılarının yetişməsinə də öz alçaq töhfəsini verdi.

Artıq ciddi hərbi-siyasi fəaliyyətləri ilə seçilən Qnçak (1878), Daşnaksütyun (1879) partiyaları da silahlı komitələr yaratmaqla bu quldur dəstələrinin sıralarını genişləndirdi. Bu, həm də rus qoşunlarının I Dünya müharibəsi ərəfəsində Şərqi Anadoluda geniş istilalar edərək Ərzuruma qədər irəliləməsinə şərait yaratdı.

Osmanlı dövləti ermənilərin bu xəyanətini cavabsız qoya bilməzdi. İmperatorun 1914-cü ildə verdiyi qərarnamə ilə Şərqi Anadoluda yaşayan ermənilərin imperiyanın başqa əyalətlərinə köçürülməsinə əmr verildi. Qərarın icrası Şərq cəbhəsinin komandanı Karabəkir Paşanın üzərinə qoyuldu. Məqsəd ruslara agentlik edib, onlarla birlikdə Osmanlı qoşunlarına arxadan zərbə vuran erməni silahlı dəstələrinin tərk-silah edilməsindən, onlara rəğbət bəsləyən mülki əhalinin isə dinc yolla digər ərazilərə köçürülməsindən ibarət idi. Köç siyasəti əsasən dəmir yolu vasitəsilə həyata keçirilirdi. Bundan başqa, xeyli at və öküz arabaları da ayrılmışdı. Köç olaylarına 1915-ci ilin martında start verildi. 900 minə yaxın ermənənin 650 mini dəmir yolu ilə Mersin şəhərinə, oradan isə o zamankı Osmanlı imperiyasının tərkib hissəsi olan Livan, Suriya, İraq, Misir ərazilərinə köçürüldü. Köç zamanı hər hansı repressiya tədbirlərinə əsla əl atılmadı. Yalnız köç prosesində bəzi xəstəliklərin, xüsusilə difteriya və malyariya xəstəliklərinin yayılması nəticəsində müəyyən qədər ölüm halları baş verdi. Bu, uşaqlar, qocalar və qadınlar arasında daha geniş yayılırdı.

Köç hadisələrindən danışarkən hayların dilində heç vaxt olmayan "genosid" sözü o qədər də uzaq olmayan bir dövrdən işlənir. Bəli, ötən əsrin əvvəllərində böyük xəyanət və onun labüd nəticəsi kimi köç hadisələri baş verdi. Köç zamanı çoxu dəmir yolu, az bir qismi isə arabalarda daşınan ermənilərin 170-200 min nəfəri aclıq və xəstəlikdən məhv oldu. Daha çox isə yolboyu tüğyan edən, qadınlarının bərbəzəyinə, köçürülənlərin var-dövlətinə göz dikmiş kürd quldurları tərəfindən öldürüldü. Cinayətkarlar elə türk xalqının özü tərəfindən tutulub edam edildi. Bu, müstəsna olaraq türk xalqının iradəsi əsasında baş verdi. Hər halda, o vaxt türk xalqından belə bir məhkəməni heç kim tələb etmirdi və tələb edə də bilməzdi. Türk xalqının tolerantlığı, multikultural ənənələri, ermənilərə olan isti münasibətləri baş verənlərin dərinləşməsinin qarşısını aldı. Bəli, xəyanətin labüd cavabı kimi köç hadisəsi baş verdi və bu bəla osmanlının erməni təbəələrini az qala bütün imperiya ərazisinə səpələdi. Türkiyə mənbələrində sadəcə olaraq "köç" adlandırılan bu hadisə Osmanlı təbəələrinin bəziləri arasında böyük imperiyalardan sonra həmişə müşahidə olunan bir uçurum yaratdı. İdeya dəllalları bu uçurumu dərinləşdirmək üçün bütün qüvvələrini sərf etdilər. Lakin bütün baş verənlər lap yaxınlaradək mövcud olmuş bir faktı - ermənilərin və digər xalqların Osmanlının hissələri olması faktını inkar etmir.

Fəqət dünyanın aparıcı gücləri hay və türk xalqlarına barışıq imkanını vermədilər. O baş verdi ki, hadisədən 30 il sonra - 40-cı illərdə yəhudi xalqının polşalı bir nümayəndəsi "genosid" sözünü fikirləşib tapdı. Və o, öz din qardaşları ilə birgə and-aman edib bütün dünyanı inandırmağa çalışdı ki, Osmanlı imperiyasında köç yox, məhz genosid baş verib. Beləcə, dünya ictimai rəyinə provokasyon bir müddəa atıldı və bu, erməni millətçi dairələri tərəfindən göydəcə tutuldu. Dünya da baş verənlərin necə adlanmasına laqeyd olduğundan, yeni bir məhkəmə, yeni etiraflar və yeni cəzalar tələb edilməyə başlandı - özü də bu hadisələri həyata keçirmiş və artıq həyatda olmayanlara qarşı yox, bütöv türk xalqına qarşı. Hətta, bunun fərqinə belə varmaq istəmirlər ki, ermənilərin başına genosid ideyasını yeridənlər öz murdar fəaliyyətlərinə 30 il sonra - XX əsrin 40-cı illərində başlayıblar. Və məhz o vaxt "genosid" sözü və anlayışı meydana çıxıb və tədricən ermənilərin gündəminə yerləşməklə bu günədək davam edir. Bu genosidin mahiyyəti də ondan ibarətdir ki, əslində bəziləri siyasi alət olaraq erməni xalqını real dünyadan tarixi saxtakarlıqlar və xəyallar üzərində qurulan virtual dünyaya köçürmək və bu zəmində türk xalqını tarixi seytnota salmaq istəyirlər.

Belə götürəndə, ermənilərin genosidi iddia edildiyi kimi və ya bu narahat xalqı inandırmağa çalışdıqları kimi, heç də 100 il öncə baş verməyib. Ona qalsa, XVII-XVIII əsrlərdə Amerika qitəsində 70 milyondan çox aborigen hindunu qırıb-çatmış anqlo-sakslar, ispanlar, portəgizlər, fransızlar da ittiham obyektinə çevrilərdi. 1962-ci ildə fransızlar işğal etdikləri Əlcəzair ərazilərində günahları yalnız azad olmaq istəyən 1 milyona qədər insanı qətlə yetirdilər. Bu gün də Myanmada davam edən müsəlman qətliamları 200 mindən çox insanın həyatına son qoyub. Elə erməni vandallarının bəzi iri dövlətlərin qəyyumluğu ilə 1828-ci ildən 1920-ci ilə qədər böyük bir coğrafi ərazidə - Qars, İğdır, Urmiya, Qərbi Azərbaycan, Şimali Azərbaycanın bütün ərazilərində 2 milyondan çox azərbaycanlını qətlə yetirmələrinin tarixi-siyasi qiymətini almaması da tarixə ikili standartlarla yanaşmanın bədnam göstəricisidir.

Bu hadisələrin bu günlərdəki təqdimatı, xüsusən xristian dövlətlərinin parlamentlərində yeni ultimatumlar paketi ilə erməniləri yeni bir xəyalplov havasına kökləyərək inandırmağa çalışırlar ki, yəhudi mənşəli polyak vəkilin fikirləşib tapdığı bu sözü bütün dünya tanıyacaq, türklərdən böyük təzminat, hətta ola bilsin az da olsa torpaq və bir də türklərin Ağrı, ermənilərin isə Ararat dediyi dağı geri qaytaracaqlar. Xalis dəli-divanəlik deyilmi?

**(davamı 11-ci səhifədə)**

## Türkiyə

# Tarixin müxtəlif dövrlərində türklərə qarşı törədilən soyqırımları



***Daim böyük dövlət qurmaq, torpaq işğal etmək həvəsi ilə yaşayan erməni millətçiləri tarixdə demək olar ki, ancaq qətlləri, cinayətləri ilə tanınırlar. Başqa ölkələrin ərazi bütövlüyünə təcavüz etmək, bu istiqamətdə minlərlə insanı qətl etməkdən çəkinməmək ermənilərin əsas həyat amalına çevrilmişdir. Bu, bir həqiqətdir ki, ermənilər hər zaman türklərə qarşı ərazi iddiaları ilə çıxış edib və təcavüz hesabına özlərinin paranoidal təxəyyüllərinə əsaslanan "böyük Ermənistan" arzularını gerçəkləşdirməyə çalışıblar. Onlar bu məqsədlə müxtəlif yollara əl atıblar. Mənfur qonşularımızın "türksüz Ermənistan" yaratmaq ideyaları bəzi xarici güclərin maraqları ilə də üst-üstə düşüb. Bunun nəticəsidir ki, təcavüzkar ermənilər qanlı aksiyalarda iştirak edərək kütləvi soyqırımı aktları törədiblər.***

Ermənilərin Türkiyədə ilk üsyanı 1890-cı ildə Ərzurumda gerçəkləşib. Bunun ardınca, həmin il Qumqapı nümayişi, 1892-93-cü illərdə Kayseri, Yozqat, Çorum və Merzifon hadisələri, 1894-cü ildə Sasun üsyanı, Babıali nümayişi və Zeytun üsyanı, 1896-cı ildə Van üsyanı və Osmanlı Bankının zəbt olunması, 1903-cü ildə ikinci Sasun üsyanı, 1909-cu ildə Adana üsyanı sıralandı. Təkcə 1895-ci il ərzində Osmanlı imperiyasının Anadolu bölgəsinin 24 şəhərində mütəşəkkil olaraq eyni vaxtda və bəzən bir-birinin ardınca "Hnçak" və digər erməni komitələri üsyanlar və iğtişaşlar həyata keçirdilər. Üsyanlar zamanı erməni silahlıları yaxınlıqdakı müsəlman kəndlərinə basqın edir, evləri yandırır, əhalini öldürürdülər. 1895-ci ilin iyulunda İstanbulda hnçakçılar müsəlman uşaqların oxuduğu məktəbi, 30 evi, 20 dükanı, avqust ayında Amasiyada 58 evi, 165 dükanı yandırıblar. Mənbələrə görə, təkcə 1895-ci ildə öldürülənlərin sayı 10617 nəfər olub.

Erməni quldur təşkilatları yalnız kütləvi qırğınlar törətməmiş, həm də ayrı-ayrı insanlara qarşı terror aksiyaları həyata keçiriblər. 1890-cı il iyulun 15-də "Hnçak" partiyasının təşkilatçılığı ilə İstanbulda baş verən partlayışda 17 nəfər ölən və yaralanan olub. Dövlət məmurları da erməni terrorçu təşkilatlarının qəsdlərinin qurbanı olublar. Ermənilərin özbaşınalığı o səviyyəyə çatıb ki, onlar hətta 1905-ci ildə Sultan Əbdülhəmidə qarşı da sui-qəsd törədibilər. Erməni komitələri bəzi hallarda erməni əhalinin özünə zülm edərək, yaxud onların qaniçən əməllərinə qarşı çıxan erməniləri qətlə yetirərək, günahı türklərin üzərinə atmağa çalışıblar.

Həm ön, həm də arxa cəbhədə döyüşmək məcburiyyətində qalmasına baxmayaraq, Osmanlı rəhbərliyi uzun müddət ermənilərin yaratdığı təhlükəni "məhəlli tədbirlərlə" həll etməyə çalışıb. Lakin qırğınların əhatə dairəsinin genişlənməsi, təhlükənin artması Osmanlı rəhbərliyini daha qəti addım atmağa vadar edib. Ermənilərin həmin dövrdə Anadoluda bir milyondan artıq türkü qətlə yetirməsinə baxmayaraq, Osmanlı rəhbərliyi xəyanətkar quldurlara qarşı sərt cəzalandırma üsullarına əl atmayıb. Əksinə, müharibənin qızğın çağında cəbhə bölgəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə bölgənin üsyanlar qaldıran erməni əhalisinin imperiyanın içərilərində yerləşdirilməsi məsələsi gündəmə gəlib.



1915-ci il aprelin 24-də ölkədə qarışıqlıq yaradan, erməniləri silahlandıraraq türklərin yaşadığı kəndləri məhv etməyə yönəldən erməni komitələrinin fəaliyyəti dayandırılıb. Dövlət əleyhinə fəaliyyətdə ittiham olunan komitələrin 2345 nəfər rəhbəri və fəal üzvü həbs olunub. Göründüyü kimi, ermənilərin bütün dünyaya car çəkərək qondarma "erməni soyqırımı"nı anma günü kimi qeyd etdikləri 24 aprel tarixi əslində, dövlətə xəyanət edən, dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədən erməni komitələrinin aparıcı şəxslərinin həbs olunduğu gündür. Bu tarixin, hətta ermənilərin "soyqırımı" kimi təbliğ etdiyi köçürülmə tədbiri ilə də heç bir əlaqəsi yoxdur.

Ermənilərin Türkiyədə törətdikləri qətliamlardan biri Ərzurum vilayətinin İlıca rayonunun Alaca kəndində həyata keçirilmişdir. 1986-cı ilin may ayında həmin kənddə bu qətliamın dəhşətlərini göstərən kütləvi məzarlıqlar aşkar edilib. Açılan məzarlardakı cəsədlər insanı dəhşətə gətirib. Bütün uşaqlar süngüdən keçirilmiş, gənclər isə baltalarla doğranmış olub.

Ermənilərin Ağdamar adasında türk qadınlarına qarşı törətdikləri qətliam "Ağdamar Adası qətliamı"dır. 1915-ci ildə Van qırğınında ermənilərin müsəlman qadınlara təcavüz etdiyi və qətlə yetirdiyi bu adanın adı "Təcavüz adası" adlandırılır. Bu qətliamdan yaddaqalan dəhşətli hadisələrdən biri də təcavüz etmək üçün bu adaya aparılan 50 müsəlman Van qadınının mindikləri qayıqdan özlərini Van gölünə atmasıdır. 1915-ci ildə İğdırın Hakmehmet kəndində ermənilərin törətdiyi qətliam "Hakmehmet qətliamı"dır. Bu qətliamda 51 nəfər su quyusuna atılaraq ölümə məhkum edilib.

Van vilayətinin Haskay kəndində törədilən "Haskay qətliamı"nda yüzlərlə uşaq və 200 günahsız qadın da vəhşicəsinə qətlə yetirilib. Bu qətliamda həmin kəndin sakinlərindən bir nəfər də sağ qalmayıb.

Qətliam hadisələri arasınada Bitlis vilayətinin Hizan kəndində "Hizan qətliamı"nı, Qars ətrafında "Qars qətliamı''nı, Muşda "Muş qətliamı"nı və "Müküs qətliamı"nı sadalamaq olar.

Osmanlı arxivləri 1910-1922-ci illər arasında 523 min türkün ermənilər tərəfindən öldürüldüyünü göstərir. Ümumilikdə isə 1914-1918-ci illər arasında baş verən hadisələr zamanı 2,5-3 milyon müsəlman türkün ermənilər tərəfindən qətlə yetirildiyi bildirilir.

''Ermənilərin Türkiyədə törətdikləri qətliamların sayı çox böyükdür. İğdırın Oba, Hakmehmet və Gedikli kəndlərində qeyri-insani şəkildə saysız-hesabsız türk öldürülmüşdür. müasir Bu fikirləri **Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini, İğdır Azərbaycan Evi Dərnəyinin rəhbəri, tədqiqatçı-yazar Sərdar Ünsal** deyib: "Bu bölgədə minlərlə insan ermənilər tərəfindən amansızcasına qətlə yetirilib. Soyqırımda sağ qalanlar isə doğma torpaqlarını tərk etmək məcburiyyətində qalıblar. Bu faciədə şəhid olan türklərin xatirəsi 1999-cu ildə İğdırda yaradılan Soyqırımı Abidə və Muzey kompleksi ilə əbədiləşdirilib. 1997-ci ildə alimlərin də iştirak etdiyi beynəlxalq simpoziumda ermənilərin türklərə qarşı törətdikləri soyqırımı tarixi faktlarla təsdiqlənib. Sonra beynəlxalq təşkilatlardan gələn alimlərin gözü önündə Oba, Hakmehmet və Gedikli kəndlərindəki toplu məzarlıqlar açılıb. Bu məzarların həqiqətən türklərə aid olduğu isbatlanıb və İğdırda Soyqırımı Abidə və Muzey kompleksinin yaradılmasına dair qərar imzalanıb. O gündən kompleks yerli sakinlərin və xarici turistlərin tarixi məkanına çevrilib".

İğdır Soyqırımı Abidəsi və Muzeyi 1915-1920-ci illərdə bölgədə 80.000 türkün ermənilər tərəfindən qətlə yetirilməsini simvolizə edir. 43 metr hündürlüyü olan abidə Azərbaycan, İran, Ermənistandan gələn yolların qovşağında yerləşir və deyilənlərə görə, hətta İrəvan şəhərindən də görünür. Abidənin üzərindəki 5 ədəd qılınc türkün duruşunu, hər zaman sülh tərəfdarı olduğunu və Osmanlı dövlətinin simvolunu göstərir. Kompleks Abidə və Muzey olmaqla iki hissədən ibarətdir. Muzeydə ermənilərin türklərə qarşı törətdikləri soyqırımını təsdiq edən tarixi sənədlər və toplu məzarlıqlardan əldə olunan əyani sübutlar nümayiş olunur. Muzeydə, həmçinin Naxçıvanda Kazım Karabekir məscidinin açılışında iştirak edən dahi lider Heydər Əliyevin fotoşəkilləri də təqdim olunur. Muzeydə 1974-1986-cı illər arasında erməni terror təşkilatı tərəfindən qətlə yetirilən türk diplomatları ilə bağlı sənədlər və şəkillər də yer alır.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

# ERMƏNİ SAXTAKARLIĞI, UYDURMA TARİX

(əvvəli 10-cu səhifədə)

Son dövrlər ermənilərin bu istiqamətdə fəaliyyətləri daha da güclənib. Onlar erməni lobbisinin yaxından köməyi ilə müxtəlif ölkələrin parlamentlərinə müraciət edərək bədnam soyqırımının pislənməsi ilə bağlı qərarlar qəbul etdirməyə çalışır, buna qismən nail ola bilirlər. Bu məsələdə bəzi Qərb ölkələri, xüsusən Fransa, İsveçrə, Hollandiya daha çox fəallıq göstərir. Məsələyə Vatikan kilsəsinin qarışması, Papa Frensiskin qondarma soyqırımı XX əsrdə ilk soyqırımı kimi təqdim etməsi xristian təəssübkeşliyinə və dinin siyasətə alət edilməsinə bir nümunədir.

Bu ölkələr və qurumlar unudurlar ki, Türkiyə dəfələrlə hər iki ölkənin arxivlərinin açılmasını, tarixçilərdən ibarət beynəlxalq heyətin həmin dövrdə baş vermiş hadisələrin araşdırmasını təklif edib. Bundan boyun qaçıran Ermənistan məsələni siyasiləşdirməkdə davam etməklə daha çox ölkənin qondarma soyqırımını tanımasına, məsələni Beynəlxalq Məhkəmə səviyyəsinə qaldıraraq Türkiyədən təzminat qoparılmasına nail olmağa çalışır.

Birmənalı olaraq sübut edilmişdir ki, tarixdə erməni soyqırımı adlı hadisə olmayıb. Ən azından ona görə ki, bunu sübut edəcək heç bir fakt, əşyayi-dəlil, videomaterial yoxdur. Üstəlik erməni yalanlarının qondarma olduğu bir də onunla təsdiqini tapır ki, bu saxta iddia ilə bağlı bir dənə də olsun məhkəmə hökmü yoxdur. Məsələn, yəhudi Xolokostunu sübut edən çoxsaylı dəlillər onu Nürnberq mühakiməsində bütün detallarına qədər aşkarlaya bildi. Ermənilər isə bu məsələdə quru sözdən uzağa gedə bilmirlər.

Ekozyants kimi bir çox ermənilər etiraf edirlər ki, ermənilərin soyqırımı məhz indi aparılır. Onların o qədər himayədarları peyda olub ki, tarixi hadisələri saxtalaşdırıb bəhanə qismində istifadə edərək erməni xalqını real dünyadan, müasir sivilizasiyadan kəsib ayırmaq, onları türklərə, azərbaycanlılara, hətta gürcülərə qarşı qoymaq istəyirlər. Özü də bunu əfsus ki, kifayət qədər uğurla etməyə çalışır və bəzən də nail olurlar. Ermənilərin bu cür sürrealist tələbləri və iddiaları artıq ona gətirib çıxarıb ki, onlar bölgənin bütün irimiqyaslı layihələrindən kənarda qalıb, coğrafi əhatələrində büsbütün davakar, militarist xarakterli bioloji tullantıya çevriliblər. Onlar heç cür anlaya bilmirlər ki, həm "soyqırımı" anlayışının yaradıcıları, həm də qonşulara qarşı mənəvi, tarixi və ərazi iddialarının təşkilatçıları əslində, bu xalqın amansız və məkrli düşmənləridir. Elə bu səbəbdəndir ki, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasına dair BMT Təhlükəsizlik Şurasının 4 Qətnaməsinin olmasına baxmayaraq, bu istiqamətdə aparılan sülh danışıqları ermənilərin destruktiv mövqeyi ucbatından həmişə dalana dirənir. Ermənilər başa düşməlidir ki, onlar artıq tarixi Azərbaycan torpaqlarında bir dəfə öz dövlətlərini qurublar. İkinci dəfə Azərbaycan torpaqlarında yeni erməni dövlətinin yaradılmasına Azərbaycan xalqı əsla və əsla icazə verməyəcək.

Beləcə, ermənilər on illərdir ki, onlara tamamilə yad olan insanlar tərəfindən düşünülmüş, olduqca ağır "genosid" xaçı ilə dünyada veyillənir, kiminə təzim edir, kiminə ağlıyıb-sıtqıyır, bir sözlə, özlərinin məşəqqətlər çəkmiş əzabkeş obrazını yaratmaq naminə hər cür əksikliyə gedirlər. Bu müddətdə genosid sözü hərfi mənada ermənilərlə qovuşub, həm də doğmalaşıb. O, hər bir erməni ailəsinin üzvü olub, icazəsiz və çəkinmədən onların qəlbində yuva salıb. Bu xalq qapalı, qəzəbli, kinli Yanusa çevrilib və uydurduğu yalanı qəbul etmək istəməyən hər kəsi məhv eləməyə hazırdır, çünki o hamıdan "ən qədim, ən böyük, ən əzabkeşdir".

Hər halda, ermənilər arasında sağlam mühakimə qabiliyyətini və zəkasını qoruyub saxlayanlara da rast gəlinir. Onlar hamısı bir səslə tələb edirlər ki, qondarma soyqırımı iddialarından əl çəkməyin vaxtı çoxdan çatıb, yəhudilər real Xolokost cinayətinə görə almanlarla münasibəti pozmayıblarsa, biz qondarma iddialarla dünyanı bir-birinə vurmamalıyıq. Xocalı soyqırımının, işğal edilmiş 20 faiz Azərbaycan torpaqlarının və orada həyata keçirilmiş etnik təmizləmələrin 1 milyonluq qurbanlarının ibrətləri də bizləri buna çağırır.

Erməni tarixçisi Ekzoyants səmimi olaraq ermənilərə müraciət edir: "Mən bilirəm və əminəm ki, bizim xalq öz yaddaşını, bütün doğmalarını özünə qaytarmalıdır. Onu necə var, elə də qəbul etməlidir. Söhbət həm Türkiyə, həm Azərbaycan xalqından gedir.

Mən bu xalqları bizdən hansı ardıcıllıqla aralayıblarsa və hansı ardıcıllıqla aralamada davam edirlərsə, o ardıcıllıqla da sıraladım. XIX əsrin sonlarında türkləri, XX əsrin sonlarında qəti olaraq azərbaycanlıları bizim düşmənlərimizə çevirdilərsə, indi də ruslara qarşı xalqımıza uğurlu şəkildə nifrət virusu peyvənd edirlər. Odur ki, nə qədər ağır olsa da biz öz real, təbii ailəmizə qayıtmalıyıq. Əgər bunu eləməsək, mən əminəm: biz məhv olacağıq, həll olub gedəcəyik.

Mən bizim virtual qədimliyimizin, qədim böyüklüyümüzün konkret nədən ibarət olduğunu göstərmək və əsas bu suala cavab vermək üçün öz üzərimə məsuliyyət götürürəm: kim və nə üçün bizi aldadır? Digər bütün xalqlar kimi bizim də qədim keçmişimiz var. Ancaq əfsus ki, onun haqda dəqiq heç nə, demək olar, heç nə məlum deyil".

Azərbaycan tarixşünaslığı həm Ermənistan ərazilərindən dəfələrlə azərbaycanlıların deportasiyasını, həm də 1905-ci ildən başlayan və saysız-hesabsız qurbanlarla müşayiət olunan Osmanlı və Azərbaycan türklərinə qarşı erməni qətliamlarını araşdıraraq, əslində soyqırımından daha çox Azərbaycan türklərinin əziyyət çəkdiyini isbata yetirmişdir. Ə.Ağaoğlu 1905-ci ildə "S.Peterburqskiye vedomosti" qəzetinin 22-25 aprel sayında "Bakı hadisələrinə dair" məqaləsində yazırdı ki, elə həmin vaxtdan bu qırğınlar Bakı sərhədlərini aşaraq əksər Azərbaycan bölgələrini, xüsusən Qarabağ bölgəsini daha geniş miqyasda əhatə etmişdir. Həm də bu soyqırımları 1916-cı ildən şiddətlənərək Türkiyə ərazisində Kars, İğdır, Cənubi Azərbaycanda Urmiyaətrafı bölgələri, Qərbi Azərbaycanın (indiki Ermənistan) əksər bölgələrini, eləcə də Şimali Azərbaycanın bir çox ərazilərini ağzına alır. Bakı şəhərində erməni vandalizmi daha böyük qırğınlarla müşayiət olunur. Şaumyanın bolşevik-daşnak dəstələri ilə birgə hərəkət edən erməni bandit dəstələri 1918-ci ilin martında təkcə bir gecədə 20 minə qədər azərbaycanlını soyqırıma məruz qoydu. Njdenin, Dronun, Amazapsın qaçaqquldur dəstələri ölkənin şimal-şərq rayonlarında, xüsusən də Quba uyezdində daha amansız qətliamlara rəvac verdilər.

Sovet hakimiyyəti illərində ermənilərə qondarma soyqırımından danışmağa icazə verilsə də, Azərbaycan türklərinə qarşı ermənilərin törətdikləri irimiqyaslı qırğınlar haqqında faktların tədqiq edilməsinə qətiyyən icazə verilmirdi. Amma hər il "Pravda" qəzeti qondarma erməni soyqırımına dair məqalə dərc edir, ermənilərin çoxsaylı "genosid" tədbirlərinə geniş meydan verilirdi.

Yalnız müstəqillik illəri ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı və deportasiyaların əsl üzünü açmağa imkan verdi. Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da verdiyi fərmanla hər il martın 31-i ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı günü kimi qeyd edilməsi qərara alındı. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" adı altında keçirdiyi tədbirlər silsiləsi ermənilərin Xocalıda törətdikləri vəhşilikləri bütün dünyaya çatdırmaq imkanı verdi. Artıq dünyanın 8 ölkəsinin, ABŞ-ın 16 ştatının qanunvericilik məclisləri Xocalı qətliamını insanlığa qarşı cinayət kimi tanıyıb.

Erməniəsilli ukraynalı tədqiqatçı Filipp Ekozyants da Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edənlər sırasındadır. Bu harasıdır, Ekozyants vaxtaşırı erməniləri saxta və yalan tarixdən, uydurma soyqırımı iddiasından imtinaya çağırır, əks halda, haqlı olaraq erməni xalqının iztirablarının bitməyəcəyi barədə xəbərdarlıq edir.

Son olaraq o, öz xalqından bir suala cavab tələb edən video yayıb. Tədqiqatçı videoda erməni istifadəçilərdən soruşur: "Biz ermənilər qonşularımızla sülh və uyğunluq şəraitində yaşamaq üçün nə etmişik?" Daha sonra o, öz sualını aydınlaşdırmağa çalışır: "Bu cavablar ermənilərin xoşuna gəlməyəcək və ya onlar ümumiyyətlə cavab tapmayacaqlar. Siz və sizin son onilliklər ərzində dəyişən hakimiyyətiniz qonşuları ilə sülh içində yaşamaq üçün konkret nə ediblər? Bir-birinizdən heç yana qaça bilməzsiniz! Siz onsuz da qonşularınızla yaşayacaqsınız. Variant yoxdur. Yoxsa yenə harasa gedəcəksiniz? Rusiya və Amerikada yeni kilsələr tikəcəksiniz? Özünüz seçməlisiniz".

Erməni tədqiqatçı Qarabağın mənsubiyyəti məsələsinə də toxunub: "Daha bir sualım var: hər yerə Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu bəyan etməyinizdən belə nəticə çıxarmaq olar ki, beynəlxalq ictimaiyyətin fikri vecinizə deyil? Bu sizi maraqlandırmır? Axı bütün beynəlxalq təşkilatlar, o cümlədən BMT Dağlıq Qarabağı Azərbaycan Respublikasının ərazisi kimi tanıyır. Siz isə hökumət səviyyəsində deyirsiniz ki - yox! İndi isə məntiqi bir sual: əgər, beynəlxalq ictimaiyyətin fikri vecinizə deyilsə, o zaman niyə elə həmin beynəlxalq ictimaiyyətin erməni "soyqırımı"nı tanımasına nail olmaq istəyirsiniz?".

Bütün bunlar onu göstərir ki, ermənilərin dünyaya sırıdıqları yalanlar dağılmaqda, bu regionda baş verən həqiqətlər tədricən də olsa, özünə yol açmaqdadır.

**Qabil HÜSEYNLİ,**
**fəlsəfə elmləri doktoru, professor.**

# 22 Aprel Ümumdünya Yer Günüdür

**Əsası Con Sterlinq Morton tərəfindən qoyulan Ümumdünya Yer Gününün bayram edilməsi XIX əsrin 40-cı illərinə təsadüf edir. 1872-ci ildə Amerika Birləşmiş Ştatlarının Nebraska ştatının sakini C.S.Morton il ərzində bir günün ətraf ərazinin yaşıllaşmasına həsr edilməsi təklifi ilə çıxış edir və birinci ağacəkmə günü milyona yaxın ağac əkilir. 1882-ci il 22 aprel tarixindən başlayaraq "Ağac günü" Nebraska hökuməti tərəfindən ştatın rəsmi bayramı kimi qeyd edilir. 1970-ci ildən isə ətraf mühitin əhəmiyyətinin təbliğatı, onun ilkin formada qorunub saxlanılması, planetin təbii ehtiyatlarının tükənməsi və s. sahələri əhatə etməsi ilə əlaqədar bayram "Yer Günü" adlandırılır.**

Ümumdünya Yer Günü 22 aprel 2009-cu ildə BMT-nin Baş Assambleyasının 63-cü sessiyasında təsis edilmiş və 2010-cu ildən başlayaraq hər il şimal yarımkürədə yazda, cənubda isə payızda keçirilir. Bu ümumdünya aksiyasının əsas məqsədi cəmiyyətin və hər bir insanın diqqətini Yerin və ətraf mühitin problemlərinə cəlb etməkdir. Hər il dünya ölkələrinin alimləri bu gündə dəyirmi masa arxasında qlobal ekoloji problemləri müzakirə etmək üçün toplaşırlar. Müxtəlif ölkələrdə fərqli-fərqli aksiya və tədbirlər keçirilir. Bunlar konfranslar, sərgilər, şəhərin ən işlək küçələrində avtomobil hərəkətinin dayandırılması, ərazilərin təmizlənməsi və ağacların əkilməsidir.

Yer Günü ərəfəsində insanlar müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyir.

1990-cı ildən başlayaraq Yer Gününün əsas mövzusu təbii mühiti ilkin formada qoruyan milli parklara həsr edilib. Tədricən bu bayram beynəlxalq xarakter alıb, hazırkı dövrdə 190-dan çox ölkədə, o cümlədən Azərbaycanda da qeyd olunur.

XXI əsrin əvvəllərində ölkəmizdə milli parkların şəbəkəsi genişləndirilib. 2003-cü ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonunu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan rayonlarını əhatə edən Ağgöl Milli Parkı yaradılıb.




22 aprel Ümumdünya Yer Günü ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hər il müxtəlif tədbirlər həyata keçirilir, ətraf mühitin mühafizəsi sahəsində ictimaiyyət arasında təbliğat işləri aparılır. Ötən il aprelin 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə növbəti ağacəkmə aksiyası Abşeron rayonunun Müşfiqabad qəsəbəsində keçirilib. Yer Günü ilə əlaqədar keçirilən aksiya zamanı 2 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 1000-dən çox Eldar şamı və zeytun ağacı əkilib. Həmçinin ötən ilin aprelində YAP-ın və ETSN-in birgə təşkilatçılığı ilə Yer Günü münasibətilə ağacəkmə aksiyası keçirilməsində əsas məqsəd Abşeron yarımadasının daha da yaşıllaşdırılması olmuşdur. Aksiya çərçivəsində Müşfiqabad qəsəbəsi ərazisində 3 hektar sahədə 2000-dən çox müxtəlif növ ağac, əsasən zeytun və Eldar şamı əkilmişdir.

Ekoloqlar həmin gün çərçivəsində ətraf mühitin sağlamlaşdırılmasına yönələn kütləvi aksiyalar keçirməklə bu sahədə daha fəal olmağa çağırırlar.

**"Respublika".**



# AZƏRBAYCAN dünya mediasında


bpn
ირაკლი ღარიბაშვილი - აზერბაიჯანი არის არამხოლოდ ჩვენი მეგობარი და მეზობელი, არამედ ძალიან ძლიერი სტრატეგიული პარტნიორი
ჩვენი მთავარი ამოცანა არის რეგიონში მშვიდობის, სტაბილურობის შენარჩუნება, უფრო

## Business Press News:

### İrakli Qaribaşvili - Azərbaycan təkcə bizim dostumuz və qonşumuz deyil, həm də çox güclü strateji tərəfdaşımızdır

**Gürcüstanın "Business Press News" xəbər saytı iki ölkə liderinin iştirakı ilə keçirilən mətbuat konfransı haqqında məlumat yayıb. Sözügedən yazıda deyilir ki: "Bizim əsas vəzifəmiz regionda sülhü və sabitliyi qorumaq, daha çox layihələr həyata keçirməkdir və inanırıq ki, biz belə isti dostluq və qardaşlıq şəraitində çoxlu layihələr həyata keçirəcəyik", - deyə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi mətbuat konfransında bildirib.**

Baş nazir qonaqpərvərliyinə görə Azərbaycan Prezidentinə təşəkkür edib, İlham Əliyevlə görüşdə müzakirə etdiyi məsələləri səsləndirib: "Sizinlə, Azərbaycanla, Azərbaycan xalqı ilə qardaşlığın, dostluğun bizim gürcülər üçün nə qədər vacib olduğunu bir daha vurğulamaq istərdim. Bizim çoxəsrlik dostluğumuz var. Bizim çox güclü tərəfdaşlığımız var. Azərbaycan təkcə bizim dostumuz və qonşumuz deyil, həm də uzun illər çox güclü strateji tərəfdaş, ticarət tərəfdaşıdır. Biz sizinlə birlikdə xalqlarımızı daha da birləşdirən, bir-birindən daha da asılı olan, əsrlər boyu davam edəcək çox mühüm tarixi əhəmiyyətə malik layihələr həyata keçirmişik. Biz artıq həyata keçirilmiş və uğurla fəaliyyət göstərən tarixi əhəmiyyət kəsb edən layihələri dəfələrlə qeyd etmişik.

Məlumdur ki, Gürcüstan da etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, biz bu fəaliyyətimizi davam etdiririk və dayanmırıq. Bildiyiniz kimi, biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta Dəhliz məsələsini inkişaf etdiririk. Yaşıl enerjini Avropaya nəql etmək üçün bizim nəhəng potensialımız mövcuddur, bunun çox böyük perspektivləri var. Bu, bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq. Biz bunu da müzakirə etdik.

Biz yeni iş yerləri açmalıyıq və xalqlarımızın firavanlığını təmin etməliyik. Biz bu sahədə eyni baxışa malikik. Ölkələrimiz arasında münasibətlərin daha sıx olmasını arzulayırıq".

Qeyd edək ki, aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər. Çıxışlar zamanı iki ölkə başçısı Azərbaycan-Gürcüstan arasındakı münasibətlərdən, əlaqələrdən və strateji əməkdaşlıqdan söz açıblar.


THE TIMES OF ISRAEL
FM Cohen meets Azerbaijani president to talk joint security challenges
Top diplomat looks to accelerate growing bilateral ties with Baku, which shares a border with Iran and supplies over 30% of Israel's oil
Foreign Minister Eli Cohen met Azerbaijani President Ilham Aliyev in Baku on Wednesday, the latest step in an ongoing and very public expansion of bilateral ties.

## The Times of Israil:

### İsrail Azərbaycanla münasibətləri dərinləşdirməkdə maraqlıdır

**The Times of Israil xəbər saytı İsrail xarici işlər naziri Eli Kohenin təhlükəsizlik sahəsində birgə çağırışları müzakirə etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüş haqqında məqalə dərc edib.**

Məqalədə qeyd olunur ki, diplomat İsrailin neftə tələbatının 30%-dən çoxunu təmin edən Bakı ilə ikitərəfli əlaqələrin inkişafının sürətləndiriləcəyinə ümid etdiyini vurğulayıb. Xarici işlər naziri Eli Kohen çərşənbə günü Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Görüşdən sonra Eli Kohen açıqlamasında deyib ki, "ortaq strateji regional çağırışlarımız, xüsusən regional təhlükəsizlik və terrorizmlə mübarizə" mövzusunda danışıqlar baş tutub.

Məqalədə, həmçinin bildirilib ki, Eli Kohen səfərin məqsədini də açıqlayıb: "Bizim ümumi çağırışlarımız Bakıdakı yaxşı dostlarımızla birlikdə vahid və qətiyyətli cəbhə qurmağa davam etmək, həmçinin iqtisadiyyat, ticarət, müdafiə, energetika və innovasiya sahələrində əməkdaşlığı dərinləşdirməkdir". The Times of Israil xəbər saytı 44 günlük Vətən müharibəsində İsrailin Azərbaycana dəstəyini də vurğulayaraq qeyd edib ki, İsrail 2020-ci il İkinci Qarabağ münaqişəsi zamanı Azərbaycana silah tədarükünü artırmış və 6 həftəlik müharibədən Azərbaycan qalib ayrılmışdır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun məlumatına görə, 2016-2020-ci illərdə İsrail Bakının əsas silah idxalının 69 faizini təmin edib.


WORLD
7,944 hectares of land cleared of mines in 1st quarter of 2023, says Azerbaijan
3,878 mines, unexploded ordnance found in territories liberated from Armenian occupation, says mines clearance agency
Burc Eruygur | 19.04.2023 - Update : 19.04.2023

## Anadolu Agentliyi:

### Azərbaycanda 2023-cü ilin I rübündə 7944 hektar ərazi minalardan təmizlənib

**Türkiyənin "Anadolu Agentliyi" Azərbaycanda 2023-cü ilin birinci rübündə əvvəllər Ermənistanın işğalı altında olan 7944 hektar ərazinin minalardan təmizləndiyini barədə məlumat yayımlayıb. Xəbərə görə, Ermənistanın işğalından azad edilən ərazilərdə 3878 mina və partlamamış hərbi sursat aşkar edilib.**

Məlumatda ANAMA-nın rəhbəri Vüqar Süleymanovun Agentliyin 2023-cü ilin birinci rübündə fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, əhalinin təhlükəsiz və sabit məskunlaşması məqsədilə minatəmizləmə əməliyyatlarının vacibliyini vurğuladığı qeyd olunub.


Commemoration ceremony of Azerbaijani national leader held in Beijing
The commemoration ceremony dedicated to the 100th anniversary of the birth of Heydar Aliyev, the national leader of the Azerbaijani people, was held in Beijing on Monday.
The commemoration ceremony dedicated to the 100th anniversary of the birth of Heydar Aliyev is held in Beijing, on April 17, 2023. [Photo provided to China.org.cn]

## "China.org.cn":

### Pekində Azərbaycan xalqının Ümummilli Liderinin anım mərasimi keçirilib

**Çinin "China.org.cn" xəbər saytı Pekində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş anım mərasimi ilə bağlı xəbər yayımlayıb. Xəbərdə tədbirin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının (CPAFFC), Azərbaycanın Çindəki səfirliyi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə baş tutduğu qeyd olunub. Yazıda, həmçinin anım mərasimində dövlət qurumlarının, beynəlxalq təşkilatların və KİV nümayəndələrin iştirak etdiyi bildirilib.**

Tədbirdə çıxış edən CPAFFC-nin prezidenti Lin Sonqtian iki ölkə arasındakı dostluq əlaqələrinin tarixini xatırladıb: "Əsrlər boyu hər iki tərəf ticarət, tibb və memarlıq kimi sahələrdə tez-tez mübadilələr həyata keçirib və birlikdə irəliləyiş əldə edib".

Bundan başqa, məqalədə Azərbaycan ilə Çin arasında ikitərəfli münasibətlərin inkişafında Heydər Əliyevin mühüm rolu da vurğulanıb: "Heydər Əliyev Azərbaycan Prezidenti olduğu müddətdə Çinə uğurlu dövlət səfərləri qarşılıqlı münasibətlərin davamlı və sağlam inkişafına kömək etmək üçün çox böyük səylər və tarixi töhfələr verib". Xəbərdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun da çıxışı yer alıb.


franceinfo
Iran : la répression contre les femmes qui veulent s'affranchir du port du voile s'accentue
Publié le 18/04/2023 10:52
En Iran, la répression s'accentue contre

## "Franceinfo":

### İranda qadınlara qarşı təzyiqlər artır

**Fransanın "Franceinfo" nəşri İranda hökm sürən daxili qarışıqlıq barədə yazı dərc edib. Xəbərdə bildirilir ki, İranda hicabdan azad olmaq istəyən qadınlara qarşı repressiyalar güclənir. Nəqliyyat və mağazalarda geyimlərə nəzarət etmək üçün xüsusi polislər dayanır. Eyni zamanda, 24 saat ərzində ölkədə 150-dən çox ticarət obyekti mollalar tərəfindən sanksiyaya məruz qalıb, bəzi supermarketlər bağlanıb.**

Yazıda o da vurğulanıb ki, Tehran, Kirman, Gilan, Mazandaran, İlam və bir sıra əyalətlərdə gecə boyunca etiraz aksiyaları davam edib. Nümayişlərdə "Diktatora ölüm!", "Xameneiyə ölüm!", "Uşaq öldürən hökumətə ölüm!", "Qız öldürən hökumətə ölüm!" və bu kimi şüarlar səsləndirilib. Həmçinin Kirman şəhərində Qasım Süleymaninin baneri etirazçılar tərəfindən yandırılıb. Onlar "İstər edam olsun, istər həbsxana, biz sona qədər dayanacağıq!" şüarı səsləndiriblər. O cümlədən, Tehranda yerləşən "Məkkə şəhidləri", "Pərdis Şərif", "Əbrar", Kirmanşah şəhərindəki "Peyğəmbər", Kərəcdə isə "Təhzib" məktəblərinə kimyəvi hücum olub.

**"Respublika".**

# Mədəniyyət



**Milli teatr və kino sənətimizin ənənələrini layiqincə davam etdirən, fitri istedadı ilə Azərbaycan mədəniyyətini və incəsənətini zənginləşdirən Həsənağa Turabov 1938-ci ildə Bakıda anadan olmuşdur. 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsini bitirmiş, elə həmin il, hələ tələbəlik vaxtlarında sıx əlaqə saxladığı, hətta ikinci və üçüncü dərəcəli rollara təklif aldığı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında əmək fəaliyyətinə başlamışdır. Sənətdə öz dəst-xəttini yaratmaq qabiliyyəti, peşəsinə bağlılığı sayəsində qısa müddət ərzində Azərbaycan və dünya dramaturqlarının əsərlərində baş rolların qəhrəmanına çevrilmişdir. Teatr səhnəsində Vahid ("Kəndçi qızı"), Azər ("Yaxşı adam"), Hamlet ("Hamlet"), Lionel ("Orman qızı"), İsgəndər ("Ölülər"), Xəyyam ("Xəyyam") rolları ona böyük tamaşaçı rəğbəti qazandırmışdır. Ağasadıq Gəraybəyli, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Mehdi Məmmədov, Adil İsgəndərov kimi sənət korifeyləri ilə tərəf müqabili olan aktyor yaratdığı maraqlı və yaddaqalan obrazlarla yüksək sənətkarlıq bacarığını sübut etmişdir. 1987-2001-ci illərdə, təxminən 15 ilə yaxın Akademik Milli Dram Teatrının direktoru və bədii rəhbəri vəzifələrində çalışan Həsənağa Turabov teatrın səhnəsində dünya dramaturgiyasına və klassik milli irsimizə müraciət etməklə neçə-neçə əsərin səhnələşdirilməsinə geniş imkanlar yaratmışdır.**

## Tanınmış sənət ustası, realist aktyor məktəbinin görkəmli nümayəndəsi

Çoxsaylı bədii filmlərdə, o cümlədən televiziya tamaşalarında yüksək aktyorluq məharəti ilə unudulmaz obrazlar yaradan Həsənağa Turabov "Yeddi oğul istərəm" filmindəki Gəray bəyin bütün çalarlarını böyük ustalıqla, dəqiqliklə yaradaraq adını Azərbaycan kino sənəti tarixinə əbədi olaraq yazmışdır. Aktyorun qızı Sevinc Turabova "Yeddi oğul istərəm" filmində atasının Gəray bəy rolunda öz obrazını yaratdığını deyir: "Atam Gəray bəy obrazı ilə öz həyatını yaşayıb. Elə bil Gəray bəy özüdür ki, var. Xasiyyəti eyni idi. Mərd, qürurlu idi. Heç kimə baş əyməzdi, sözündən heç vaxt dönməzdi. Baxmayaraq ki, mənfi obraz idi Gəray bəy, kişilik rəmzi kimi tanındı. Hər yerdə onu Gəray bəy deyə çağırırdılar. Hətta vəziyyət o yerə çatmışdı ki, məni də Gəray bəyin qızı Humay adlandırırdılar. Yadımdadır, 6-7 yaşım olanda nənəmgilə getmişdim. Pəncərədə dayanıb həyətdə oynayan uşaqlara baxırdım. Məni görən uşaqlar başladılar qışqırmağa: "Komsomolu güllələyib öldürən Gəray bəyin qızı Humaydı". Bu, məni o qədər qəzəbləndirdi ki...".

Tamaşaçıya müsbət qəhrəmanını sevdirə bildiyi kimi, mənfi personajlara da nifrət hissi oyada bilən aktyorun "Babək", "Axırıncı aşırım", "Carvadarların izi ilə", "Ürək...Ürək", "Sevinc buxtası", "Dantenin yubileyi", "Qəm pəncərəsi", "Bəyin oğurlanması" və s. filmlərdə oynadığı rollar öz ifa tərzi ilə seçilməklə yanaşı, həm də həyatiliyi ilə sənətsevərlər tərəfindən yüksək qiymətləndirilmiş və qəbul olunmuşdur.

Rejissor kimi də sənətdə öz sözünü deyən Həsənağa Turabov "Qanlı zəmi", "Ailə", "Nə gözəldir bu dünya" kimi filmlərə həyat bəxş etmiş, tamaşaçı məhəbbəti qazandırmışdır. Tanınmış kinorejissor Tofiq Kazımov Həsənağa Turabovun realist aktyor məharətini yüksək dəyərləndirir, demək olar ki, bütün repertuarını onun üzərində qururdu. Oynadığı rolların hər birində təbiilikdən, reallıqdan kənara çıxmaması zaman keçdikcə Həsənağa Turabovu realist aktyor məktəbinin yaradıcısına çevirmişdi. Bütün ruhu ilə sənətinə bağlı olan aktyor istər televiziya tamaşalarında, istərsə də kinofilmlərdə bir-birindən maraqlı, baxımlı rollar yaradaraq özünü tamaşaçının diqqət mərkəzində saxlayırdı.

Gecə-gündüz məşqlərdə, çəkilişlərdə, radio-televiziya verilişlərində işləməkdən yorulmayan, böyük ustalıqla yaratdığı mürəkkəb xarakterli obrazları ilə Azərbaycan teatr və kino sənətinin inkişafına öz töhfəsinin verən Həsənağa Turabov həm də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, zəngin təcrübəsi, yüksək aktyorluq məharəti, istedadı, qabiliyyəti ilə neçə-neçə aktyorun yetişməsində əvəzsiz rol oynamış, sənətdə ilk addımlarını atan gənc aktyorlara sənətin incəliklərinə yiyələnmək və Azərbaycan teatrının ənənələrini davam etdirməkdə əlindən gələni əsirgəməmişdir.

Tanınmış sənət ustası, fitri istedadı ilə milli teatr və kino sənətimizə yeniliklər gətirən, özünəməxsus üslub, dəst-xətlə yaratdığı obrazlarla xalqın bədii təfəkkürünün formalaşmasında əvəzsiz xidmətləri olan Xalq artisti Həsənağa Turabov Azərbaycan mədəniyyət salnaməsinə parlaq səhifələr yazmışdır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına rəhbərlik etdiyi dönəmlərdə teatrın inkişafına, repertuarının zənginləşməsinə, məhsuldar fəaliyyətinə böyük səy göstərmiş, bir rəhbər olaraq kollektivin dərin hörmətini qazanmışdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**



## Çindəki "Azərbaycan mədəniyyətinə pəncərə" pavilyonu ziyarətçi axını ilə seçilir



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Xalq Respublikasına (ÇXR) səfəri çərçivəsində bu ölkənin Kommunist Partiyasının Benbu şəhər komitəsinin katibi Xuan Siaovu və Tayhu Dünya Mədəniyyət Forumunun rəhbəri Cen Çuansin ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, ÇXR Kommunist Partiyasının Benbu şəhər komitəsinin katibi Xuan Siaovu Azərbaycanın Benbu şəhərinin "Qədim məskənlər" mədəniyyət parkına dəstək göstərən ilk ölkələrindən olduğunu vurğulayaraq Heydər Əliyev Fondu tərəfindən parkda yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı milli pavilyonun qurulmasına görə təşəkkür edib.



2021-ci ildən fəaliyyət göstərən "Azərbaycan mədəniyyətinə pəncərə" pavilyonunun parka mütəmadi gələn ziyarətçilərin marağına səbəb olduğu bildirilib. Cənab Siaovu şəhərin turizm potensialının gələcəkdə artacağı səbəbindən parka və pavilyona da yüksək ziyarət axını olacağını qeyd edib.

Tayhu Dünya Mədəniyyət Forumunun rəhbəri Cen Çuansin ötən forumda Azərbaycanın fəxri qonaq qismində iştirakını və Azərbaycan Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətinin mədəni əlaqələrin inkişafı baxımından əhəmiyyətindən söz açıb. O, gələcək forumlarda da Azərbaycanla əməkdaşlıq etmək niyyətini bildirib.

Qeyd edək ki, "Qədim məskənlər" parkında məhdud sayda xarici milli pavilyonlardan birinci fəaliyyətə başlayanı məhz Azərbaycan pavilyonu olub. Pavilyonda Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərini təmsil edən xalça və kilimlər, misgərlik, dekorativ yaradıcılıq və şəbəkə sənəti nümunələri, milli geyimlər, musiqi alətləri, habelə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinə, tarixinə, ölkəmizin müasir inkişafına dair nəşrləri, milli suvenirlər nümayiş olunur. Bundan başqa, Azərbaycanın dahi şari və mütəfəkkiri Nizami Gəncəvinin büstü, "Xarıbülbül", "Qız qalası" və "Ceyranlar" silsiləsindən heykəltaraşlıq əsərləri, Qobustan qayaüstü rəsmlərinin imitasiyası da eksponatlar sırasında yer alıb. ■





## Ana dili - xalqımızın milli varlığı




**SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. 70-ci illərin ortalarından başlayaraq SSRİ-nin tərkibində olan müttəfiq respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta, respublika rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan ulu öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir.**

Belə ki, 1978-ci il 21 aprel tarixində Azərbaycan SSR Konstitusiyasının qəbul olunması, Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur. Heydər Əliyev öz ana dilini bilməyənləri şikəst adlandırmaqla millətin bütövlüyünün məhz onun ana dilindən keçdiyini qətiyyətlə bildirirdi. Dahi lider SSRİ Konstitusiyası haqqında danışarkən xüsusi vurğulayırdı ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Ulu öndərin bu mövqeyi əslində, dil məsələsi ilə bağlı gözlənilən təhlükənin qarşısını almaq, ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

Ana dilimiz uğrunda yorulmadan mübarizə aparan ümummilli lider ziyalıları, xalqı öz ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda yorulmadan mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir.

Ümummilli lider deyirdi: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik".

Dil mədəniyyətin əsasıdır. Dilçiliyin köməyi ilə ünsiyyət qurulur, mədəni normalar müəyyən edilir. Təsadüfi deyil ki, dilin sayəsində mədəniyyətlər nəsildən-nəslə ötürülür və uşaqlar öz ana dillərini öyrənərkən əvvəlki nəsillərin ümumiləşdirilmiş təcrübəsini də mənimsəyirlər. Dil obyektləri, hadisələri düzgün qiymətləndirməyə kömək edir, insan fəaliyyətinin təşkili və əlaqələndirilməsini şərtləndirir. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi özünəməxsus dilinin olmasıdır. Biz də fəxrlə deyə bilərik ki, bir xalq kimi zamanın bütün sınaqlarından ləyaqətlə keçərək dilimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxara bilmişik. Qürurla deyə bilərik ki, dərin tarixi kökləri olan dilimiz, mədəniyyətimiz və qədim tariximiz var. Doğma ana dilimizdə danışan milyonlarla həmvətənimiz bəşəriyyətə böyük şairlər, yazıçılar, alimlər, siyasətçilər və dahilər bəxş etmişdir.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Bu çərçivədə ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin yaşadılması və inkişafı uğrunda apardığı mübarizənin mahiyyətini dərk etmək o qədər də çətin deyil. Dil mədəniyyətinə münasibət barədə ulu öndər demişdir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

Xalqın tələbi və xahişi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı kimi məsələləri daim diqqət mərkəzində saxlayırdı. Azərbaycan dilinin təkminləşdirilməsi məsələsinə xüsusi önəm verən ümummilli lider ana dilimizin mənsubiyyətini özümüzə qaytardı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər olundu və onların çox böyük əksəriyyəti ana dilimizin Azərbaycan dili adlandırılması təklifini dəstəklədi. Müzakirələrin nəticəsi olaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirildi.

Ulu öndər Heydər Əliyevin ana dilimizin qorunması istiqamətində həyata keçirdiyi siyasi xətti Prezident İlham Əliyev bu gün uğurla davam etdirir. Belə ki, ölkə başçımız tərəfindən 2004-cü il yanvarın 12-də imzalanmış "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Həmin il yanvarın 14-də imzalanmış "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarla ana dilimizin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşdi. Təqdirəlayiq haldır ki, Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi, məhz dövlət başçısının təşəbbüsü ilə baş tutdu. Ölkə başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamlar, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman və bu istiqamətdə görülən genişmiqyaslı işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

**Nurlan ABDALOV,**
**"Respublika".**

*23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür*

## Kitab dünyagörüşünü artırmaq üçün güclü vasitədir

**"Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır".**

Yazımıza ulu öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyi münasibətilə keçirilən tədbirdə səsləndirdiyi bu fikirlərlə başlamağımız heç də təsadüfi deyil. Çünki Ümumdünya Kitab Gününün qeyd edildiyi bir gündə dünya mədəniyyətinin xəzinəsi sayılan kitablardan söz açmaq təbiidir. Əgər dünyanın müxtəlif nöqtələrində, ayrı-ayrı zamanlarda bütün insanlığı düşündürən, təəccübləndirən kitab nümunələri yaranmasaydı, onlar dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmasaydı, heç belə bir günün təsis edilməsinə də ehtiyac olmazdı.

UNESCO-nun 1995-ci ildə keçirilən 28-ci sessiyasında aprelin 23-nün Ümumdünya Kitab və ya Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü kimi qeyd edilməsi barədə qərar qəbul olunub. Dünyanın müxtəlif ölkələrində bu günün keçirilməsilə bağlı maraqlı məlumatlar var. Məsələn, İspaniyada Kitab Günü 1926-cı ildən hər il oktyabrın 7-də, Migel de Servantesin anadan olduğu güman edilən tarixdə qeyd olunmağa başlayıb. Lakin bu günü açıq havada gəzinti və kitabları vərəqləmək üçün daha mülayim mövsümdə qeyd etmək məqsədəuyğun hesab edilib. Beləliklə, 1930-cu ildə Kral XIII Alfonso, Servantesin ehtimal edilən ölüm tarixi olan 23 apreldə Kitab Gününün qeyd edilməsini qərara alıb.

İsveçdə bu gün Ümumdünya Kitab Günü kimi tanınır və müəllif hüququ aspekti nadir hallarda qeyd olunur. Adətən, aprelin 23-də qeyd olunan Kitab Gününün Pasxa bayramı ilə toqquşmaması üçün 2000 və 2011-ci illərdə aprelin 13-nə çəkilib.

Böyük Britaniya və İrlandiyada Ümumdünya Kitab Günü mart ayında hər il ilk cümə axşamı keçirilən və xüsusi nəşrlərin buraxılışı ilə üst-üstə düşən xeyriyyə tədbiridir. Hər il aprelin 23-də qeyd olunan Ümumdünya Kitab Gecəsi müstəqil xeyriyyə təşkilatı The Reading Agency tərəfindən təşkil edilir.

Amerika Birləşmiş Ştatlarının Merilend ştatının Kensinqton şəhərində Beynəlxalq Kitab Günü 26 apreldə ən yaxın bazar günü küçə festivalı ilə qeyd olunur. 2020-ci ildə 15-ci İllik Kensinqton Kitab Festivalı Günü COVID-19 pandemiyası səbəbindən ləğv edilib.

Azərbaycanda Ümumdünya Kitab Günü və ya Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü 1997-ci ildən qeyd olunmağa başlayıb.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün qeyd edilməsi kitablardan və mütaliədən zövq almağı təşviq edir. Bu münasibətlə UNESCO və kitab sənayesinin üç əsas sektorunu - naşirləri, kitab ticarətçilərini və kitabxanaları təmsil edən beynəlxalq təşkilatlar hər il şəhərlərdən birini Ümumdünya Kitab Paytaxtı kimi seçirlər.

Hər il UNESCO-nun Baş qərargahında böyük bayram tədbiri keçirilir. Kitab ticarətçiləri, nəşriyyat şirkətləri və rəssamlar kitablara və mütaliəyə olan sevgilərini gənclərlə praktik seminarlar keçirmək vasitəsilə (mətbəə, illüstrasiya, kitab cildlənməsi və s.) bölüşmək üçün dəvət olunurlar.

Kitab və mütaliə ilə bağlı rekordlar mütəmadi olaraq yenilənir. Dünyanın ən böyük kitabxana fondu Britaniyada yerləşir. Maddi dəyəri 170 milyonu keçən Britaniya Milli Kitabxanası özündə 5 kitabxana sistemini birləşdirir. Hətta İngiltərə parlamenti kitabxananın qorunması haqqında qanun da qəbul edib. Hazırda Britaniya Milli Kitabxanasında 150 milyona yaxın kitab saxlanılır.

Dünyanın ən kiçik kitabı nominasiyası üzrə rekord isə Omsk şəhərində yaşayan mikrominiatür ustaları Anatoli və Stanislav Konanko tərəfindən yenilənib. Ən kiçik kitabxana İngiltərənin Uestberi - sab - Mendip şəhərində telefon köşkündə yerləşir. Şəhər sakinləri simvolik qiymətə (1 funt) telefon köşkünü alaraq, onu dünyanın ən kiçik kitabxanası düzəldiblər. Açıq havada yerləşən kitabxana ilin 365 günü, sutkanın 24 saatı açıq olur.

Dünyanın ən böyük kitabı isə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində qeydə alınıb. Müqəddəs Ramazan ayı münasibətilə Məhəmməd Peyğəmbərin həyatına həsr olunan kitabın çəkisi 1,5 tondur. 30 alimin əsərinin daxil edildiyi kitabı ərsəyə gətirmək üçün 300 işçi dörd il ərzində onun üzərində çalışıb. Kitab 22 beynəlxalq və yerli mükafata layiq görülüb, habelə "Ginnesin rekordlar kitabı"nda fəxri yer tutub. Ən bahalı kitab isə Leonardo da Vinçinin "Lester kodeksi" sayılır. Qiyməti 30 milyondan bir az artıq dəyərləndirilən bu kitab Bill Qeytsə məxsusdur.

Ənənəvi olaraq hər il UNESCO Kitab Gününü müxtəlif mövzulara həsr edir. UNESCO kitabları və müəlliflik hüququnu təbliğ etməklə yaradıcılığın, mədəni müxtəlifliyin və bütün fəaliyyət sahələrində biliklərə bərabərhüquqlu əlçatanlığın tərəfdarı kimi çıxış edir, kitab işinin və qiraətin təşviqinə kömək edir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

**Dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişaf etməsi sahəsində qurultayların keçirilməsi müstəqil Azərbaycanın tarixində əlamətdar hadisələrdən biridir. İlk qurultay 2001-ci il "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 23 may 2001-ci il tarixli Sərəncamına əsasən 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində keçirilib. Qurultayın keçirilməsində əsas məqsəd xaricdə yaşayan soydaşlarımızı vahid azərbaycançılıq ideyası ətrafında birləşdirmək yolunda lazımi addımların atılması və diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin əsasının qoyulmasından ibarət idi. 70 ildən sonra müstəqilliyini bərpa edən Azərbaycan yalnız 2001-ci ildə ulu öndərin təşəbbüsü ilə ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, İsveçrə və digər ölkələr olmaqla 36 xarici dövlətdən 406 nümayəndə olmaqla 63 qonaq da iştirak etmişdir.**




# Azərbaycan diasporu güclənir

**2022-ci il aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı işə başlayıb**

Açılış nitqində bir çox məqamlara toxunan Heydər Əliyev tədbir iştirakçılarını əmin etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar.

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində xalqını qələbə xəbərləri ilə müjdələyən Prezident İlham Əliyev noyabrın 8-də Azərbaycana ən sevincli günü yaşatdı. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!..". Dövlət başçısının bu sözləri təkcə ölkə daxilində deyil, dünyanın dörd bir yanında yaşayan azərbaycanlıların qəlbinə məlhəm kimi yayılmışdı. Şuşa şəhəri Azərbaycan və azərbaycanlılar üçün xüsusi bir önəm kəsb edir. 28 il düşmən tapdağı altında olan bu əsrarəngiz şəhər, Qarabağın incisi olmaqla yanaşı, türk dünyasının mənəvi beşiyi sayılır. Azərbaycan xalqına Bülbülü, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Niyazi, Xan Şuşinski və bir çox dünyaşöhrətli dahiləri bəxş edən Şuşanın uzun illər erməni işğalında olması təkcə gözəl və dillərə dastan olan şəhərimizin deyil, mədəniyyətimizin tacının itirilməsi idi. İkinci Qarabağ müharibəsinin şah əsəri olan Şuşa əməliyyatı Şanlı Ordumuzun adını dünyanın hərb tarixinə qızıl hərflərə yazıb. Beləliklə, 2020-ci ildə ümummilli liderin əminliklə qeyd etdiyi arzuları artıq reallaşmışdı və 2022-ci il aprel ayının 22-də Qarabağ torpağında, Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı işə başladı. Həmvətənlilərimizin qürur mənbəyi olan Şuşa şəhəri dövlət başçısının söylədiyi kimi, həmin gün soydaşlarımızı günəşli hava ilə qarşıladı və bu, bir daha onu göstərdi ki, bura bizim tarixi torpaqlarımızdır. Hətta təbiət, günəş də azərbaycanlıların gəlişinə sevinib onlarla həmrəy olmuşdu. Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edib.

Aprelin 22-də Qarabağ torpağında, azad Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayının Zəfər Qurultayı adlandırılmasının Müzəffər Ali Baş Komandan səbəbini belə izah edir: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir".

Dövlət başçısı Zəfər Qurultayında etdiyi çıxışında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultayın keçirilməsi, Qarabağ münaqişəsinin həll edilməsi, postmünaqişə dövrü, torpaqlarımızın 30 il ərzində düşmən işğalında qalması, ordu quruculuğu, keçmiş Minsk qrupunun yarıtmaz fəaliyyəti, səfirlik və diaspor təşkilatlarının yeni reallıqlarını dünya ictimaiyyətinə çatdırmaq kimi bir sıra vacib məqamlara diqqət çəkib.

Azərbaycan diasporu Vətən müharibəsi ərəfəsində dünyanın bir çox ölkələrində haqq işimizin dəstəklənməsində böyük əmək sərf etmişdir. Xüsusilə, Avropanın bir çox ölkələrində və ABŞ-ın bəzi ştatlarında sayca çoxluq təşkil edən ermənilərin qarşısında əzmlə mübarizə apararaq qazandığımız qələbəyə öz töhfələrini vermişdilər. Ölkəmizin xaricdə tanınması, dilimizin və mədəniyyətimizin təbliğində diaspora təşkilatlarının üzərinə xüsusi vəzifə düşür. Nəzərə alsaq ki, onlar dünyada nüfuzlu və güclü olan erməni lobbisi ilə qarşı-qarşıyadırlar, buna görə də fəaliyyət istiqamətləri çoxşaxəli və təxirəsalınmaz olmalıdır. Bir ölkənin dünya arenasında və beynəlxalq müstəvidə söz sahibi olmasında insan faktorunun böyük önəmi var. Bu baxımdan, dövlət başçısı ikinci, üçüncü nəsil azərbaycanlıların öz mədəniyyətinə bağlı olmalarını, Azərbaycan dilini bilmələrini vacib hesab edir. Xarici ölkələrdə həmvətənlilərimizin Ana dilindən istifadə etməsi onların milli mənsubiyyətini, hansı ölkəyə məxsus olmalarını zahirə vuran əsas əlamətlərdir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

*"Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı deyib.*

# Qələbəmizin təcəssümü

Dünya Azərbaycanlılarının Qurultayı - xarici ölkələrdə yaşayan azərbaycanlıların müstəqil dövlətimizlə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbirdir. Dünya Azərbaycanlılarının I Qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II Qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III Qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilmişdir. Ötən il 22-23 aprel tarixlərində Dünya Azərbaycanlılarının V Qurultayı baş tutub. 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak etdiyi Qurultay Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilib. Qurultay iştirakçıları əvvəlcə Bakı şəhərində Fəxri Xiyabanı, I və II Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra Şuşa şəhərinə yola düşüblər. Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilib, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzuları müzakirə olunub. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan Diasporla İş üzrə Dövlət Komitəsinin Qarabağın azad olunmasından sonra ilk böyük görüşü idi və bu görüşün Şuşada keçirilməsi yüksək əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında geniş nitq söyləyərək bildirib ki, biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı aprelin 22-də işini "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" və "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzularında panel iclaslarla davam etdirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə keçirilən panel iclasda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Almaniya Azərbaycanlıları Alyansının sədri, tibb elmləri doktoru Nuran Abdullayev, Gürcüstanın İş Adamları Birliyinin sədri Nəriman Qurbanov, "Sara Xatun" Qadınlar Cəmiyyətinin rəhbəri Simuzər Baloğlanova və Türkiyənin "Star" qəzetinin xarici siyasət yazarı, tədqiqatçı-jurnalist Sevil Nuriyeva çıxış ediblər. Çıxışlar zamanı vurğulanıb ki, bu gün Azərbaycan diasporunun qarşısında böyük vəzifələr dayanır. Diaspor nümayəndələri azərbaycançılıq məfkurəsi əsasında daha sıx birləşməli, sosial şəbəkələrdə fəallığı artırmalı, dünya ictimaiyyətinin diqqətini Qarabağdakı real vəziyyətə, mina probleminə və Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinə yönəltməlidir. Daha sonra Qurultay konsert proqramı ilə davam edib. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən konsertdə folklor və rəqs qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri və xanəndələr çıxış ediblər. Zəfər Qurultayının bağlanış mərasimində əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə təltif edilən diaspor nümayəndələrinə "Əməkdar elm xadimi" fəxri adı, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Dostluq" ordeni və "Tərəqqi" medallarını təqdim edib.

Zəfərimizin simvolu olan Şuşada keçirilən Zəfər Qurultayı həm də bütün dünyaya bir mesaj oldu. Bununla Şuşanın Azərbaycan yurdu, bütün dünya azərbaycanlılarının mədəni qibləgahı olduğu hər kəsə bəyan edildi.

**Nəzrin CAVADZADƏ,**
**"Respublika".**




## Ankara
# Türkiyə-Azərbaycan həmrəylik həftəsinin açılışı



*Aprelin 25-nə qədər davam edəcək Türkiyə-Azərbaycan həmrəylik həftəsi Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Həmrəylik Vəqfinin təşkilatçılığı ilə keçirilir.*

Tədbirin açılış mərasimində çıxış edən Vəqfin rəhbəri Aygün Attar Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının dünyaya örnək olduğunu bildirib. O, Türkiyənin Qarabağ müharibəsində, Azərbaycanın isə Türkiyədəki yanğın və zəlzələ zamanı göstərdiyi dəstəyi xatırladıb. Həmrəylik həftəsinin məqsədinin bu dostluğu və qardaşlığı daha da möhkəmləndirmək olduğunu deyib, tədbirin Türkiyə Cümhuriyyətinin yaranmasının və Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində keçirilməsinə diqqət çəkib.

Ankara Universitetinin rektoru Necdat Ünüvar çıxışında Türkiyə-Azərbaycan dostluğundan söz açıb. Nəriman Nərimanovun Atatürkün yardımla bağlı təşəkkürünə "Qardaşın qardaşa borcu olmaz", - deyə cavabını yada salan Necdat Ünüvar eynilə Azərbaycan Prezidenti İlham Əliyevin Praqada o zamankı Ermənistan rəhbərliyinin Türkiyə əleyhinə çıxışına "Türkiyə burada yoxdur, mən varam", - deyə cavab verdiyini xatırladıb.

Tədbirdə çıxış edən Milli Məclisin sədr müavini Adil Əliyev Qarabağ zəferində Türkiyənin dəstəyi və Şuşa Bəyannaməsi haqqında danışıb və qeyd edib ki, Türkiyə və Azərbaycanın dostluğu iki ölkə arasında münasibətdən daha artıqdır. O, Azərbaycanın zəlzələdən sonra bölgənin yenidən qurulmasında və inşasında da iştirak edəcəyini bildirib.

Ermənilərin Qarabağa süni şəkildə gətirilməsi barədə danışan Milli Məclisin komitə sədri Ziyafət Əsgərov Türkiyənin Qarabağ savaşında Azərbaycana dəstəyini vurğulayıb. Komitə sədri "Şuşa Bəyannaməsi bizim qardaşlığımıza müttəfiqlik statusu verdi" deyərək güclü Türkiyənin olmasını istəməyən qüvvələrin mövcudluğunu təəssüflə qeyd edib.

Milli Məclisin digər komitə sədri Hicran Hüseynova da Rəcəb Tayyib Ərdoğanın Qarabağa səfərlərini xatırladıb. Zəngəzurla bağlı vaxtilə Heydər Əliyevin və bu gün Prezident İlham Əliyevin apardığı işlərdən danışıb.

TED Universitetinin rektoru, professor İhsan Sabuncuoğlu da Qarabağ savaşından sonra ölkələrimiz arasındakı həmrəyliyin işbirliyinə çevrilməsinin vacibliyini vurğulayıb: "Bir neçə ay öncə Azərbaycanda 55 universitetin rektoru ilə görüşdük. Azərbaycan və Türkiyə universitetlərinin təcrübə mübadiləsi vacibdir. Daha çox beynəlxalq layihələr icra etməliyik". Rektor TED Universitetinin Azərbaycandan şəhid və qazi ailəsindən olan 4 tələbəyə burs vermək istədiyini də diqqətə çatdırıb.

Avrasiya Yazarlar Birliyinin sədri Yakup Öməroğlu bildirib ki, birliyin jurnalının növbəti sayı Türkiyədə baş verən "Əsrin fəlakəti" sayılan zəlzələyə həsr olunub: "Zəlzələ zamanı 123 ölkə Türkiyəyə dəstək oldu, 88 ölkə burada xilasetmə işlərində iştirak etdi. Amma bu zəlzələnin acısını ancaq türk dünyası ədəbiyyatı yazdı. Jurnalımızda 110 şeir dərc olunub".

Tədbirdə Qarabağ qazisi Əhliyət Mehdiyev də Qarabağ savaşından danışıb. O, həmçinin zəlzələ zamanı 1 ay ərzində 200 könüllü gənclə birlikdə zəlzələ bölgəsində çalışdıqlarını xatırladıb: "Biz zəlzələ bölgəsində də Qarabağ müharibəsində olduğu kimi mübarizə apardıq".

Qeyd edək ki, Türkiyə-Azərbaycan həmrəylik həftəsi çərçivəsində Türkiyə Cümhuriyyətinin və ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Mustafa Kamal Atatürk və Heydər Əliyevi anım tədbiri, Nigar Helmi Abbasbəylinin "Qarabağ miras gecəsi" adlı sərgi, elm adamlarının iştirakı ilə "24 aprel 1915-ci ildə nə baş verdi?" adlı konfrans və Ankaradakı Heydər Əliyev parkında Türkiyə-Azərbaycan həmrəylik gecəsinin keçiriləcəyi bildirilir. Həmrəylik həftəsi aprelin 25-də "Türk dünyası gənclərinin birliyi" adlı forumla yekunlaşacaq.

Tədbirlərdə Azərbaycandan iştirak edən nümayəndə heyətinə Milli Məclis sədrinin müavini Adil Əliyev, parlamentin Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin sədri Ziyafət Əsgərov, Tərxis Olunmuş Hərbçiləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli, qazi Əhliyət Mehdiyev, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Əfqan Vəliyev və digər şəxslər daxildir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

*İrəvanda, Zəngəzurda, Dərələyəzdə, Amasiyada, Zəngibasarda və Qərbi Azərbaycanın digər ərazilərində olan tarixi abidələr, ziyarətgahlar ancaq türklərə məxsusdur. Göyçə mahalı da tarixi abidələrlə zəngin olan ulu türk yurdudur. Bu abidələrin çoxu müxtəlif vaxtlarda erməni vandalları tərəfindən dağıdılıb məhv edilmiş, ya da haylar bu abidələrə xaç nişanı vurmaqla erməni abidəsi kimi qələmə vermişlər.*



## XX əsrin bəlası - Deportasiya

# Könlüm keçir o yerlərdən...

Ermənilər 1905-1907, eləcə də 1918-20-ci illərdə Qərbi Azərbaycanda analoqu olmayan vəhşiliklər törətmiş, dinc insanlar amansızlıqla qətlə yetirilmiş, yandırılmış, diri-diri su quyularına doldurulmuşdur. Çoxları isə işgəncələrə dözə bilməyərək ata-baba yurdlarından Türkiyəyə, İrana, Gürcüstana və digər yerlərə qaçıb erməni terrorundan canlarını qurtarmışlar.

1918-ci ildə Qafan rayonunun Oxçu kəndində əhalinin başına gətirilən faciələr barədə Gəncə qubernatoruna teleqram vurulmuşdur: Teleqramda deyilirdi: "Zəngəzur qəzası rəisinin məlumatına görə, dekabrın 19-da Andranikin qaniçən dəstəsi yerli ermənilərlə birlikdə Cığı dərəsində müsəlmanları qırmışlar".

Ermənilər müsəlman kəndi olan Şabadində və bir neçə başqa kəndlərdə də azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişlər. Andranik Zəngəzurda və digər ərazilərdə yüzdən çox azərbaycanlı kəndini dağıdıb, əhalisini yandırmışdır. Bu qırğınlar Göyçə mahalının Şişqaya, Kiçik Məzrə, Qamışlı, Subatan və digər kəndlərində törədilmişdir.

Müsəlmanların pərakəndə qırğınları ilə kifayətlənməyən erməni daşnakları 1917-ci ilin may ayında Qarsda 35 min nəfərlik qoşun korpusu yaradaraq onları üç diviziyaya böldülər. İrəvanda 20 min əhali qətlə yetirildi. Ətraf rayonlarda 150 kəndin əhalisi qırıldı, damlara doldurulub yandırıldı. Vedi rayonunda ermənilər dəhşətli faciələr törətdilər.

1917-ci ilin iyununda Türkiyə erməniləri Stepan Şaumyanı özlərinə başçı seçdilər. Lenin isə həmin ilin 29 dekabrında dekret qəbul edərək erməniləri müsəlmanlardan müdafiə adı ilə qoşun hissəsi təşkil etməyə şərait yaratdı. Bundan sonra Azərbaycanda, həmçinin Qərbi Azərbaycanda Stepan Şaumyanın göstərişi ilə qanlı faciələr törədildi.

Göyçə mahalını odlara qalayan Silikyanın quldur dəstəsi nəhayət, Basarkeçərin Zod kəndində Səməd Ağanın igidliyi sayəsində son nəfərədək məhv edildi.

29 noyabr 1920-ci ildə sovet ordusunun Ermənistana daxil olması Qərbi azərbaycanlılarda sevinc və ruh yüksəkliyi yaratdı. 1921-ci ilin yaz ayları başlayan kimi doğma yurdlarından didərgin düşmüş qaçqınlar öz vətəninə, kəndlərinə döndülər. Lakin Qərbi azərbaycanlılar ata-baba yurdlarına qayıdana kimi Türkiyədən gəlmiş ermənilər İrəvan şəhərində, Qəmərlidə, Üçkilsədə, Uluxanlıda, Basarkeçər rayonunun kəndlərindəki azərbaycanlıların evlərinə doluşmuşdular. Geri dönən soydaşlarımızın çoxu ermənilər yiyələnən evlərə buraxılmadı.

Ancaq Vedi rayonuna - İrəvan çuxuru adlanan Ağrıdağ düzənliyində yerləşən ərazidə məskunlaşmağa ermənilər cürət etməmişdilər. Çünki Vedi illər boyu erməni vandallarına divan tutmuş Abbasqulu bəyin və onun silahdaşlarının rayonu idi. Ermənilər Abbasqulu bəyin qayıdıb onlardan qisas alacaqlarından qorxurdular.

1948-1952-ci illərdə 150 min azərbaycanlı Ermənistandan, doğma yurdlarından sürgün edildi, nəticədə əhali arasında kütləvi qırğın törədildi. Bu günahsız insanların səfalətə düçar olmasına ermənipərəst İ.Stalin, Molotov və başqaları hökm verirdi.

Erməni daşnakları uydurma Qarabağ məsələsini ortaya ataraq XX əsrin sonlarında yenidən xalqımıza qarşı düşmənçilik mövqeyini nümayiş etdirdilər. "Qızıl Moskva"nın, M.Qorbaçovun satqınlığı ucbatından Qərbi Azərbaycandakı soydaşlarımız 1988-ci ilin sərt qış günlərində ata-baba yurdlarından, qədim Oğuz ellərindən zorla didərgin salındılar.

Artıq 35 ildir ki, Qərbi azərbaycanlılar yurd həsrəti ilə yaşayır, "Arpa çayı", "Bala Göyçə", "Dilican dərəsi" üçün darıxırlar.

2020-ci ildə Vətən müharibəsində cəmi 44 gün ərzində 30 ilə yaxın işğal altında olan torpaqlarımız düşməndən azad edildi, "Dəmir yumruq" Paşinyanın və onun komandasının bel sütununu sındırdı. Tarixi zəfərdən sonra bizim ən böyük hədəfimiz Qərbi Azərbaycana Qayıdışdır.

24 dekabr 2022-ci ildə Prezident cənab İlham Əliyevin Qərbi Azərbaycan ziyalıları ilə görüşü keçirildi. Həmin tədbirdə ölkə başçısı dedi: "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin".

Soydaşlarımızın ata-baba yurduna dönüşü yaxınlaşır. Biz qətiyyətimizlə, gücümüzlə qəribsəmiş yurd yerlərinə qayıdacağıq, haqq-ədalət bizim tərəfimizdədir.

**Qurban İSMAYILOV,**
**Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikasının göz xəstəlikləri şöbəsinin müdiri.**




**Azərbaycan xalqı min illər boyunca öz torpaqlarından deportasiyalara, etnik təmizləmələrə məruz qalıb. 195 il əvvəl, yəni 1828-ci ildən başlayan proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusi amansızlıqlarla həyata keçirilib. Bu proses zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Hazırda Azərbaycan torpaqlarında qurulan indiki Ermənistan dövləti məhz milyonlarla azərbaycanlının qətli, işgəncələrə məruz qalması və dədə-baba yurdlarından deportasiya olunması hesabına ermənilər əhalinin böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyi Lori-Pəmpək, Şörəyal, Zəngəzur qəzalarında və Göyçə mahalında kütləvi qırğınlar törədərək bu yerləri silahlı yolla ələ keçirməyə cəhd etmişlər.**

# Qərbi Azərbaycana qayıdacağımız gün yaxındır

Bundan sonra onlar Qərbi Azərbaycandan soydaşlarımızın izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın etmişlər. Hazırda hər bir Azərbaycan vətəndaşı üçün ən həssas məsələlərdən biri də Qərbi Azərbaycan konsepsiyasının həyata keçirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşündə səsləndirdiyi tezisləri fəaliyyət proqramı kimi qəbul edən İcma üzvləri tarixi torpaqlara, İrəvana, Zəngəzura, Göyçə mahalına qayıtmağın siyasi, hüquqi, ideoloji əsaslarını hazırlamaq üçün praktik addımlar atırlar. Maraqlı cəhətlərdən biri də odur ki, vaxtilə azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan kəndləri indi də boşdur. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda bütün bu faktlar gizlədilib, dünya ictimaiyyəti isə bu məsələlərə laqeydliklə yanaşıb.

Ötən il dekabr ayının 24-də Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının bir qrup nümayəndəsini qəbul edərkən icmanın fəaliyyəti ilə bağlı özünün konseptual fikirlərini səsləndirmişdir. Bu fikirlər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsaslarını təşkil edir. Bir ay müddətində hazırlanan sənəddə son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapıb. Konsepsiya bu il yanvarın 25-də Müşahidə Şurasında təsdiq edilib. Qərbi Azərbaycan İcması tərəfindən yanvarın 26-da qəbul edilmiş Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olmasına xidmət edir. Beynəlxalq hüquqda, konvensiyalarda insanların öz tarixi vətənlərinə, torpaqlarına qayıdış haqqı təsbit olunub. Soydaşlarımızın Qərbi Azərbaycandan çıxarılmasına, etnik təmizləməyə, soyqırımına məruz qalmasına dair çox sayda tarixi sənədlər, faktlar mövcuddur. Beynəlxalq mənbələrdə də bu məqamlarla bağlı faktlar var. Bu səbəbdən, Qərbi azərbaycanlıların qayıdışı tələbi haqlı, ədalətli olduğu qədər də beynəlxalq hüquqa tam uyğundur.

Bu il martın 28-də Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Sənəd BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan), adıçəkilən əsas orqanların gündəliyinin sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin silahlı münaqişələrin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Bu, İcmanın BMT sənədi kimi yayılmış ikinci sənədidir. Bundan əvvəl, yanvar ayında İcmanın beynəlxalq ictimaiyyətə müraciəti yayılmışdı. Qeyd edək ki, beynəlxalq platformada bu məsələnin gündəmdə saxlanılması ölkəmiz üçün vacib əhəmiyyət daşıyır. BMT-də yayılan sənəd göstərir ki, artıq beynəlxalq müstəvidə də işlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu fikirləri söyləmişdi: "Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi deməkdir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməli və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu, bizim legitim hüququmuzdur.

**N.CAVADZADƏ,**
**"Respublika".**



**Bu** *il aprel ayının 11-də Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimizi atəşə tutdu. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatın qarşısı qətiyyətlə alındı, atəş nöqtələri susduruldu və qarşı tərəf xeyli sayda itki verdi. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən üç hərbi qulluqçumuz şəhid oldu, iki nəfər isə əraziyə yaxın yerləşən hərbi tibb müəssisəsindən sanitar aviasiya vasitəsilə peşəkar həkimlərimizin ciddi nəzarəti altında ixtisaslaşdırılmış hərbi tibb müəssisəsinə təxliyə olundu.*

*Vidadi Nizami oğlu Zalov Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsi iştirakçısı, Laçın rayonu istiqamətində erməni hərbi birləşmələrinin törətdiyi bu təxribat nəticəsində şəhid olmuşdur.*

# Ali məqama ucalan hərbi qulluqçumuz

17 iyul 1985-ci ildə Abşeron rayonunun Saray qəsəbəsində anadan olmuş Vidadi 1992-2003-cü illərdə Abşeron rayon Saray qəsəbə 2 saylı tam orta məktəbdə orta təhsil almışdır. 2003-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuş, 2007-ci ildə həmin universitetin maliyyə fakültəsini bitirmişdir. Vidadi Zalov ali təhsil aldıqdan sonra hərbi xidmətə çağırılmış və bir il müddətində Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə Müdafiə Nazirliyinin "Müddətdən artıq həqiqi hərbi xidmət" kurslarına yazılmış, kursları bitirdikdən sonra həqiqi hərbi xidmət qulluqçusu kimi ordu sıralarına qayıtmışdır. Dörd ilə yaxın Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən Vidadi xidmət zamanı fərqləndiyinə görə hərbi hissə rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərman və təşəkkürnamələrlə mükafatlandırılmış, 26 iyun 2018-ci ildə Müdafiə naziri Zakir Həsənov tərəfindən "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu Vidadi Zalov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş və fərqlənmişdir.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Vidadi Zalov "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

11 aprel 2023-cü ildə Ermənistan Silahlı Qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən üzbəüz mövqelərini atıcı silahlardan intensiv atəşə tutmuşdu. Baş verən qarşıdurma nəticəsində Vidadi Zalov döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Şəhid Vidadi Zalov doğulduğu Abşeron rayonunun Saray qəsəbəsində dəfn olunmuşdur.

Ailəli idi, bir oğlu və bir qızı yadigar qaldı.

Onun xatirəsi hər zaman qəlblərdə yaşayacaqdır. Allah şəhidlərə rəhmət eləsin.

**Əli SADIQOV,**
**"Respublika".**




*İkinci Qarabağ müharibəsində minlərlə qeyrətli oğul kimi, Mail Əzizovun şəhidliyi Vətənə, torpağa sevgisindən yarandı. Ömrünün 20-ci ilində canını qurban etdi ki, əzəli yurd yerimiz Qarabağ torpaqları düşmən tapdağında qalmasın, xalqı azad, firavan yaşasın. Qəhrəman Maillər düşməni müharibə meydanında məğlub etməklə, eləcə millətin mənliyini, kimliyini qaytardılar. Mailin də son damla qanına qədər düşmənlə vuruşmağı bundan irəli gəlirdi. Vətən yolunda şəhid olmağı hər şeydən əziz tutdu.*



# Andına sədaqət nümunəsi

2000-ci ilin avqustunda Lənkəran rayonunun Şağlaküçə kəndində dünyaya göz açan Mail Mahir oğlu Vətənə məhəbbət, düşmənə nifrət ruhunda boy atıb 18 yaşına çatır. Qarabağda baş verən qanlı hadisələr Maili çox narahat edir. Odur ki, orta məktəbi əla qiymətlərlə başa vursa da, hər şeyi bir yana qoyub Vətənin qisasını almaq niyyəti ilə əsgərliyə yola düşəndə evdə deyir: - Dığalar əzəli Azərbaycanımıza məxsus müqəddəs yerləri zəbt ediblər. İndiki vaxtda Vətənə sipər, düşmənə yerini göstərən qeyrətli igidlərə ehtiyac vardır. Yağıya qalib gələndən sonra oxuyub ali təhsil alacağam...

Mail Əzizov cəbhə bölgəsində əlinə silah alıb Vətəninə keşik çəkir. Bu yolda canından keçməyə hazır olan igid əsgər bir neçə dəfə dığalarla üz-üzə gəlir, onların payını layiqincə verə bilir. Həm də Mail döyüş keyfiyyətlərini artırmaq üçün təlimlərdən qalmır, Vətən torpaqlarının azadlığı naminə hərbin sirlərinə mükəmməl yiyələnir. Nizam-intizamı, cəsurluğu, tapşırıqları yerinə yetirdiyi vaxt çevikliyi ona ehtiram qazandırır. Bir sözlə, layiqli bir övlad olaraq Vətənə borcunu şərəflə verməyi bacarır. Və onun qisasını düşməndən döyüş meydanında alacağına and içir.

Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Mail Əzizov ön cəbhədə vuruşur. Şücaət göstərməklə neçə-neçə ağır sınaqlardan üzüağ çıxır. Odlu-alovlu səngərlərdə erməni dığalarına qan qusdurur. Mail kimi oğlanların qəhrəmanlığı sayəsində kəndlərimiz, rayonlarımız bir-bir azad olunur. Oktyabrın 2-də Şuşa şəhəri istiqamətində daha ağır müharibə gedir. Düşmən məğlub olsa da, qəfil atılan artilleriya nəticəsində igid əsgər şəhid olur.

Ləyaqətli, örnək sayılan əbədi bir ömür qazanan Mail Əzizov ölümdən sonra "Vətən uğrunda", "İgidliyə görə" və başqa medallara layiq görülür.

**Z.ORUCOĞLU.**

*Ağstafa*

# Mənəvi borcumuz

**Ağstafanın Xətai kəndindən olan Elşad Həsənovun şəhidlik zirvəsinə ucalmasının yeddinci günündə ailəsi ziyarət olunub. Ziyarətdə Ağstafa RİH başçısı Seymur Orucov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.**

Vətən oğlunun keçdiyi şərəfli ömür yolundan söz açaraq bildiriblər ki, Elşad hər zaman doğma yurduna məhəbbəti, müqəddəs torpaqlarımıza bağlılığı ilə, mərdliyi ilə seçilib. Məhz bu xüsusiyyətlər onu Azərbaycan Ordusu sıralarında Vətəninə qürurla, əsl qəhrəman kimi xidmət etməyə vadar etdi. O, həm də 44 günlük Vətən müharibəsinin iştirakçısı olub.

Qeyd olunub ki, Elşad Həsənov da şəhidlik zirvəsini fəth edərək di-



gər Vətən oğullarımız kimi, hər bir azərbaycanlının ən böyük qürur mənbəyinə çevrildi və o, qəlblərdə daim yaşayacaqdır. Şəhidimizin ailə üzvləri dövlətimiz tərəfindən hər cür diqqət və qayğı ilə əhatə olunacaqlar. Eyni zamanda şəhidlərimizin döyüş meydanında göstərdikləri qəhrəmanlıq nümunəsindən bəhs olunaraq bildirilib ki, 11 aprel 2023-cü il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Laçın rayonu istiqamətində törədilən növbəti təxribatın qarşısı hərbçilərimizin sayıqlığı nəticəsində bu dəfə də qətiyyətlə alınıb, ordumuz tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində düşmən xeyli sayda itki verib. Şəhidlərimizin intiqamı layiqincə alınıb.

Şəhidlərimizin ruhuna dualar oxunub, əziz xatirələri dərin ehtiramla anılıb.

Şəhid Elşad Həsənovun valideynləri Prezident, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq bildirmişlər.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Vəli VƏLİYEV,**
**"Respublika".**





# Xalq öz qəhrəmanlarını unutmur

**Dağlar diyarı Lerikin Kələxan kəndində dünyaya göz açan Əliqismət Mükafat oğlu Yaqublu Azərbaycan Ordusunun 44 günə zəfərlə başa çatdırdığı İkinci Qarabağ müharibəsində Vətən torpaqlarını erməni işğalından azad etməsində qəhrəmanlıq dastanı yazan igidlərdəndir. Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı olan bu Vətən sevdalısı 5 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən ağır döyüş meydanında son damla qanına qədər vuruşub. 28 yaşında müqəddəs şəhidlik zirvəsinə ucalıb. Şərəfli ölümü Vətəninə, millətinə başucalığı gətirən Əliqismət Yaqublu milyonların ürəyinə köç etməklə əbədi bir həyat qazanıb.**

Lerikin qartal balası ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən müharibəsi iştirakçısı", "Şücaətə görə", "Vətən uğrunda", Cəbrayılın, Füzulinin, Şuşanın, Xocavəndin, Kəlbəcərin azadlığına görə medalları ilə təltif edilib.

Əliqismət Yaqublunun həyat yolu bütün leriklilər üçün örnəkdir. Hər yerdə, hər zaman onun adını böyük ehtiramla çəkirlər. Burada onun xatirəsini yaşatmaq üçün lazımi işlər görülüb. Hər il olduğu kimi, yenə də doğum gününə leriklilər qürur hissi ilə gəlmişdilər. Doğma kəndi Kələxanda müqəddəs məzarı ziyarət olundu, önünə təzə gül-çiçək düzüldü.

Onun haqqında söz düşəndə bildirildi ki, Əliqismət Vətəninə, torpağına bağlı cəsur, mərd bir oğul idi. Müharibədə göstərdiyi şücaətlə bir daha bizlərə Vətəni necə sevməyi öyrətdi. Aramızdan vaxtsız-vədəsiz getsə də, gələcək nəsillərimiz üçün örnək olacaq bir qəhrəmanlıq nümunəsini qoydu.

Şəhidin atası Mükafat Yaqublu xalqına minnətdarlıq edib dedi: - Torpaq yolunda şəhid olan oğlanların çiynində Vətən olur. Əliqisməti də şəhidlik zirvəsinə ucaldan bu amal oldu. Oğlum şəhid olana qədər təkcə mənim idi... İndi isə bütün xalq onu özünə iftixar bilir.

**Z.ORUCOĞLU.**

# Xatirələrdə yaşayan baş leytenant



**Lənkəran elinin mərd oğlu, Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı Ehtiram Hüseynli İkinci Qarabağ müharibəsində Vətən torpaqlarının azadlığı naminə son damla qanına qədər döyüşüb şəhidlik zirvəsinə ucalır. Dövlət tərəfindən şəhidin qəhrəmanlığı "İgidliyə görə", "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azad olunmasına görə medallarına layiq görülür.**

Bu günlərdə şəhidin doğum gününü də böyük qürurla qeyd etdilər. Belə ki, 46 yaşının tamamında Lənkəran Şəhər İcra Hakimiyyətin əməkdaşları, ictimaiyyət nümayəndələri, sadə camaat onun uyuduğu torpağının ziyarətinə gəlib, məzarına gül dəstələri düzdülər. Sonra ziyarətçilər qəhrəmanın boya-başa çatdığı ata ocağında ordumuzun qazandığı şanlı qələbədən, Ehtiram kimi qeyrətli oğulların müharibə zamanı göstərdikləri igidlikdən danışdılar. Bir daha bildirildi ki, Vətən yolunda şəhid olanlar ölmürlər. Bizim Ehtiram cismən aramızda olmasa da, mənən qəlbimizdə yaşayır. Onun müqəddəs ruhu ən uca zirvələrdə dolaşır. Məlumat üçün bildirək ki, Ehtiram Həsən oğlu Hüseynli 1977-ci ildə Lənkəran şəhərində anadan olub. Şəhər 6 saylı məktəbi bitirdikdən sonra, yəni 1994-1998-ci illərdə N.Tusi adına Azərbaycan Pedaqoji Universitetində İlkin Hərbi və Fiziki Təlim fakültəsində oxuyur. Ali məktəbi yüksək savadla başa vurub bir müddət elə doğma məktəbində gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur, onlara Gənclərin Çağırışaqədərki Hazırlığı fənnindən dərs deyir. 2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Ordubad rayonunda yerləşən hərbi hissədə Vətəninin xidmətində dayanır. Leytenant rütbəsindən baş leytenant rütbəsinə qalxır. Xidməti bitirib, yenidən doğma məktəbə qayıdır...

İkinci Qarabağ müharibəsində baş leytenant Ehtiram Hüseynli Vətənin çağırışına könüllü yollanır. Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən ağır döyüşlərdə qəhrəmanlıq göstərir. Oktyabrın 21-də son dəfə döyüş meydanına girir və çoxlu sayda erməni dığasını məhv edir.

Ehtiram Hüseynlinin özündən sonra canından üstün tutduğu Vətəninə, xalqına əmanət qoyduğu Həsən adlı oğlan övladı var.

**Zəfər ORUCOĞLU.**

# Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olanlara və digər imtiyazlı şəxslərə daha 100 mənzil və fərdi ev verilib







**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən MİDA-nın Hövsan Yaşayış Kompleksində və Abşeron, Tərtər, Goranboy, Ucar və Zərdab rayonlarında daha 100 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə, həmçinin digər imtiyazlı şəxslərə (gözdən əlilliyi olan şəxslər, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər və s.) təqdim edilib.**

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli tədbir iştirakçılarını qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edib.

Nazir müavini şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlərlə təminatı proqramına ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə başlanıldığını vurğulayıb.

Qeyd olunub ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində ötən dövrdə 124 min şəxsə 281 min xidmət göstərilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində mənzil, fərdi evlə təminat proqramı 5 dəfə genişlənib. 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur.

Bu gün təqdim olunan mənzil və fərdi evlər də daxil olmaqla 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4660, bu il üzrə 160, ümumilikdə ötən dövrdə isə 13460 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına uyğun olaraq 2023-cü ildə də ən azı 1500 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlarımıza veriləcək.

Yeni mənzillərlə təmin edilən vətəndaşlar daim dəstəklə əhatə olunduqları, həmçinin yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**M.KAMAL,**
**"Respublika".**







## 3 milyard 310,6 milyon manatlıq ÜDM istehsal olunub

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-mart aylarında ölkədə 3310,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,4 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,9 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 4,9 faiz artmışdır. ÜDM istehsalının 47,5 faizini sənaye, 9,0 faizini ticarət, nəqliyyat vasitələrinin təmiri, 5,4 faizini nəqliyyat və anbar təsərrüfatı, 5,0 faizini tikinti, 2,6 faizini kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,9 faizini turistlərin yerləşdirilməsi və s. sahələr təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 2991,2 manata bərabər olmuşdur.

## Əsas kapitala 3 milyard 523,1 milyon manat vəsait yönəldilib

Yanvar-mart aylarında əsas kapitala 3523,1 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 40,3 faiz çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 23,8 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 51,7 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 1941,3 milyon manatı və ya 55,1 faizi məhsul istehsalı sahələrinə, 1396,5 milyon manatı (39,6 faizi) xidmət sahələrinə, 185,3 milyon manatı (5,3 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2577,3 milyon manatını və ya 73,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2517,5 milyon manatı və ya 71,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## 155 ölkə ilə ticarət əməliyyatları

2023-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 155 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 84 ölkəyə məhsul ixrac olunmuş, 149 ölkədən idxal olunmuşdur. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-fevral aylarında ölkənin xarici ticarət dövriyyəsi 8 milyard 370,7 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 5 milyard 719,7 milyon dollarını və ya 68,3 faizini ölkədən ixrac olunmuş məhsulların, 2 milyard 651,0 milyon dollarını (31,7 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 3 milyard 068,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

## İstehlakçılara 13 milyard manatlıq ərzaq və qeyri-ərzaq məhsulları satılıb

Cari ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 13 milyard manatlıq, o cümlədən 7,4 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 5,6 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,0 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,1 faiz, qeyri-ərzaq malları üzrə 4,1 faiz artmışdır.

**"Respublika".**

# Pambıqçılıq rayonlarında çiyid səpininə start verilib



Azərbaycanın ənənəvi əkinçilik sahələrindən biri də pambıqçılıqdır. Hazırda isə pambıqçılıq rayonlarında çiyid səpininə start verilib. Səpin ərəfəsində Kənd Təsərrüfatı Nazirliyinin, pambıqçılıq rayonları Dövlət Aqrar İnkişaf Mərkəzlərinin, pambıq tədarükü və emalı şirkətlərinin iştirakı ilə çoxsaylı görüşlər keçirilib, sahənin inkişafı ilə bağlı hədəflər müəyyənləşdirilib. Onların həlli məqsədilə Nazirliyin müvafiq qurumları tərəfindən tədbirlər planı hazırlanıb, bu tədbirlərin aidiyyəti üzrə icraçıları və müddətləri müəyyən edilib.

Nazirliyin mətbuat xidməti bildirir ki, aprelin 17-dək respublika üzrə pambıq emalı və tədarükü şirkətləri tərəfindən 15434 mülkiyyətçi ilə 92 min hektar sahədə pambıq istehsalı məqsədilə müqavilə bağlanılıb və həmin sahələrin 90 min hektarında şum işləri aparılıb. Müqavilələrin bağlanması prosesi davam edir. Qeyd olunur ki, aprelin ikinci ongünlüyündə pambıq tarlalarında çiyid səpininə başlanılıb və artıq 17.7 min hektar sahədə səpin həyata keçirilib.

Nazirliyin əməkdaşları ölkənin aparıcı pambıqçılıq rayonlarından olan Sabirabadda çiyid səpininin gedişi ilə tanış olublar. Bu il Sabirabad rayonunda pambıq emalı və tədarükü şirkətləri 2655 fermer ilə 11400 hektar sahədə pambıq əkininə dair müqavilə imzalayıblar. Əkin aparılacaq bütün sahələrdə şum işləri artıq başa çatıb və 2.0 min hektara yaxın sahədə isə çiyid səpini həyata keçirilib.

Qeyd edək ki, 2022-ci il pambıqçılıq mövsümündə sahələrdən 322300 ton pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Pambıq üzrə orta məhsuldarlıq hər hektardan 30,92 sentner təşkil edib ki, bu da bir il əvvəlki mövsümlə müqayisədə 2,42 sentner artıqdır. 2022-ci ildə bir il əvvəllə müqayisədə sahələrdən 35259 ton artıq məhsul yığılıb.

Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2022-ci ildə tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə fermerlərə 170 manat məhsul subsidiyası ödənilib. Şuranın qərarı ilə 2023-cü il mövsümündə fermerlərə təhvil verəcəkləri pambığın hər tonuna görə 180 manat məhsul subsidiyası ödəniləcək.

2022-ci ildə pambıq tədarükü və emalı müəssisələri məhsulun fermerlərdən alış qiymətinin artırılmasına dair iki dəfə qərar qəbul ediblər. Xam pambığın alış qiyməti hər tona görə mövsümün əvvəlində 50 manat və yığım ərəfəsində də 50 manat olmaqla ümumilikdə 100 manat artırılıb. 2022-ci ildə pambığın fermerlərdən alış qiyməti 1-ci növ üçün 800 manat, 2-ci növ üçün 780 manat, 3-cü növ üçün 740 manat, 4-cü növ üçün isə 700 manat olaraq müəyyənləşib.

**Nəriman CAVADOV,**
**"Respublika".**




**İqtisadiyyatın aparıcı sahələrindən birini də dövlət əmlakının özəlləşdirilməsi və ya icarəyə verilməsi təşkil edir. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti bildirir ki, dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi, hərracların təşkili sahəsində işləri davam etdirir.**

# İlin ilk rübündə dövlət əmlak göstəriciləri




***Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2023-cü ilin ilk üç ayında özəlləşdirmə və icarədən dövlət büdcəsinə 26,5 milyon manat vəsaitin ödənilməsi təmin edilib***

Xidmət dövlət əmlakının özəlləşdirilməsi məqsədilə 2023-cü ilin yanvar-mart ayları ərzində 11 hərrac keçirib. Hərraclarda 2 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 1 yarımçıq tikili sahəsi, 162 nəqliyyat vasitəsi özəlləşdirilib. Bu dövrdə hərraca çıxarılmış dövlət əmlakı üzrə 112 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 21 onlayn qoşulma reallaşıb. Hərrac vasitəsilə 6 faydalı qazıntı yatağı sahibkarların istifadəsinə verilib.

Cari ilin yanvar-mart ayları ərzində özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 18,6 milyon manat təşkil edib. Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2023-cü ilin ilk rübündə dövlət əmlakının icarəyə verilməsi ilə bağlı 631 yeni icarə müqaviləsi bağlanılıb. Bunlardan 150-si qeyri-yaşayış, 481-i isə torpaq sahələri üzrə olub.

Daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən cari ilin yanvar-mart ayları ərzində dövlət büdcəsinə 7,9 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Beləliklə, bu ilin yanvar-mart ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən ümumilikdə, 26,5 milyon manat vəsait büdcəyə daxil olub.

**N.ƏHMƏDOĞLU,**
**"Respublika".**

**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Sahibkarlar Gününün təsis edilməsi haqqında" 2016-cı il tarixli Sərəncamına əsasən, aprelin 25-i artıq 7 ildir ki, Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilir.**



**25 Aprel Sahibkarlar Günüdür**

# İş adamlarına dövlət qayğısı artır

Sahibkarlar Gününün təsis olunması ölkənin sosial-iqtisadi inkişafına, məşğulluğun təmin olunmasına, həmçinin sahibkarlığın, xüsusən də qeyri-neft sektorunun inkişafına Prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğının bariz nümunəsidir. Həmin dövrdən öncə də Azərbaycan planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçid prosesində xeyli inkişaf yolu keçib. Ümumiyyətlə, Azərbaycanda sahibkarlığın inkişafı ən mühüm məsələlərdən olub. Daxili bazarın güclənməsi, xarici siyasətə də böyük təsir göstərir. Azərbaycanın istehsal etdiyi ipək, pambıqçılıq nümunələrinə görə regionda tayı-bərabəri yoxdur. Bu gün dövlət sektoru ilə yanaşı, özəl sektora dəstək milli prioritetimizdir. Bu sahədə həyata keçirilən islahatlar isə hələ ulu öndər Heydər Əliyevin hakimiyyət dövründən başlayıb. Maliyyə sahəsində göstərilən dəstəyin və qanunvericilikdə sahibkarlarla bağlı müsbət yönümlü qanunların icra edilməsi sayəsində kiçik və orta sahibkarlar üçün münbit mühit yaradılıb. Ulu öndərin Sərəncamı ilə qəbul edilən, 1993-1995 və 1997-2000-ci illəri əhatə edən iki Dövlət Proqramının icrası istiqamətində əhəmiyyətli tədbirlər görülüb. Əlavə dəyər vergisi dərəcələri, məcburi sığorta haqqı aşağı salınıb, kiçik sahibkarlıq subyektlərinin bir hissəsinə vahid vergi tətbiq edilib. Həmçinin özəl sektora zəruri texniki yardım - məsləhət, informasiya və s. xidmətlər göstərən strukturlar yaradılıb. Bu sayədə minlərlə vətəndaş, sahibkar öz sektorunda inkişaf edib, dünyaya açılıb.

Ötən əsrin sonlarında ulu öndər sahibkarlarla bağlı bir sıra problemləri ortadan qaldırmaq məqsədilə fərmanlar verib. Buraya 1996-cı il 17 iyun tarixli "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", 1999-cu il 7 yanvar tarixli "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərmanları aiddir. Bütün maneələrin ortadan qaldırılmasına xidmət edən tədbirlər nəticəsində ölkədə inflyasiya azalıb, büdcə kəsiri ÜDM-in 1-2 faizi səviyyəsinə enib. Bunun nəticəsidir ki, həmin illərdə dərin iqtisadi böhran keçirən ölkədə makroiqtisadi sabitliyə nail olunub və dinamik inkişafı təmin etmək mümkün olub.

Həmin illərdə Heydər Əliyevin atdığı addımlar, qəbul etdiyi fərmanların nəticəsidir ki, 2002-ci ildə ölkədə ÜDM-in 71 faizi özəl bölmənin payına düşüb. Ulu öndərin 2002-ci il aprelin 25-də iş adamları ilə görüşü baş tutub. Həmin görüşdə qazanılan nailiyyətlər barədə Heydər Əliyev məlumat verib: "İqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycan iqtisadiyyatının inkişafını təmin edən amildir". Bu görüşdən sonra Heydər Əliyev bir sıra göstəriş və fərmanlar verib, müəssisələrin vergi borcları, özəlləşmədən olan borclar bağışlanılıb. 2002-ci ilin sentyabrında imzalanmış "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", "Azərbaycan Respublikasının yanında Sahibkarlıq Şurasının yaradılması", "Sahibkarlara Kömək Milli Fondunun yaradılması" və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanlar sahibkarlığın inkişafında çox böyük rol oynadı.

Atılan bütün addımlar ulu öndərin və Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi sahibkarlığın inkişaf modelini formalaşdırıb, dövlətlə sahibkarlar arasında münasibətləri institusional səviyyədə tənzimləyib.

Hazırda sahibkarlıq sahəsində mühüm işlər görülür. Kiçik və orta sahibkarlığın inkişafında atılan addımların, dövlət qayğısının önəmi regionda Azərbaycanın fərqini bir daha ortaya qoyur. Sahibkarlar hazırda bir çox banklardan rahatlıqla kredit götürə bilir. Ulu öndərin layiqli davamçısı onun qoyub getdiyi siyasəti daha da gücləndirərək davam etdirir. Prezident İlham Əliyevin də bu sahə üzrə bir çox fərman və sərəncamları, hökumətin müvafiq qərarları ilə sahibkarlıq fəaliyyəti üçün hüquqi prosedurlar daha da sadələşdirilib, lisenziya və icazələrin sayı azaldılıb.

Bu vaxta qədər Sahibkarlara Kömək Milli Fondu tərəfindən xeyli sayda yeni müəssisələrin, təsərrüfatların yaradılması, on minlərlə yeni iş yerinin açılması üçün yüzlərlə sahibkara güzəştli kredit verilib. Dövlətin dəstəyi, eləcə də vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi və digər stimullaşdırıcı tədbirlərin görülməsi sahibkarlar üçün necə deyərlər, dənizə düşən üçün xilasedici gödəkcə rolunu oynayır.

Ulu öndərin dövründən başlayaraq özəl sektora göstərilən dövlət dəstəyi bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sahibkarlıq sahəsində lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, investisiyanın təşviqi, sahibkarların şikayətlərinə daha həssas yanaşılması məqsədilə Apellyasiya Şuralarının yaradılması özəl sektorun inkişafı üçün böyük imkanlar açıb.

Buna əsasən, Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin yeni bölgü sistemi aparılıb. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin açıqladığı məlumata əsasən isə 2021-ci ilin 1 yanvar tarixinə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin 92,1 faizini mikro, 5,3 faizini kiçik, 2,1 faizini isə orta sahibkarlıq subyektləri təşkil edir. Hazırda ölkədə kiçik, orta və iri sahibkarlar ticarət, kənd təsərrüfatı, xidmət, tikinti, emal sənayesi, nəqliyyat və s. sahələrdə fəaliyyət göstərirlər.

Son illərdə sahibkarlıqla bağlı atılmış ən böyük addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən olan "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" prioritetinin əsas məqsədlərindən biri də məhz sahibkarlığın inkişafının stimullaşdırılması və dayanıqlı inkişafın hərəkətverici qüvvəsinə çevrilməsidir. Buna əsasən, hazırda 2021-2025-ci illər üzrə hədəf və prioritetlərin müəyyənləşdirilməsi üçün müvafiq işçi qrupu çərçivəsində intensiv iş aparılır.

**Töhfə SƏMƏDOVA,**
**"Respublika".**



# SOSİAL HƏYAT






## Tərtər rayonunun Talış kəndində Ailə Sağlamlıq Mərkəzi fəaliyyətə başlayıb

**Tərtər rayonunun işğaldan azad edilən Talış kəndində Ailə Sağlamlıq Mərkəzi (ASM) fəaliyyətə başlayıb.**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) AZƏRTAC-a verilən məlumata görə, Ailə Sağlamlıq Mərkəzi TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun əmri ilə qurumun tabeliyində fəaliyyət göstərən Tərtər Rayon Mərkəzi Xəstəxanasının nəzdində yaradılıb.

Mərkəzin binası təmirdən sonra istifadəyə verilib və beş otaqdan ibarətdir. Müəssisə bütün zəruri tibbi avadanlıqlar və vasitələrlə təmin edilib. Eyni zamanda, ASM-də təcili və təxirəsalınmaz tibbi yardım xidməti təşkil edilib, ambulansla təchiz olunub.

Tibb müəssisəsində Tərtər Rayon Mərkəzi Xəstəxanasından ezam olunan 16 nəfər (tibb və qeyri-tibb) növbəlilik əsasında xidmət göstərəcək. Hər növbədə həkim, tibb bacısı, sürücü və xadimə 24 saat fasiləsiz vətəndaşların xidmətində olacaq. ■



Qələbəni bizə yaşadanları YAŞAT

## “YAŞAT” Fonduna ayrılan vəsait yalnız müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün sərf olunacaq

Aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) maliyyə dəstəyi haqqında Sərəncam imzalanıb. Sərəncama əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin və dövlət orqanlarının (qurumlarının) işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onların nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş əməkdaşlarının və ya həlak olmuş əməkdaşların ailə üzvlərinin müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "YAŞAT" Fonduna 5 milyon manat vəsait ayrılıb.

Həmin vəsait Sərəncamda da əks olunduğu kimi müvafiq kateqoriyadan olan şəxslərin yalnız müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün sərf olunacaq.

AZƏRTAC xəbər verir ki, bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov jurnalistlərə açıqlamasında deyib.

E.Hüseynov bildirib ki, bu günədək Fondun hesabına 77 milyon 604 min 685 manat 53 qəpik vəsait mədaxil olub. Fondun fəaliyyət istiqamətləri üzrə 76 milyon 13 min 55 manat 13 qəpik məbləğində vəsait xərclənib. ■





*İmişli*

## "Qarabağ" adı hər sahədə qalibdir

**Uzun müddət istifadəsiz qalmış və idman yarışları keçirilməmiş Heydər Əliyev adına İmişli Şəhər Stadionu əsaslı təmirdən sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində öz fəaliyyətini yenidən bərpa etdi.**

Təmirdən sonra ilk olaraq "İmişli FK" futbol komandası "Qarabağ 2" futbol klublarının yarışına evsahibliyi etdi. Futbol yarışının keçirildiyi açılış mərasimində İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, millət vəkili Razi Nurullayev, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının sədri Səfa Ağayev, rayon prokuroru Valeh Səmədov icra aparatının rəsmiləri, ziyalılar, ağsaqqallar, rayon ictimaiyyətinin nümayəndələri, veteran və gənc idmançılar iştirak edirdi.

Tədbirdə Dövlət Himni səsləndirildi. Ulu öndərin və Vətənin azadlığı, suverenliyi, torpaqlarımızın bütövlüyü və toxunulmazlığı yolunda canını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Açılış mərasimində çıxış edən icra başçısı Elçin Rzayev, şəhər stadionunda aparılan əsaslı təmir işlərindən sonra buranın yarışlar üçün yararlı vəziyyətə gətirilməsi haqqında məlumat verdi. Eyni zamanda sözügedən ərazidə digər lazımi təmir-bərpa işlərinin də aparıldığını diqqətə çatdırdı.

Millət vəkili R.Nurullayev, Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının sədri S.Ağayev çıxışlarında ulu öndər Heydər Əliyevin Vətən və xalqımız qarşısındakı misilsiz xidmətlərindən ətraflı söhbət açdılar. Ümummilli liderin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər.

Sonra futbolsevərlər "İmişli FK" və "Qarabağ 2" komandalarının görüşünü izlədilər. Gərgin mübarizə şəraitində keçən yarışda "Qarabağ 2" futbol komandası həlledici oyunda rəqib komandaya 1:0 hesabı ilə üstün gələrək qalib oldu.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

## Azərbaycanda audit: təşəkkülü, inkişafı və perspektivləri

Ölkəmizdə 90-cı illərin ortalarından həyata keçirilən iqtisadi islahatlar və idarəetmənin təkmilləşdirilməsi, xəzinədarlıq sisteminin yaradılması, nazirlik, komitə və digər mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş, iqtisadi sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin məhdudlaşdırılması və yoxlamalarla məşğul olan müvafiq qurumların ləğv edilməsi, dövlət orqanlarına onların öz səlahiyyətlərinə aid olmayan yoxlamalar aparılmasının qadağan olunması, eləcə də bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirlər ölkədə beynəlxalq standartlara cavab verən maliyyə nəzarəti sisteminin qurulması və inkişafı üçün zəruri şərait yaradırdı.



Bununla da maliyyə nəzarətinin geniş yayılmış və mütərəqqi forması olan auditin (auditor xidmətinin), dünya təcrübəsində olduğu kimi, Azərbaycanda da tətbiqi həyati tələbata döndü. Audit, hər şeydən əvvəl müstəqil (kənar) nəzarət olduğu üçün auditor yoxlamasının nəticələrindən asılı olanların heç bir müdaxiləsi və ya təzyiqi olmadan təsərrüfat subyektlərində maliyyə hesabatlarının mötəbərliyini daha obyektiv və düzgün müəyyənləşdirməyə, bunun əsasında isə cəmiyyətdə maliyyə şəffaflığını təmin etməyə, tərəflər arasında maliyyə münasibətlərini və vergiqoymanı düzgün qurmağa imkan verir. Məhz buna görə də cəmiyyətdə peşəkar auditə tələbat durmadan artır və bu, bir tərəfdən, sahibkarlığın və kapital bazarının özünütənzimləmə meylinin inkişafı ilə bağlıdırsa, digər tərəfdən isə dövlətin özünün də auditdə marağının olması ilə əlaqədardır.

1993-cü ildə ölkədə hərbi-siyasi vəziyyətin o qədər də ürəkaçan olmadığı, iqtisadiyyatda hökm sürən tənəzzülün qarşısını almaq və onun inkişafını dövlət başçısının qətiyyətlə bəyan etdiyi bazar münasibətləri müstəvisinə keçirmək üçün ilkin-müqəddəm şərtlərin, bütövlükdə isə siyasi-iqtisadi sabitliyin hələ tam təmin edilmədiyi bir vaxtda "Auditor xidməti haqqında" Qanun layihəsi parlamentin müzakirəsinə çıxarılaraq qəbul olundu. 1994-cü il sentyabrın 16-da Qanunun ölkə Prezidenti tərəfindən imzalanması ümummilli liderimiz Heydər Əliyevin demokratik dünya dəyərlərinə sadiqliyinin, bazar iqtisadiyyatına keçidin reallaşdırılması istiqamətində rəhbər qətiyyətinin və bazar infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürü idi.

1996-cı il aprelin 4-dən fəaliyyətə başlayan Azərbaycan Respublikasının Auditorlar Palatası da ötən illər ərzində milli audit sisteminin normativ-hüquqi bazasının formalaşması sahəsində xeyli iş görmüşdür. Beləliklə, iyirmi yeddi il ərzində Azərbaycanda auditor xidmətini mütərəqqi dünya təcrübəsinə uyğun şəkildə təşkil etmək və tənzimləmək, milli audit sisteminin perspektiv inkişafını təmin etmək üçün mükəmməl qanunvericilik və normativ-hüquqi baza yaratmağa nail olunmuşdur.

Ölkə qanunvericiliyinə görə, auditor fəaliyyəti sahibkarlığın xüsusi razılıq (icazə) tələb edən bir növüdür və Azərbaycan Respublikası ərazisində auditor fəaliyyəti göstərmək üçün icazənin verilməsi Auditorlar Palatasının səlahiyyətlərinə aid edilmişdir. Eyni zamanda, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununa görə, auditor adı almaq, yəni auditor fəaliyyəti göstərmək hüququ verən icazəni əldə etmək üçün fiziki şəxslər müəyyən olunmuş qaydada imtahan verməlidirlər.

Auditorlar Palatası auditor adı almaq üçün imtahanların təşkili və keçirilməsinə kadr hazırlığı sahəsində fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi baxır. Yeri gəlmişkən, burada "hazırlıq" ifadəsi o mənada işlədilir ki, auditor adı almaq üçün imtahanların təşkili və keçirilməsi, sadəcə olaraq, müəyyən sayda iddiaçıdan ərizələr toplandıqdan sonra, təyin olunmuş vaxtda imtahan komissiyasının üzvləri ilə imtahan verənlərin üz-üzə oturub konkret mövzular ətrafında sual-cavab etməsi və yekunda cavabların qiymətləndirilməsi prosesindən ibarət olmur. Ümumiyyətlə, praktikada belə bir yanaşma da əsla mümkün deyildir. Səbəbi də budur ki, əvvəla, ölkənin ali təhsil müəssisələrində müvafiq ixtisasa yiyələnənlərin səviyyəsi yenidən hazırlıq keçmədən auditor fəaliyyəti ilə məşğul olmaq üçün praktik tələblərə cavab vermir, digər tərəfdən isə qanunvericiliyə görə, auditor hüququnu əldə etmək üçün sadəcə, ali təhsil diplomuna malik olmaq yox, mühasibat uçotu, maliyyə, iqtisadçı və hüquqşünas ixtisaslarından biri üzrə ali təhsilə və ixtisas üzrə azı üç il iş stajına malik olmaq tələb edilir.

Palata, həmçinin auditor kadrlarının peşə-ixtisas səviyyəsinin təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır və bu sahədə işin ən müxtəlif forma və metodlarından istifadə edir. O cümlədən Palatanın özündə xüsusi proqram əsasında auditorlar üçün ixtisasartırma kursları təşkil olunur, beynəlxalq və regional təşkilatların humanitar yardım proqramları çərçivəsində Azərbaycandan və onun hüdudlarından kənarda, habelə beynəlxalq və regional audit qurumlarının dünyanın müxtəlif guşələrində keçirdiyi təlim kurslarında auditorların və audit mütəxəssislərinin iştirakı təmin olunur.

Auditorlar Palatası özünün beynəlxalq əlaqələr üzrə fəaliyyətinə - beynəlxalq və regional peşə qurumlarında təmsilçiliyə, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə də məhz mütərəqqi xarici audit təcrübəsinin öyrənilməsi, milli kadrlara çatdırılması və yerli xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə tətbiq edilməsi baxımından yanaşır. Auditorlar Palatası 40-dan artıq ölkənin audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokolları və memorandumlar imzalamış və bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropanın Mühasiblər və Auditorlar Federasiyası (EFFA) kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tamhüquqlu üzv qəbul olunmuşdur. Eyni zamanda, Avrasiya regionu ölkələrinin peşəkar mühasibatlıq və audit qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi, onların fəaliyyətlərinin koordinasiyası, mühasib və auditor peşəsinə olan ictimai etimadın yüksəldilməsi məqsədilə 2021-ci ildə yaradılmış, ictimai əsaslarla fəaliyyət göstərən "Avrasiya Mühasiblər və Auditorlar Qrupu"na Azərbaycan Respublikasının Auditorlar Palatası üzv qəbul edilmişdir. Sevindirici haldır ki, 2023-cü il fevralın 14-də Rusiya Federasiyasının "Sodrujestvo" Auditor Təşkilatları Assosiasiyasının təşkilatçılığı ilə onlayn formatda baş tutan tədbirdə yekdilliklə Auditorlar Palatasının sədri Avrasiya Mühasiblər və Auditorlar Qrupunun sədri seçilmişdir.

Palata yerli qurumlarla da səmərəli əməkdaşlığa böyük əhəmiyyət verir. Əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə indiyədək ölkəmizin 20-dən artıq dövlət qurumları, təhsil müəssisələri və peşəkar qurumları ilə əməkdaşlıq haqqında saziş, protokol və anlaşma memorandumu imzalanmış, onların iştirakı ilə mühüm əhəmiyyətə malik bir sıra beynəlxalq elmi-praktik konfranslar, regional seminar-müşavirələr və simpoziumlar keçirilmişdir.

Auditorlar Palatasının təşəbbüsçüsü və təşkilatçılarından biri olaraq 1996-2022-ci illərdə ölkə daxilində və beynəlxalq əhəmiyyətli çoxsaylı mötəbər tədbirlər keçirilmişdir.

Azərbaycanda auditor xidmətləri bazarının inkişafı ölkədə bazar münasibətlərinə keçidin əsaslarını müəyyən edən və iqtisadi-maliyyə fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, iqtisadi həyatın ayrı-ayrı sahələrini əhatə edən düşünülmüş islahatların və struktur dəyişikliklərinin reallaşdırılması azad sahibkarlığa və vətəndaş təşəbbüskarlığına geniş meydan verilməsi, investisiya fəallığının gücləndirilməsi üçün dövlət səviyyəsində ardıcıl tənzimləmə tədbirlərinin həyata keçirilməsi ilə başlanmışdır. Auditorlar Palatasının yaradılması, auditor fəaliyyəti ilə məşğul olan sərbəst auditorların və auditor təşkilatlarının, xarici auditor təşkilatları filial və ya nümayəndəliklərinin Auditorlar Palatasından icazə alaraq fəaliyyətə başlaması da məhz bu dövrə təsadüf etmişdir. Fəaliyyətinin ilk dövründə Auditorlar Palatası Əsasnaməsində göstərildiyi kimi, auditor xidmətlərinin göstərilməsi ilə məşğul olmuş, respublika ərazisində auditor fəaliyyətinin daha rəvan inkişafına nail olmaq və bölgələrdə fəaliyyət göstərən təsərrüfat subyektlərini də auditor xidmətləri ilə əhatə etmək məqsədilə, Bakı şəhəri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında, Gəncə, Sumqayıt və Lənkəran şəhərlərində, Kürdəmir, Zərdab, Şəmkir və Quba rayonlarında da auditor təşkilatları təsis etmişdir. Lakin sonrakı illərdə - artıq regional inkişafın sürətlənməsi, sahibkarlıq mühitinin daha əlverişli xarakter alması və buna müvafiq olaraq, auditə tələbatın, auditor peşəsinə, fəaliyyətinin genişləndirilməsinə ictimai marağın artması ilə əlaqədar Auditorlar Palatası bilavasitə auditor xidməti göstərməklə bağlı fəaliyyətini dayandırmış, auditor təşkilatları təsis etmək praktikasından imtina etmiş və hətta təsisçisi olduğu, maliyyə-təsərrüfat göstəriciləri baxımından özünü doğrultmayan bəzi təşkilatların fəaliyyətinə də xitam vermişdir.

Audit sisteminin təşkilində əsas məsələlərdən biri müxtəlif səviyyəli auditlərin (dövlət auditi, kənar audit və daxili audit) funksiya və səlahiyyətlərinin dəqiqləşdirilməsi və onlar arasında əlaqələrin tənzimlənməsidir. Auditin hər üç qolu sərbəst və müstəqil maliyyə nəzarəti qurumları olsalar da, iqtisadiyyatdakı mövcud maliyyə sistemlərinin qarşılıqlı əlaqə durumu onlar arasında sıx əməkdaşlıq qurulmasını şərtləndirir.

Kənar (müstəqil) auditlə daxili audit arasında da əlaqələrin genişlənməsinə xüsusi fikir verilməlidir. O cümlədən sifarişçi təsərrüfat subyektlərinin illik mühasibat (maliyyə) hesabatlarının auditi və başqa auditlər aparılarkən daxili auditorların yoxlamalarının nəticələrindən kənar auditorların istifadə etməsi məqsədəuyğun olardı.

Hesablama Palatası ilə Auditorlar Palatası arasında əməkdaşlığın və qarşılıqlı əlaqənin qurulması xüsusi əhəmiyyət daşıyır. Bu mənada, Hesablama Palatası təsərrüfat subyektlərində aparılacaq müxtəlif auditlərin Auditorlar Palatasına sifariş edilməsini, Auditorlar Palatası isə bunların öz üzvləri vasitəsilə araşdırmasını təmin etməlidir.

Beləliklə, audit müstəqil Azərbaycan Respublikasının bazaryönümlü iqtisadi strukturları sistemində möhkəm yer tutmuş, özünü əsl mənada, müstəqil, qərəzsiz maliyyə nəzarəti sistemi kimi təsdiqləmiş, Auditorlar Palatasının fəaliyyət göstərdiyi müddət ərzində auditor xidməti sahəsində ölkədə maliyyə şəffaflığının təmin edilməsinə nail olmaq istiqamətində xeyli iş görmüşdür. Bununla birlikdə müasir mərhələdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində, o cümlədən, dövlət idarəetmə sistemində və bazar iqtisadiyyatına keçid vəzifələrinin uğurlu həlli habelə şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının aradan qaldırılması, maliyyə hesabatlılığının təkmilləşdirilməsi istiqamətində müəyyən edilmiş vəzifələr elə bir audit sistemi qurulmasını tələb edir ki, bu sistem daha çox iqtisadi inkişafın perspektivlərini aşkarlamağa yönəlsin.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ardıcıl şəkildə həyata keçirdiyi daxili, xarici siyasəti birmənalı şəkildə qəbul edən, bu siyasətə fəal surətdə dəstək verən ölkə auditorları bütün qüvvə və səylərini, bilik və bacarıqlarını qarşıda duran dövlət əhəmiyyətli vacib vəzifələrin həllinə sərf edəcəklər.

**Səbuhi GÜLMƏMMƏDOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru.**

*Füzuli*

## Vətəndaş müraciətlərinə həssaslıqla yanaşılır



***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası uğurla davam etdirilir, iqtisadiyyatın möhkəmləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir, yeni və müasir texnologiyalar tətbiq edilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır.***

*Məhz buna görə də dövlətimizin başçısı İlham Əliyevin fəaliyyətində əsas diqqət insan amilinə, sosial problemlərin həllinə və sağlam vətəndaş cəmiyyətinin formalaşmasına yönəldilib. Demək olar ki, islahatlar həyatın bütün sahələrini əhatə edir. İdarətmədə aparılan islahatların əsas məqsədi vətəndaş haqlarının qorunması və şikayətlərin aradan qaldırılması, ədalətin pozulmamasıdır. Ölkəmizin sosial, iqtisadi, mədəni həyatında dərin iz buraxan, bir çox uğurlar qazanılan illər bir-birini əvəz edir. Qürurla deyə bilərik ki, Azərbaycanın inkişafı və tərəqqisi davamlı və dayanıqlı xarakter alıb, bu irəliləyiş bölgələrin timsalında özünü daha qabarıq büruzə verir. Füzuli rayonu da Ermənistan işğalının ağır nəticələrinə baxmayaraq, son illər inkişaf edir, qəsəbələrin və kəndlərin görkəmi dəyişir, yeni iş yerləri açılır, insanların güzəranı yaxşılaşır.*

*Füzuli rayonunda cari ilin birinci rübündə görülmüş işlər, vətəndaş müraciətlərinin təhlili və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Müşavirədə rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının rəhbərləri, inzibati ərazi dairələrinin nümayəndələri, bələdiyyə sədrləri, digər aidiyyəti xidmət təşkilatlarının rəhbərləri, sahibkarlar və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib. Rayon icra hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək bildirib ki, Füzulidə sahibkarlığın və özəl sektorun inkişafına münbit şərait yaradılıb, əsassız müdaxilələrin qarşısı alınıb. Vətəndaş məmnunluğunu artırmaq və xidmət keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə yaradılan rəqəmsal icra hakimiyyəti elektron sistemi öz üstünlüklərini göstərir. Belə ki, vətəndaşlar vaxt itirmədən qısa müddət ərzində rayon icra hakimiyyətinin və inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin səlahiyyətlərinə aid olan sənədləri onlayn qaydada əldə edir və qəbula yazılırlar. Qeyd olunub ki, 2023-cü ilin birinci rübündə vətəndaşlara adıçəkilən dövlət qurumlarına getmədən ailə vəziyyətini təsdiq edən 1013 arayış verilib. Bununla yanaşı, artıq rayonda ASAN müraciət informasiya sisteminin aktiv olması da vətəndaş məmnunluğu yaradır.*

*Müşavirədə çıxış edən vətəndaşlar rayon ərazisində şəkərli diabet xəstələrinə dərmanların vaxtında çatdırılmaması, təcili tibbi yardım xidmətinin təşkili, yollarda hərəkətin sıxlığını nəzərə alaraq kamera və radarların quraşdırılması, içməli və suvarma suyu ilə bağlı yaranmış çətinliklərin aradan qaldırılması, sahibsiz itlərin yaşayış məntəqələrindən uzaqlaşdırılması, Böyük Bəhmənli kəndində örüş sahəsinin qanunsuz zəbt olunması haqqında məlumat veriblər. Rayon rəhbəri vətəndaş müraciətlərində qaldırılan məsələlərə cavabdeh olan xidmət təşkilatlarının rəhbərlərinə ciddi irad bildirib və mövcud problemlərin qısa müddət ərzində həll olunması üçün tapşırıqlar verib. Diqqətə çatdırılıb ki, möhtərəm Prezidentimiz İlham Əliyevin vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı verdiyi tapşırıq və tövsiyələri rəhbər tutan rayon icra hakimiyyətində yerlərdə qəbul və səyyar görüşlərin keçirilməsi, vətəndaşların qaldırdıqları məsələlərin operativ həllinə yönəlmiş tədbirlərin görülməsinə həssaslıqla yanaşılır, doğma rayonun inkişafı və çiçəklənməsi üçün mütəşəkkillik nümayiş etdirilir. Qürur hissi ilə qeyd olunub ki, füzulili keçmiş məcburi köçkünlər dövlətimizin qayğısı sayəsində öz dədə-baba yurdlarına qayıtmağa hazırlaşırlar.*

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Artilleriya generalı Əliağa Şıxlinski

**Onu hərb elminə verdiyi töhfələrə və ordu quruculuğundakı yenilik və xidmətlərinə görə "Artilleriyanın Allahı" adlandırırdılar. İstər keçmiş sovetlərin, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunda göstərdiyi misilsiz şücaətləri ilə Əliağa Şıxlinski dünya hərb tarixinin səhifələrinə qızıl hərflərlə yazılmışdır.**



Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun qurulmasında və formalaşmasında böyük əməyi olan, əfsanəvi sərkərdə, general Əliağa Şıxlinski 1865-ci il aprelin 23-də Yelizavetpol quberniyasının Qazax qəzasının Qazaxlı kəndində kiçik mülkədar ailəsində anadan olmuşdur. Əliağa Şıxlinskinin anası Şahyəmən xanım Qayıbova görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin nəvəsi idi. Çoxuşaqlı ailədə dünyaya gələn Əliağanın atası onun qərbyönümlü hərbi məktəbdə təhsil almasını istəyirdi. Elə bu məqsədlə də, 1875-ci ildə onu Tiflisə, Şahyəmən xanımın əmisi oğlu Mirzə Hüseyn Qaibzadə Əfəndinin yanına göndərir. Dövrünün ziyalı və dindar bir şəxsi olan Mirzə Hüseyn Əfəndi kiçik Əliağanı öz himayəsinə götürərək təlim-tərbiyəsi ilə məşğul olur.

Əliağa Şıxlinski 1883-cü ildə rus ordusunda hərbi xidmətə başlamışdır. O, 1886-cı ildə Peterburq artilleriya məktəbini əla qiymətlərlə başa vurmuşdur. Əliağa Şıxlinski 1904-1905-ci illər Rus-Yapon müharibəsində batareya komandiri kimi vuruşaraq Port-Artur qalasının müdafiəsi zamanı göstərdiyi qəhrəmanlığa görə "Qızıl qılınc"la mükafatlandırılmışdır. Əliağa Şıxlinski Birinci Dünya müharibəsi döyüşlərində qəhrəmanlıq göstərərək rus ordusunda general-leytenant rütbəsinə qədər yüksəlmiş, "Müqəddəs Stanislav" ordeninin hər üç dərəcəsi ilə, "Müqəddəs Anna" ordeninin hər dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir" ordeninin 2, 3 və 4-cü dərəcələri ilə, "Müqəddəs Georgi" ordeninin 4-cü dərəcəsi və bir sıra orden və medallarla, qiymətli hədiyyələrlə təltif olunmuşdur.

Müharibə bitdikdən sonra topçu zabitlər hazırlayan məktəbdə yüksəkixtisaslı hərbçi kimi hərbin sirlərini gənclərə tədris etmişdir. Böyük sərkərdə hərb elminin daha dərindən mənimsənilməsi üçün yazdığı "Səhra toplarının cəbhədə işlədilməsi" dərs vəsaiti 1910-cu ildə çap olunmuşdur. Digər hərbi əsərləri isə topçu zabitlər üçün hazırlanmış "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı dərsliklərə daxil edilmişdir. Göstərdiyi xidmətlərə görə Ə.Şıxlinskiyə 1912-ci ildə general-mayor rütbəsi verilmişdir. O, Azərbaycanın ilk hərbi generallarından və çar ordusunun aparıcı mütəxəssislərindən biri olmuşdur.

XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı olan Əliağa Şıxlinski döyüş meydanlarında göstərdiyi şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixində özünəməxsus yer tutan sərkərdə idi. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.

Birinci Dünya müharibəsi zamanı Petroqradın artilleriya müdafiəsi general Əliağa Şıxlinskiyə tapşırılır. Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında isə 10-cu ordunun komandanı təyin edilir.

Hərbi istedadı və bacarığı onun haqqında yüksək fikirlərin yaranmasına və şöhrətlənməsinə səbəb olmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Əliağa Şıxlinskini vətəninə qayıtmağa məcbur edir. Elə həmin il iyunun 26-da təsis edilmiş ilk milli korpusun komandanı təyin edilir. Tam artilleriya generalı Əliağa Şıxlinski Cümhuriyyətin süqutuna kimi Azərbaycanın hərbi naziri Səməd bəy Mehmandarovun müavini vəzifəsində çalışır. Qısa zaman ərzində hər iki şəxsiyyətin gərgin əməyi nəticəsində Azərbaycan ordusu yaradılır. 1927-ci ildə rus imperiyası Azərbaycanı işğal edəndə Səməd bəy Mehmandarov xəstə olduğu üçün nazir vəzifəsini Əliağa Şıxlinski icra edir. Əliağa Şıxlinski qan tökülməsinin qarşısını almaq, eyni zamanda 72 minlik düşmən qoşunu ilə vuruşmağın mümkün olmadığını nəzərə alaraq minalanmış körpülərin partladılmasına icazə vermir. İşğaldan sonra imperiya qüvvələri Azərbaycan Ordusunu hissə-hissə dağıdır. Lakin Sovet imperiyası hər iki dahi şəxsiyyətə - Səməd bəy Mehmandarova və Əliağa Şıxlinskiyə toxunmur. Çünki hər iki şəxsiyyət ixtisaslı hərbçi kimi əvəzolunmaz idi.

Əliağa Şıxlinski bir müddət Moskvada Hərbi İnqilab Sovetinin Səhra Qərargahında çalışır. 1921-ci ilin yayında isə Azərbaycan Sovet Qoşunları Qərərgahına göndərilir. Bakı Qarnizonu Hərbi Elmi Cəmiyyətinin sədr müavini işləyən general sonradan Qafqaz Ordusu Hərbi İnqilab Şurası yanında Azərbaycan Hərbi Nəşriyyat Kollegiyasının sədri kimi fəaliyyət göstərir. 1928-ci ildə "Rusca-Azərbaycanca qısa hərbi lüğət" çap etdirən Şıxlinski məhz buna görə, SSRİ Hərbi İnqilab Şurasının Fəxri Fərmanı ilə təltif edilir. 1929-cu ildən istefaya çıxan general-leytenant bir çox orden və medallarla, Fransanın yüksək hərbi ordenləri ilə təltif olunmuşdur.

Öz həyat təcrübəsini və keçdiyi hərbi yolu qələmə alan Əliağa Şıxlinski 1942-ci ildə "Xatirələrim" adlı hərbi memuar yazır. Kitab generalın ölümündən doqquz ay sonra 1944-cü ildə çap olunur. Böyük sərkərdə, hərb elminin bilicisi Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də indiki Musa Nağıyev adına xəstəxanada kardiosklerozdan vəfat edir. Onun dəfn mərasimini isə filosof alim Heydər Hüseynov təşkil edir. Deyilənlərə görə, Heydər Hüseynovun Şıxlinski şəxsiyyətinə, sərkərdəlik fəaliyyətinə, elmi-publisistik yaradıcılığına böyük rəğbəti olub. Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də Bakıda vəfat edib.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

# Ombudsman Ermənistanda əsir götürülmüş hərbi qulluqçularımızın valideynləri ilə görüşüb

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın təşəbbüsü ilə Ombudsman Aparatında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitinə görə itkin düşmüş və Ermənistanda həbs edilmiş Azərbaycan Ordusunun hərbi qulluqçuları Aqşin Bəbirov və Hüseyn Axundovun valideynləri ilə görüş keçirilib.**

Qurumun mətbuat xidmətinin məlumatında deyilir ki, görüş zamanı Ombudsman Ermənistanda hərbi qulluqçularımızın qanunsuz həbsini, eləcə də əsgərimizə qarşı törədilmiş qeyri-insani rəftar hallarını qəti şəkildə qınadığını, bu məsələ ilə bağlı aidiyyəti qurumlara müraciət etdiyini bildirib. S.Əliyeva müvafiq beynəlxalq və regional təşkilatlara ünvanladığı məktubda hərbi qulluqçularımızın Ermənistanda saxlanıldıqları müddət ərzində hüquqlarının təmin olunmasını, ailələri ilə videozəng vasitəsilə əlaqə imkanının yaradılmasını, habelə əsgərimizin qeyri-insani rəftara məruz qalması ilə bağlı video və fotoların araşdırılmasını tələb etdiyini vurğulayıb.

Bununla yanaşı, Müvəkkil hərbi qulluqçularımızın vəziyyətinin diqqətdə saxlanıldığını bildirib, onların azad olunaraq ölkəyə qaytarılmaları istiqamətində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

**"Respublika".**

# Ermənistanın beynəlxalq yarışlara evsahibliyi etməsinə qadağa qoyulmalıdır

**"İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması erməni vəhşiliyinin növbəti bir nümunəsi idi. Bununla da bütün dünya əsl erməni xislətinin iç üzünü bir daha gördü".**

Bunu bizimlə söhbətində **Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri, professor Kamilə Əliyeva** deyib. Deputat bildirib ki, hadisənin Ermənistanın dövlət nümayəndələri və hökumət başçısının gözü qarşısında baş verməsi və bayrağı yandıran şəxsin hökumət nümayəndələri ilə yaxın münasibətdə olması sübut edir ki, bu, əvvəlcədən hazırlanmış bir aksiya idi. Əgər belə olmasaydı həmin şəxs əsl qəhrəman kimi qarşılanıb alqışlanmazdı. Düşünürəm ki, bu hadisədən sonra beynəlxalq idman təşkilatları Ermənistanın beynəlxalq yarışlara evsahibliyi etməsinə qadağa qoymalıdır. Ermənistanda baş verən bu cür hadisələr göstərir ki, hələ də bu ölkədə revanşist qüvvələr mövcuddur və onlar erməni xalqını hər zaman Azərbaycana qarşı düşmənçiliyə sövq edir. Ermənistandan fərqli olaraq Azərbaycan hər zaman xalqlar arasında dostluq münasibətlərinin qurulmasının tərəfdarı olmuşdur.



2015-ci ildə Bakıda keçirilən Avropa oyunları zamanı Prezident İlham Əliyev boks yarışlarında qalib gələn erməniəsilli idmançının boynuna medalı şəxsən özü asmış, zalda əyləşən azərbaycanlı azarkeşlər ölkə başçımızın bu jestini alqışlarla qarşılamışdır. Bu, ölkə başçımız İlham Əliyevin böyük şəxsiyyət, Azərbaycan xalqının sülhsevər xalq olduğunun bariz nümunəsi idi.

Deputat qeyd edib ki, iki türkiyəli atletin qızıl və gümüş medal qazanaraq İrəvanda Türkiyənin bayrağını qaldırıb himnini səsləndirməsi və bu qalibiyyətlərini Azərbaycana həsr etmələri hər birimizdə qürur hissi yaratdı. Bu hadisə bayrağımızı yandıran ermənilərin özlərini yandırmış oldu. Azərbaycan olmayan yerdə Türkiyənin qalibiyyəti Azərbaycanın da qalibiyyəti deməkdir. Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Türkiyə atletlərini təbrik etmişlər.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

# İDMAN
## Daim zirvələrdə




## Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan tennis turniri

**Gənclər və İdman Nazirliyi, habelə Azərbaycan Tennis Federasiyasının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan Avropa tennis turnirinə start verilib.**

Bakı Tennis Akademiyasında keçirilən sayca 12-ci dəfə təşkil olunan yarışda 40-a yaxın ölkədən 300-dən artıq tennisçi 12, 14, 16 və 18 yaş kateqoriyasında mübarizə aparır. Turnirin ilk həftəsində 12 yaşlı idmançılar mükafatlar uğrunda yarışırlar. Turnirə mayın sonunda yekun vurulacaq.

## ACF kuboku yarışlarının qalibləri müəyyənləşib

**Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə 18 yaşadək yeniyetmə oğlanlar arasında keçirilən ACF kuboku yarışlarına yekun vurulub. Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində keçirilən yarışda 203 cüdoçu medallar uğrunda mübarizə aparıb.**

Turnirin ilk günündə 50, 60, 73, 90, ertəsi gün 55, 66, 81 kiloqram və 90 kiloqramdan yuxarı çəki dərəcələrində qaliblər müəyyənləşib. Yarışda Nəcəf Nəsrullayev (50 kq), Məhəmməd Məmişov (55 kq), Nadir İmanov (60 kq), Cəsur İbadlı (66 kq), Məmməd Əzizbəyov (73 kq), Zeynəlabdin




Xudaverdiyev (81 kq), Ömər Abbasov (90 kq) və Ceyhun Dadaşov (90 kq-dan yuxarı) qızıl medal qazanıblar.

## Bədii gimnastika üzrə dünya kuboku yarışları

**Aprelin 21-23-də Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışları keçiriləcək.**

Turnirdə 46 ölkənin idmançıları fərdi və qrup hərəkətləri proqramında mübarizə aparacaqlar. Yarışda ölkəmizi fərdi proqramda Zöhrə Ağami-




rova və Alina Gözəlova, qrup hərəkətləri proqramında Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Darya Sorokina təmsil edəcəklər. Üç gün ərzində baş tutacaq yarışlarda gimnastlar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaqlar. Yarışlarda ən çox icra xalını toplamış gimnast və qrup komandasına "AGF Trophy" kuboku təqdim olunacaq.

## Veloyürüş keçiriləcək

**Aprelin 23-də Azərbaycan Velosiped Federasiyasının (AVF) təşkilatçılığı**




**ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən veloyürüş keçiriləcək.**

Dənizkənarı Milli Parkın ərazisindən saat 11:00-da start götürəcək veloyürüşə yalnız Vətən müharibəsi iştirakçıları və qazilər qatılacaqlar. İştirakçılar Dənizkənarı Milli Parkın ərazisi ilə hərəkət edərək Su İdmanı Sarayının yaxınlığından geri dönüb, start yerində yürüşü başa vuracaqlar. Azərbaycan Velosiped Federasiyası veloyürüşdə iştirak etmək arzusunda olan Vətən müharibəsi iştirakçılarını və qaziləri tədbirə qatılmağa dəvət edir.

**Nərgiz İSMAYILOVA,**
**"Respublika".**

# DÜNYA XƏBƏRLƏRİ

## ABŞ-da RAMAZAN RƏSMİ DÖVLƏT BAYRAMI KİMİ QEYD OLUNACAQ



ABŞ-da ilk dəfə olaraq Miçiqan ştatının Dirbörn şəhərində Ramazan bayramının ilk günü rəsmi dövlət bayramı kimi qeyd olunacaq. "Teleqraf.com"un xəbərinə görə, bu barədə Dirbörn şəhərinin bələdiyyə sədri Abdulla Həmmud açıqlama verib. "İlk dəfədir, bir bələdiyyə Ramazan bayramında tətil elan edir, sizin inancınız da digərləri kimi rəsmi şəkildə tanınır. Hesab edirəm ki, bu, böyük əhəmiyyət kəsb edir", - deyə bələdiyyə sədri bildirib. Məlumata əsasən, 2021-ci ildə Dirbörnün ilk müsəlman bələdiyyə sədri seçilən Livan əsilli Abdulla Həmmud müsəlman icmasının doğulub boya-başa çatdığı şəhərin bir parçası olduğunu ilk dəfə bu bayramda hiss edəcəyini diqqətə çatdırıb. Qəbul edilən qərarla ABŞ-da ilk dəfə olaraq bir bələdiyyənin bütün işçilərinə Ramazan bayramının ilk günü ödənişli məzuniyyət veriləcəyi, məhkəmələr və kitabxanalar kimi rəsmi qurumların isə bağlanacağı bildirilib.

Bayramın ikinci günündə Dirbörn Şəhər Şurasının təşkilatçılığı ilə pulsuz Ramazan bayramı festivalı keçiriləcəyi də açıqlanıb. Dirbörn ABŞ-da ən çox müsəlman sakinləri olan şəhər kimi tanınır. Şəhərin 110 minə yaxın əhalisinin təxminən yarısının ərəb mənşəli olduğu məlumdur.

## FRANSA VƏ BRAZİLİYA XARİCİ TİCARƏTDƏ DOLLARA ALTERNATİV AXTARIR



Türkiyənin beynəlxalq bazarlarda ABŞ valyutasından uzaqlaşmasında uğur qazanmasından sonra Fransa və Braziliya xarici ticarət hesablaşmalarında dollara alternativ tapmaq barədə düşünüblər. Bu barədə "Sputnik" informasiya agentliyi məlumat yayıb. Verilən xəbərə görə, Paris və Braziliya rəsmi Ankaradan nümunə götürərək dollardan imtina etmək istəyindən danışmağa başlayıb. Xatırladaq ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bundan 6 il əvvəl xarici ticarət hesablaşmalarının milli valyutalara köçürülməsinə çağırıb.

Qeyd edək ki, bu yaxınlarda Braziliya prezidenti Luis İnasiu Lula da Silva "BRİKS" ölkələrinin ticarətdə dollara alternativ valyutalardan istifadə etməli olduğunu bəyan edib. Alternativ olaraq Braziliya lideri qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadə etməyi təklif edib.

Xatırladaq ki, bir müddət öncə Rusiya prezidenti Vladimir Putin də qarşılıqlı ticarətdə milli valyutaların getdikcə daha çox istifadə olunduğunu qeyd edərək, dollardan imtina etməyə çağırıb. Dövlət başçısı Rusiya ilə Asiya, Afrika və Latın Amerikası ölkələri arasında hesablaşmalarda Çin yuanından istifadə olunmasının tərəfdarıdır.

## YƏMƏNDƏ İZDİHAM ZAMANI 90 NƏFƏR FACİƏVİ ŞƏKİLDƏ HƏLAK OLUB



Yəmənin paytaxtı Səna şəhərində kütləvi izdiham zamanı 90 nəfər həlak olub, 300-dən çox insan isə yaralanıb. "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, hadisə Sənanın mərkəzindəki Köhnə şəhərdə yüzlərlə yoxsul insanın sahibkarların təşkil etdiyi tədbirə toplaşarkən baş verib. Belə ki, yoxsul insanlar 9 dollarlıq Ramazan yardımını almaq üçün məktəbə axışıb. Verilən xəbərə görə, husilər kütləni nəzarət altına almaq üçün havaya atəş açıblar. Lakin atəş elektrik xətlərinə tuş gəldiyinə görə partlamaya yol açıb. Bu isə insanlar arasında təlaşa səbəb olub. Xatırladaq ki, paytaxt Səna 2015-ci ildən üsyançı husilərin əlindədir. Ölkədəki vətəndaş müharibəsi 150 mindən çox şəxsin ölümü ilə nəticələnib.

## "TESLA" TAM AVTOPİLOTLU ELEKTROMOBİL İSTEHSAL EDƏCƏK




ABŞ-ın elektrikli avtomobil istehsalçısı "Tesla Motors" şirkəti artıq bu il tam avtopilotlu idarəetmə texnologiyasını tətbiq edə bilər. "Report" agentliyinin məlumatına görə, bu barədə şirkətin rəhbəri İlon Mask bildirib. "Düşünürəm ki, biz bunu bu il edəcəyik. Tendensiya çox aydın şəkildə tam avtonom idarəetməyə doğru gedir", - deyə İ.Mask vurğulayıb.

Qeyd edilir ki, hazırda "Tesla" elektromobillərinin avtopilot xüsusiyyətləri sürücünün iştirakı ilə istifadə olunmaq üçün nəzərdə tutulub və maşını tam avtonom etmir. İlon Maskın rəhbərlik etdiyi ABŞ-ın "Tesla Motors" şirkəti 2003-cü ildə elektrikli avtomobillər və onlarla əlaqəli texnologiyaların hazırlanması və və istehsalçısı kimi təsis edilib. Şirkət elektrikli nəqliyyat vasitələri ilə yanaşı, öz texnologiyasından istifadə edərək batareyalar və elektrik mühərrikləri də istehsal edir və onları digər avtomobil şirkətlərinə, o cümlədən "Toyota" və "Daimler"ə satır.

## PENTAQONUN MƏXFİ SƏNƏDLƏRİNİN SIZMASINDA YENİ DETALLAR




ABŞ rəsmiləri məxfi materialları dərc etməkdə şübhəli bilinən Cek Teyşeyranın xidmət etdiyi ABŞ Hərbi Hava Qüvvələri bölməsinin əməkdaşlarına qarşı Pentaqonun məxfi sənədlərinin sızması ilə bağlı yeni ittihamların irəli sürülməsinin mümkünlüyünü istisna etmirlər. Bu barədə "The Wall Street Journal" nəşri məlumat yayıb.

Verilən xəbərə görə, ABŞ Müdafiə Nazirliyi sənədlərin sızmasında birbaşa və ya dolayısı ilə iştirakı ola biləcək şəxsləri məsuliyyətə cəlb etməyə çalışır. Qəzet qeyd edib ki, hərbi idarə bölmə əməkdaşlarının məlumatların mühafizəsi prosedurlarına əməl edib-etmədiklərini, xüsusən də məxfi sənədləri lazımi qaydada məhv edib-etmədiklərini müəyyən etmək istəyir. Qəzet yazır ki, araşdırmadan sonra yeni ittihamlar irəli sürülə bilər. Xatırladaq ki, Cek Teyşeyra məxfi sənədləri dərc etməkdə şübhəli bilinərək aprelin 13-də həbs edilib. Aprelin 14-də Teyşeyra iki maddə ilə ittiham olunub: məxfi sənədlərin və müdafiə materiallarının icazəsiz ələ keçirilməsi, milli müdafiə ilə bağlı məlumatların icazəsiz saxlanması və ötürülməsi.

## İRANDA QIZLAR MƏKTƏBİNƏ KİMYƏVİ MADDƏ İLƏ HÜCUM OLUB



Güney Azərbaycanın Urmiya və Həmədan şəhərlərində qızlar məktəbinə kimyəvi maddə ilə hücum həyata keçirilib. "Report"un verdiyi xəbərə görə, bu barədə "Iran International" telekanalı məlumat yayıb. Bildirilir ki, İranın müxtəlif şəhərlərində qızların təhsil aldıqları 7 məktəbə Tehran hakimiyyətinin kimyəvi maddə ilə hücumu nəticəsində çoxlu sayda məktəbli zəhərlənib.

Belə ki, Güney Azərbaycanın Urmiya şəhərindəki məktəblər Tehran hakimiyyətinin kimyəvi hücumuna məruz qalıb. Eyni zamanda, İranın paytaxtı Tehran, İslamşəhr, Güney Azərbaycanın Həmədan şəhərindəki qızlar məktəblərinə də kimyəvi hücum olub.

Məlumata əsasən, zəhərlənməyə etiraz edənlərin valideynləri və yaxınlarına qarşı hərbi-polis qüvvələri gözyaşardıcı qaz tətbiq edib.

## AVROPADA QURAQLIQLA BAĞLI XƏBƏRDARLIQ



Avropa iqlim ekspertləri yaz və yay aylarının xüsusilə Aralıq dənizi və Avropanın cənubunda quraqlıqla müşahidə olunacağı ilə bağlı xəbərdarlıq ediblər. "TRT" telekanalının verdiyi xəbərə görə, bu barədə Avropa İttifaqı Kopernik İqlim Dəyişikliyi Xidmətinin bəyanatında qeyd olunur. Məlumata əsasən, 2022-ci ilin yay fəsli Avropada "ən isti yay" kimi qeydə alınıb. Ötən yay fəsli Avropanın əksər hissəsində intensiv və uzun istilik dalğalarının yaşandığı bir vaxtda temperatur orta göstəricidən 1,4 dərəcə yuxarı idi. Hazırda Avropada havanın temperaturu qlobal orta göstəricidən 2 dəfə sürətlə yüksəlir.

Bildirilir ki, Avropanın üçdə biri 2022-ci ilin yayında quraqlıqdan ciddi şəkildə təsirlənib, qitənin 63 faizində axar suların orta axınının miqdarı azalıb.

Xüsusilə Avropanın cənubunda su mənbəyi sayılan Alp dağlarında qar azlığı rekord həddə çatıb. həmçinin Alp bölgəsində 5 kvadrat kilometr buzlaq itkisi meydana gəlib. Orta temperatur artımı belə davam edərsə, Aralıq dənizi bölgəsində quraqlıq qaçılmazdır.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**




# Qafqaz Müsəlmanları İdarəsinin sədri Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

*Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.*

*Bu barədə QMİ-nin mətbuat xidmətindən məlumat verilib.*

Dünya müsəlmanlarının əziz günü - Mübarək Ramazan bayramı münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, Allahdan oruc və ibadətlərinizin qəbul, dualarınızın müstəcab olmasını diləyirik.

Allahın rəhmət, bərəkət və məğfirəti ilə seçilən Ramazan ayının əzəmət və fərəhi hədsizdir. Uca Allaha şükürlər olsun ki, Onun Rizasını qazanmaq üçün müsəlman qardaş və bacılarımıza bu mübarək ay boyunca ibadətlərini böyük iman sevinci ilə tamamlayaraq, Ramazani-Şərifin bayram səadətinə və xeyir-bərəkətlərinə qovuşmaq nəsib olacaqdır.

Təbrikdə daha sonra deyilir: "Builki Ramazan bayramını Azərbaycan xalqı davam edən Zəfər əhvali-ruhiyyəsi ilə qeyd edir. Həmd olsun Allaha ki, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanımızın rəhbərliyilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində rəşadəti sayəsində 30 illik erməni təcavüzünə son qoyaraq tarixi ədaləti bərpa etdi, şanlı Zəfərə qovuşdu. Vətənin ərazi bütövlüyünün bərpası uğrunda canını fəda edərək uca şəhidlik məqamına yüksəlmiş bütün qəhrəman övladlarımıza Allahdan rəhmət, qazilərimizə şəfalar diləyirik.

Şükürlər olsun ki, işğaldan azad olunmuş torpaqlarımızda yenidən azan səslənir. Azərbaycan xalqı bu Ramazanı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı quruculuq-bərpa işlərindən duyduğu qürur və nikbinliklə, düşmən tərəfindən dağıdılmış, həqarət olunmuş məscidlərimizin dirçəldilməsi üçün görülən böyük işlərin doğurduğu mənəvi fəxarət hissilə qarşılayır. Azərbaycan xalqının əbədi, əzəli torpaqlara Böyük Qayıdışını təmin etmək yönündə dövlət başçımızın rəhbərliyi ilə fövqəladə işlər həyata keçirilir, əsarətdən xilas etdiyimiz dağıdılmış mədəni-mənəvi irsimizi dirçəldir, tarixi abidələrə və ziyarətgahlara, yandırılmış torpaqlarımıza yeni nəfəs verir, abad kəndlər və şəhərlər salır, hava limanları, müasir yollar inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanımla birlikdə Qarabağa, Şərqi Zəngəzura hər bir səfəri zamanı dövlət əhəmiyyətli infrastruktur obyektlərinin təməlinin qoyulması ilə yanaşı, dini-mənəvi abidələrin təmir, bərpa və yenidən qurulması, yeni məscid binalarının inşası ilə bağlı əsaslı layihə gerçəkləşdirilir. Xalqımız əmindir ki, bütün Qarabağ bölgəsi tezliklə Azərbaycanın ən gözəl, inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir, inşallah!".

Şeyxülislam Allahşükür Paşazadə vurğulayıb ki, Allah-Təalanın lütfü və mərhəməti ilə Ramazan bayramına qovuşan xalqımız Vətənimiz, dünyada əmin-amanlıq üçün dualar edir. Məğfirət, savab ayı olan Ramazan bəşər övladına səbir, mərhəmət, xeyirxahlıq, yardımlaşmanı təlqin edir. Uca Yaradanın rizası yolunda xeyirxahlığı təcəssüm etdirən bu ülvi bayram günlərində valideynləri yad etmək və sevindirmək, qohum-əqrəbaya baş çəkmək, şəhid ailələrinə və qazilərə qayğı göstərmək, yetim, kimsəsiz və ehtiyacı olanlara şəfqət göstərmək, küsülüləri barışdırmaq hər bir müsəlmanın borcudur.

"Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının verdiyi məlumata görə, bu il Şəvval ayının 1-i - Ramazan bayramı, inşallah, Miladi təqvimlə aprelin 21-nə təsadüf edir. Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günü - Bayram axşamı şam namazından sonradır. Qazılar Şurasının fətvasına görə adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Bu, hər bir ailəyə bayram ovqatı yaşamağa imkan yaradır.

Bir daha əziz bayram - Eydül-Fitr səadətinə yetişən bütün dünya müsəlmanlarını, o cümlədən xalqımızı səmimi-qəlbdən təbrik edir, xeyir-dualarımızı yetiririk. Allah-Təala bütün dua və ibadətlərimizi qəbul etsin, hər zaman yardımçımız olsun! Qəlbində Allah məhəbbəti yaşadan xalqımızın, inşallah, bütün ülvi arzu və niyyətləri gerçəkləşər! Bir daha müstəqilliyimiz, dövlətçiliyimiz uğrunda canını fəda etmiş cəmi şəhidlərimizə Allahdan rəhmət diləyirik. Uca Rəbbimiz müstəqilliyimizi əbədi, dövlətimizi, dövlət rəhbərimizi müzəffər, xalqımızı hər zaman qalibqərar versin! Allah-Təala Azərbaycanı qorusun! AMİN!", - deyə təbrikdə vurğulanır. ■

## Ramazanın 33 illik dövriliyi




**Ramazan ayı Hicri təqvimi ilə hesablandığı üçün hər il əvvəlki ilə nisbətən 10-12 gün əvvəl başlayır. Miladi təqvimə görə hər 33 ildə bir eyni təqvim alınır. Yəni 2056-cı ildə Ramazan ayı Miladi təqvimlə yenə 23 martda başlayacaq.**




# Ekofəalların tələbləri yerinə yetirilməlidir

**Ölkəmizin Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı yönəlmiş Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası artıq 131 gündür ki, davam edir. Aksiya iştirakçıları dünya ictimaiyyətini ekologiyanı qorumağa, bu qeyri-qanuni fəaliyyəti gözardı etməməyə çağırırlar.**

Ekoaktivistlər haqlı narazılıqlarını nümayiş etdirərək tələbləri yerinə yetirilənə qədər aksiyanı davam etdirməkdə israrlıdırlar. Etirazçıların toplaşdığı yol ilk gündən etibarən humanitar məqsədlər üçün tam olaraq açıqdır. Etirazçılar həmişə olduğu kimi, bu səhəri də Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açıblar. Fəallar Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb vətənpərvərlik ruhunda müxtəlif mahnılar oxuyur, şüarlar səsləndirirlər. Aksiya iştirakçılarının təhlükəsizliyi də yüksək səviyyədə təmin olunur. Bu məqsədlə, Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının (DQ) hərbçiləri və polislər əraziyə cəlb edilmişdir. Xatırladaq ki, aksiya Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən keçirilir. Ötən ilin dekabr ayında Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlılar tərəfindən sözügedən monitorinqin qarşısı alındı.

Laçın-Xankəndi yolunda minlərlə vətəndaş cəmiyyəti fəalını birləşdirən aksiya bəşəri və ümummilli amalların kəsişməsi hesab olunur. Aksiya, həmçinin beynəlxalq aləmdə tanınan ərazilərimizdə Ermənistanın qanunsuz əməllərini ifşa edir. Çünki Qarabağdakı mədənlərimizin qanunsuz istismarı təkcə ölkəmizin sərvətlərinin talanması anlamına gəlmir, həmçinin buradan əldə edilən gəlirlər bir sıra ölkə və təşkilatlarda qanunsuz lobbiçilik fəaliyyətlərini, korrupsiya əməliyyatlarının geniş vüsət almasına sərf olunur. Prezident İlham Əliyevin Laçın-Xankəndi yolundakı aksiyaya dəstək göstərməsi iştirakçıları motivasiya edən əsas səbəblərdəndir. Ölkə başçımızın fevralın 18-də baş tutmuş Münxen görüşündən sonra televiziya kanallarına müsahibəsi bunun ən bariz nümunəsidir. Belə ki, müsahibə zamanı dövlətimizin başçısı ərazilərdə sərhəd-buraxılış məntəqələrinin yaradılmasının vacibliyini vurğulamış, belə məntəqələrin Laçın yolunda da yaradılmasının zəruriliyini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır.

Aksiya iştirakçılarına ictimai dəstək də günbəgün artmaqdadır. Belə ki, ekologiya, geologiya və digər sahələr üzrə alimlər, ekspertlər, tələbələr, vətəndaş cəmiyyətinin təmsilçiləri də ekofəallara qoşulurlar.

Xatırladaq ki, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda ötən il dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**







# "Azpetrol" şirkəti Ramazan bayramı münasibətilə xeyriyyə tədbiri təşkil edib

**"Azpetrol" şirkətinin təşəbbüsü və korporativ sosial məsuliyyət öhdəliklərinin icrası çərçivəsində Ramazan bayramı münasibətilə ərzaq yardımları paylanılıb.**

Bu barədə verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Bakı Regional Məşğulluq filialı ilə birgə həyata keçirilən xeyriyyə tədbiri paytaxt ərazisində yaşayan şəhid ailələrini əhatə edib.

Bundan əlavə bayram payları "Azpetrol" şirkətinin Vətən müharibəsində şəhid olmuş dörd əməkdaşının ailələrinə də çatdırılıb.



"Azpetrol" şirkəti Vətən müharibəsində şəhid olanların ailələrini və Qarabağ qazilərini daim diqqət mərkəzində saxlayır, yardımlar edir.

**Mustafa KAMAL,**
**"Respublika".**



# Ermənistanla işbirliyi ifşa olunur

**Ermənistan ilə İran arasında ticarət dövriyyəsi 2021-ci ildə 503,5 milyon dollar olduğu halda, ötən il bu göstərici 711 milyon dollara çatıb. Ermənistan hökumətinin hesabatında artımın təxminən 42 faiz təşkil etdiyi bildirilib. Bu prosesin davamı da gözləniləndir, çünki tərəflər iki ölkə arasında qarşılıqlı ticarətin 2 dəfə artırılmasına dair saziş imzalayıblar. Amma bu yaxınlaşmaya dərindən nəzər salsaq görərik ki, iqtisadi əlaqələrin kökündə heç də səmərəlilik dayanmır.**

Belə ki, İrəvanın onsuz da aşağı olan investisiya reytinqi Vətən müharibəsindən sonra daha da zəifləyib. Sülh müqaviləsi imzalanmadığı müddətdə isə Ermənistan iqtisadi baxımdan ən riskli ölkələr siyahısında olaraq qalacaq. Bu halda Tehranın İrəvana yatırımları 2 istiqmətdə şərh oluna bilər. Birincisi, İran rejimi antitürk mövqeyindən çıxış edərək Ermənistanı Azərbaycana və ümumilikdə, güclənən türk birliyinə qarşı çıxa biləcəyinə inandırmaq istəyir. Yəni bu addımı Cənubi Qafqazdakı maraqları naminə edir. İkinci versiyaya görə isə rəsmi Tehran İrəvan üzərindən qərbin sanksiyalarından yayınmağa çalışır.

Digər tərəfdən, tərəflər arasında iqtisadi əlaqələrin gücləndiyi müşahidə olunsa da, ticarət dövriyyəsinin təkcə son ildə 40 faizdən çox artması şübhə doğurur. Çünki, artım nəqliyyat yükdaşımalarındakı rəqəmlərlə uzlaşmır, yükdaşımalar elə ötən ilki səviyyədə qalıb. Belə olan halda isə yalnız İranın Ermənistana silah satması ehtimal edilir. Bu versiya hazırkı proseslərlə tam səsləşir desək, yanılmarıq. Ukraynadakı müharibədə Rusiyaya dron və raket verən İranın eyni silahları strateji tərəfdaşı adlandırdığı Ermənistana da ötürməsi təəccüblü deyil.

30 illik işğal dövründə, 44 günlük Vətən müharibəsində, eləcə də postmüharibə mərhələsində Ermənistanın regional sülhə yaratdığı təhdidlərə və qeyri-konstruktiv mövqeyinə baxmayaraq, İranın Ermənistana hərbi-siyasi dəstəyini davam etdirməsi Azərbaycan ictimai rəyinə də təsirsiz ötüşməyib. Sosial Tədqiqatlar Mərkəzi "İranın regionda maraqlarını necə xarakterizə edirsiniz?" sualı ilə bağlı ictimai rəy sorğusu keçirib. Sorğu çərçivəsində respondentlərin 76.8 faizi İranın regionda Ermənistanın maraqlarını qoruduğunu, başqa sözlə, öz regional maraqlarını Ermənistan üzərindən reallaşdırmağa çalışdığını ifadə edib. İştirakçıların 5.5 faizi İranın Ermənistan və Azərbaycana münasibətdə tərəfsiz mövqedə olduğunu, cəmi 3.4 faizi Azərbaycanın maraqlarını üstün tutduğunu bildirib. Respondentlərin 14.3 faizi isə bu barədə məlumatsız olduğunu bildirib, yaxud fikir bildirməkdə çətinlik çəkib. Sorğu çərçivəsində respondentlərin "Sizcə, Azərbaycan İranla münasibətlərində ən çox hansı amili nəzərə almalıdır?" sualı ətrafında da fikirləri öyrənilib. Sorğuya qatılanların 29.7 faizi Azərbaycan-İran münasibətlərində tarixi köklərin və qonşuluq əlaqələrinin nəzərə alınmalı olduğunu qeyd edib. Bu fonda təqribən hər üç respondentdən birinin iki ölkə arasında yaxın qonşuluq münasibətlərinə istinad etməsi bir daha həm dövlət, həm də cəmiyyət olaraq Azərbaycanın İranla olan münasibətlərində dinc qonşuluq siyasətinə sadiqliyinin əyani göstəricisidir. Azərbaycan indiki halda belə öz ərazisindən Tehrana qarşı müdaxilə planlarına şərait yaratmır. Amma hazırkı gərginliyin aradan qalxması üçün İran da üzərinə düşən vəzifəni icra etməlidir.

Bununla belə, görünən odur ki, İran rejimi Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə, münaqişə və təxribatlar hazırlamaqda davam edir. Son olaraq İranın ölkəmizdə yeni təşkilat yaratmaq planları ifşa olunub. Artıq "Vahid Ümmət Azərbaycan Ruhanilər Təşkilatı"nın formalaşdırılması ilə bağlı SEPAH-ın nəzarətində olan sosial şəbəkələrdə çağırışlar olunur. Görünür, Ermənistana iqtisadi və hərbi dəstək verən Tehran Azərbaycana terror ixrac etməkdə qərarlıdır. Amma ardıcıl olaraq casus şəbəkələrinin aşkarlanması rejimin bu planının da suya düşəcəyinə zəmanət verir.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

# Tarixi ədalət bərpa ediləcək



**Xalqımız ötən yüzillikdə dəfələrlə etnik təmizləmə siyasətinə məruz qalmış, tarixi dədə-baba yurdlarından zorla köçürülmüş, didərgin salınmışdır. XX əsrin əvvəllərində baş verən proseslər nəticəsində isə əzəli torpağımızda Ermənistan dövləti yaradılmışdır. Bu zaman Qərbi Azərbaycanda yaşayan soydaşlarımız əzəli torpaqlarından vəhşicəsinə qovulmuşlar.**

Lakin bu həsrətin bir gün bitəcəyi hər kəsə bəllidir. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində haqq-ədalət öz yerini tapacaqdır. Ötən əsrdə baş verənlər, ermənilərin Qərbi Azərbaycandakı həmyerlilərimizə qarşı etdiyi haqsızlıqlar dünya ictimaiyyətinə çatdırılır ki, bunlar məsələnin beynəlxalq müstəvidə həlli üçün ilkin addımlardır. Ermənistan isə ölkəmizə qarşı əsassız iddialarla aranı qarışdırmağa çalışır. Əslində, mənfur düşmənin bu iddiaları o qədər də təəccüblü deyil. Çünki düşmənin gözü daim özgə torpağında olub. Amma bütün bunlar əbəsdir. Ölkə başçımız İlham Əliyevin də dediyi kimi, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox sənədlər, xəritələr və qədim tariximiz də təsdiqləyir.

1918-ci ildə hələ yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində qədim tarixi şəhərimiz olan İrəvanı Ermənistana bağışlamışdır. Bu hadisədən iki il sonra isə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə Zəngəzur da Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilmişdir. 1948-1953-cü illərdə xalqımızın məruz qaldığı deportasiyanı da unutmaq mümkün deyil. Bu zaman istər sovet hökuməti, istərsə də ermənilər Qərbi azərbaycanlılara qarşı amansız cinayət törətmişlər. 1980-ci illərin sonlarında həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları yenidən hərəkətə keçmişlər. Nəticədə, sovet hökuməti yenə alçaq düşmənə dəstək göstərmiş, xalqımız əzəli torpaqlarından növbəti dəfə deportasiya olunmuşdur. Bu yaxınlarda Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciəti də tarixi ədalətin bərpa olunması yönündə atılan mühüm addımlardan hesab olunur. Belə ki, həmin müraciəti bu il yanvarın 17-də Birləşmiş Millətlər Təşkilatının katibliyi BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yaymışdır. Müraciət həmçinin silahlı sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndlər ilə əlaqələndirilmişdir. BMT-yə edilən müraciət Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurlardandır. Bundan başqa, müraciət azərbaycanlıların öz evlərinə qaytarılması və təməl insan hüquqlarının qorunması üçün beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olmasının zəruriliyini bir daha təsdiqləyir. Bu sahədə atılan addımlar sülh yolu ilə və təhlükəsiz şəkildə geriyə qayıtmaq istiqamətində səylərin artırılmasına mühüm töhfə olacaq.

**N.BEYDİYEVA,**
**"Respublika".**

# Faşizm ideologiyasının Cənubi Qafqazdakı müasir davamçıları

**Ermənistanda keçirilən beynəlxalq turnirdə Azərbaycanın Dövlət bayrağını yandıran məxluqun hər cür şərəf və ləyaqətdən uzaq olan bir toplum tərəfindən "qəhrəman" kimi qələmə verilməsi onların hansı təfəkkürdə olmasından, hansı ideyalarla yaşamasından xəbər verir. Bütün dünya hər il faşizm üzərindəki qələbəni qeyd edib bunu bəşəriyyət üçün böyük nailiyyət adlandırsa da, Cənubi Qafqazda Ermənistan adlı dövlətdə faşizmin qalıqları hələ də yaşamaqdadır. XX əsrin ortalarında milyonlarla insanın ölümünə səbəb olan nasizm ideologiyasının davamçıları (ermənilər) nə zaman sülhlə bağlı çağırışlar olursa, həmin ərəfələrdə dünya miqyasında bir təxribata əl atırlar.**



Ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Dövlət bayrağımızın yandırılması əslində, illərdir Ermənistanı dəstəkləyən beynəlxalq təşkilat və qurumların əməyinin "bəhrəsidir". İllərdir qlobal güclərin bu ölkəyə verdikləri dəstək onları həddindən artıq cəsarətləndirib. Dünyanın aparıcı qurumları erməniləri belə bir çirkin əməllərinə görə çətin ki, cəzalandırsın. Çünki XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlılara qarşı cinayət törədənlər bu günə qədər cəzasız qalıblar. Azərbaycanın BMT çərçivəsində tanınan əraziləri 30 il qəsb olunduğu zaman da bu ölkə heç bir sanksiyaya və qınağa məruz qalmadı. Dünyanın qabaqcıl nüfuzlu idman komitələrindən hələ ki, bu məsələ ilə bağlı hər hansı bir tədbir görülməsə də, erməni cəmiyyətinin daxilindən bayrağımızı yandıran və bu əməli dəstəkləyənlərə cavab verildi. Ermənilərin törətdikləri insanlıqdan kənar əmələ elə bu ölkənin deputatı reaksiya vermişdir. "Mən bütün beynəlxalq sivil ictimaiyyətdən üzr istəyirəm ki, mən bir vətəndaş və deputat kimi vəhşi və adamyeyən tayfaların təzahürlərini millətimdən tamamilə silmək üçün əlimdən gələni etməmişəm", - söyləyən erməni millət vəkili xalqının müəyyən qisminə tam olaraq uyğun ad verib. Vəhşi və adamyeyən...

Ermənistanın məsul şəxsləri bu yarışla bağlı öz üzərinə müəyyən məsuliyyət götürmüşdü və belə xoşagəlməz hadisələrin baş verməməsi üçün zəruri təhlükəsizlik tədbirləri görmək də onların borcu idi. Lakin onlar buna ciddi yanaşmayıblar. Yarışın açılış mərasimində hansısa yarışın təşkilatçılarından olan Aram Nikolyan bayrağımızı yandırmaqla Azərbaycana heç nə edə bilmədi. Əksinə, öz xalqını, rəhbərini və ölkəsini rüsvay etdi. Bu əməli törətməklə məsuliyyətsizliklərini və bacarıqsızlıqlarını nümayiş etdirmiş oldular. Onlara ən gözəl cavabı isə türkiyəli idmançılar verdilər. Qardaş ölkə hər zaman olduğu kimi, bu dəfə də olmadığımız yerdə bizi layiqincə təmsil edib qazandıqları medalları Azərbaycana həsr etdilər. Qorxduqları başlarına gələn haylar Azərbaycanın Dövlət Himninin səslənməsindən ehtiyat etdikləri bir vaxtda İrəvanda Türkiyənin Dövlət Himninin səslənməsinə mane ola bilmədilər. Ermənilərin bu qıcığının əsas səbəbi məlumdur. İkinci Qarabağ müharibəsində qazandığımız qələbədən sonra özlərinə yer tapa bilməyən düşmən məğlubiyyətinin revanşını ölkələrində bayrağımızı yandırmaqla, silahsız hərbçimizə qarşı qeyri-insani davranışla və zaman-zaman şərti cəbhə boyu atəşkəsi pozmaqla almaq istəyir. Vətən müharibəsində qarşı-qarşıya gəlməkdən çəkinən düşmən döyüş bayraqlarını sahibsiz qoyaraq geriyə qaçırdılar. Hətta, 11 min fərarisi olan bir ölkənin hələ də yeni müharibəyə can atmaq istəyi heç bir məntiqə və ağıla sığmır. Əslində, düşmənin özü bütün reallıqları görür, sadəcə, bunu qəbul etmək istəmir. Onlara ağır gələn 30 ildən sonra məğlub olmalarıdır. Azərbaycanın zəif və gücsüz rəhbərliyindən istifadə edib, torpaqlarını işğal edərək silahsız insanları üzərində törətdikləri vəhşi davranışlarının qisasını hərb meydanında alan Azərbaycan Ordusu azad olunmuş əraziləri üçrəngli bayrağımızla bəzədilər. İndi bu şanlı bayrağımız Ermənistanla həmsərhəd ərazilərdə və ən əsası Şuşa qalasında dalğalanır. Ermənilər isə Laçın-Xankəndi yolundan keçərkən Şuşa qalasında dalğalanan bayrağımıza baxıb dərindən ah çəkməkdən başqa heç nə edə bilmirlər. Ancaq bu dəfə hansısa alçaq bir addımı atmağa cəsarətləri çatmaz.

**Musa BAĞIRLI,**
**"Respublika".**

# Fransanın düşmənçilik siyasəti

**Deyirlər, dost dar gündə tanınar. Məhz çətin günlərdə kimin dost, kimin düşmən olduğu bilinir. 44 günlük Vətən müharibəsi bir çox ölkələrin əsl iç üzünü ortaya çıxardı. Həmin dövlətlərdən biri də Fransa idi. Belə ki, bu ölkənin işğalçı və cinayətkar Ermənistanı müdafiə etməsi fonunda respublikamıza qarşı yürütdüyü qərəzli münasibət, Fransanın ölkəmizə düşmən mövqeyini təsdiqlədi.**



Belə ki, Fransa ölkəmizi haqlı bilə-bilə düşmənə tərəfdar çıxmışdır. Ən diqqətçəkən məqamlardan biri də Fransanın ATƏT-in keçmiş Minsk qrupunda təmsil olunmasına baxmayaraq, vaxtikən münaqişənin həllinə dəstək göstərməməsi idi. Əslində, Fransanın bu addımı onun heç də nankor Ermənistandan geri qalmadığını bir daha sübut edir. Görünür, erməni sevdalısı Azərbaycanın onun iqtisadiyyatına və mədəniyyətinə verdiyi töhfələri yaddan çıxarıb. Xatırladaq ki, Azərbayan Fransanın iqtisadiyyatına 3 milyard avroya yaxın sərmayə yatırmış, bir sıra fransız şirkətləri isə dövlətimizin təşəbbüskarı olduğu böyük layihələrdə yer almışdır. Bundan əlavə, Heydər Əliyev Fondu da Fransada bir sıra layihələr həyata keçirərək Orn departamentində X-XII əsrlərə aid 7 kilsənin bərpasında yaxından iştirak etmişdir. Ancaq nankor fransız siyasətçiləri bir müddət əvvəl utanmadan Qarabağdakı xristian abidələrinin guya azərbaycanlılar tərəfindən dağıdılacağı iddiası ilə gündəmə gəlmişdilər.

Fransanın mənfur əməlləri bununla da yekunlaşmır. Fransa və Ermənistanın dövlətimizə qarşı yürütdüyü düşmənçilik siyasətləri mahiyyətcə eyni olsa da, formaca bir-birinə bənzəmir. Belə ki, Paşinyana sevgi göstərən xain Fransa Azərbaycanın milli maraqlarına zidd olan fəaliyyətlərini özlərinə xas şəkildə davam etdirir. Bundan başqa, ölkənin Azərbaycana qarşı apardığı qara piar siyasətində Avropa praqmatizmi açıq-aydın hiss olunmaqdadır. Fransa Senatında və Milli Assambleyasında dövlətimizə qarşı qəbul olunan qərəzli qətnamələr Fransanın qərəzinin təzahürüdür. Xatırladaq ki, hələ İkinci Qarabağ müharibəsi dövründə Fransa Azərbaycana sanksiyalar tətbiq edilməsi ilə bağlı müzakirələri BMT-nin gündəliyinə çıxarmağa böyük səy göstərmişdi. Lakin Azərbaycanın dünyadakı nüfuzu, Avropa İttifaqı və Qoşulmama Hərəkatına üzv olan dost ölkələrin operativ müdaxiləsi Fransanın bu xəyanətkarlığının qarşısını almışdır. Üzdəniraq Fransanın belə xain əməllər törətməklə hansı məzhəbə qulluq etdiyi də məlum deyil. Axı nə Fransa Azərbaycandan, nə də ölkəmiz Fransadan asılıdır. Bunu Prezident İlham Əliyevin bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı söylədiyi fikirlər də təsdiqləmişdir: "Mən bu yaxınlarda qapalı bir görüşdə demişəm ki, Fransa bizsiz yaşaya bilər, biz də Fransasız yaşaya bilərik, heç onlar da hiss etməzlər, biz də hiss etmərik. Amma budur yol, bu, onların seçimidir və biz yenə də onlara qarşı heç nə etməmişik. Sadəcə olaraq, müharibə dövründə cavab vermişik. Mən indi müharibə dövründə olan yüksəksəviyyəli təmaslar haqqında bir şey demək istəmirəm, bu, qapalı söhbətlər əsnasında olmuşdur. Amma müharibə dövründə, necə deyərlər, çox gərgin münasibətlərimiz olmuşdur. Müharibə dövründə Fransa bizi açıq-aydın ittiham edirdi, bizə şər atırdı, böhtan atırdı".

Ölkə başçımız, həmçinin Fransanın Azərbaycandan üzrxahlıq tələb etməsinin vacibliyini də bildirmişdir. Məlumdur ki, Fransanın çirkin əməlləri kifayət deyilmiş kimi, hətta postmüharibə dövründə belə ölkə bizə şər, böhtan atırdı. Ümumiyyətlə, Fransanın timsalında bütün xainlər dərk etməlidirlər ki, ölkəmizə qarşı təhdidlərin nəticəsi məhz həmin dövlətlərin özü üçün ağır olacaq. Çünki heç bir çirkin əməl dövlətimizi öz haqq yolundan döndərə bilməz. Azərbaycanın gücü də, nüfuzu da bütün dünyaya bəllidir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**




"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## MİRCAMAL İNCİK



1973-cü ildə qədim adı Muğan olan Parsabad şəhərində dünyaya göz açıb. İbtidai və orta məktəbi həmin şəhərdə bitirib, sonra əsgəri xidmətdə olub. Ailə qurduqdan sonra Tehrana üz tutub. Burada ali təhsil alıb. Mircamalın ədəbiyyat aləminə qədəm qoymasında şair qardaşı Mircəlil Hüseyninin böyük təsiri olub. Azərbaycanın çağdaş dövr tanınmış şairləri ilə ünsiyyət qurub, klassik ədəbiyyatı öyrənib və şeir sənətinin incəliklərinə varıb.

Muğan ədəbiyyat dərnəyinin fəal üzvüdür. Dörd şeir kitabını nəşrə hazırlayan şair hələ ki, onların çapına nail ola bilməyib...

### Azərbaycan

Ayrılıq örnəyi Azərbaycan
Və qaranlıq bürümüş bir tarix!
Qollarında yağılar saqqızı tək
Zamanın zənciri bir-bir çürümüş...
Sənə alqış!
Ey dumanlar bürümüş hündür dağ,
Hər sınaqda üzüağ,
Arxayın qal!
Bu işıq karvanımız
Gələcək söyləyibən getməlidir,
Arxayın qal, ana Azərbaycan,
Yasaq olmuş dilimiz,
Odlanan ellərimiz
Ayrı bir dil özünə seçməyəcək,
Haqq yolun dönməyəcək!
Sən alovsan, səni sarsıtmaz qış,
Sənə alqış,
Sənə alqış!

## FƏRİDƏ SÜLEYMANİ AYTƏKİN



Güney Azərbaycanın Qoşaçay şəhərində doğulub. Urmuda boyabaşa çatan Fəridə ilk və orta təhsilini də Urmuda alıb.

Burada müxtəlif şeir məclislərində iştirak edib. Uşaqlar üçün yazdığı şeirlər "Aypara" adlı kitabında kiçikyaşlı oxuculara təqdim olunub.

Fəridə Aytəkin kiril əlifbasında olan bir çox kitabı ərəb qrafikasına çevirib və çapa təqdim edib.

### Zəfər qazandıq

Vətənin ordusu zəfər qazandı,
Düşməni qovdular it qovan kimi.
İllərcə torpağım qərib qalmışdı,
Göstərə bilmirdim ona sevgimi...

Torpağım inciyib bizdən küsmüşdü,
Övladı unudan bir ana kimi.
Səssizcə solmuşdu, səssiz uymuşdu,
Laylasız yatmayan bir bala kimi...

Dağlarda lalələr boynu bükülü,
Ceyranın balası yetim qalmışdı.
Səfil dolanırdı körpə quzular,
Quzğunlar onların yurdun almışdı...

Bir daha duyduq biz ətrini ancaq,
Qocaman Şuşanın, Xarı bülbülün.
Bir daha qoymarıq bağlarımızda,
Boyunu bükülsün süsən sünbülün...

Vətənim anadır, ana da vətən,
Analar yaşayan vətənə qurban.
Aytəkin, vətənin vurğunuyuq biz,
Can kimi vətəni sevənə qurban...

# Folklor xalq həyatının əks-sədasıdır

(əvvəli 19 və 20 aprel tarixli saylarımızda)

**İctimai-siyasi məzmunlu mahnılar:** "Gül açdı" ("Mən yardan ayrılmazdım"), "Qadan alım", "Budur gəldi əsirlərin karvanı", "Sona bülbüllər", "Çal papaq", "Bizi ayırdılar ana-atadan". Bu mahnılarda sevgisinə qovuşa bilməyən aşiqin daxili böhranları, zorla vətənindən didərgin salınan, əsir düşənlərin ah-naləsi ifadə olunur.

"Apardı sellər Saranı", "Sona bülbüllər", "Samovara od salmışam", "Laçın", "Qalanın dibində", "Pəncərədən daş gəlir" kimi mahnılar həcmi, poetik quruluşu və kompozisiyasına görə bir-birindən fərqlənir: iki, üç, dörd bənddən ibarət ola bilir; bir sıra mahnılarda bəndlər 4 misradan ibarət olsa da, beş, altı, yeddi, hətta on misra da ola bilər; mahnıların bir qismində təkrar misralar, digər bir qismində isə nəqarətlər işlənir.

Üzeyir Hacıbəyov mahnıları yüksək qiymətləndirərək demişdir: "El mahnıları Azərbaycan xalqının əhvali-ruhiyyəsini şərh, zövqi-musiqisini bəyan, şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan onun istər musiqi, istər ədəbi, istər psixoloji, istərsə də etnoqrafik əhəmiyyəti çox böyükdür".

Araşdırmaçı yazar Aqşin Ağkəmərlinin yazdığına görə, Güney mahalında ədəbiyyat əsasən iki yöndə inkişaf edib: şifahi xalq ədəbiyyatı və divan ədəbiyyatı. A.Ağkəmərli Mirzə İbrahimin Azərbaycan ədəbiyyatını Dədə Qorqud dövrü, Nəsimi dövrü, Şah İsmayıl Xətai dövrü, Füzuli, Vaqif, Mirzə Fətəli Axundzadə dövrünə bölməsini haqlı sayır və hər bir dövrün özünəməxsus inkişaf mərhələsi keçdiyini vurğulayır.

Ancaq qeyd edək ki, mərsiyə ədəbiyyatı bütün dövrləri əhatə edir və izləri aşıq ədəbiyyatı kimi, lap əski çağlara gedib çıxır. Çünki sevgi ilə kədər bərabər yaranmışdır. Mərsiyə şeirinə tarixi şəbeh və meydan tamaşalarımızın izləri də demək olar. Mərsiyə ədəbiyyatına birinci dəfə Mahmud Kaşğarinin "Divani lüğət-it -türk" kitabında ilk dəfə rast gəlirik. Bu əsərdə ağı Alp Ər Tonqanın (Əfrasiyab) ölümü ilə bağlı söylənmişdir:

*Alpərtunqal öldimü?*
*Eysiz acun qaldımü?*
*Özlək üçün öldünmü?*
*Yindi yürək yırtılıyor...*

*(Alp Ər Tonqa öldümü*
*Bir pis dünyada qaldımı*
*Zaman öz intiqamını aldımı*
*İndi ürək yırtılır).*

Şeir parçasından da göründüyü kimi, Əfrasiyabın ölümünə həsr olunmuş mərsiyə şeirinin ilk örnəyidir. Bu yönlü şeirlərə ağı demişlər. Ağılar ölümlə, fəlakətlə bağlı oxunur və məzmununda qəm, kədər, qüssə, iztirab, ayrılıq əhvali-ruhiyyəsi güclü hiss olunur. Həzin bir musiqi ilə, yaxud qopuzla əzizlərinin ölümü - oğul, qız, qadın, at, ya bir el qəhrəmanı və ya el ağsaqqalı haqqında yas mərasim nəğmələrini özəlliklə qadınlar qopuz çalıb-oxuyarmışlar. Mətnlərinin misradaxili bölgüləri yeddi hecadan ibarət olan, yəni hər misra 3+4-4+3-5 +2 bölgüsündən yaranan ağılara el arasında "edilər", "edilmək" də deyilir. Bəzən dünyasını dəyişən insanın kimliyi, özəllikləri, yaxşı əməlləri dilə gətirilir. Bu nəğmələrdə yaxın, doğma adamların ölümündən doğan dərin kədər, qəm hissləri, hətta şikayət, nifrət, qarğış, ayrılıq notları da ifadə olunur:

Bu nəğmələrdə yaxın, doğma adamların ölümündən doğan dərin kədər, qəm hissləri ifadə olunur. Məsələn:

*Bostanda tağım ağlar,*
*Basma, yarpağım ağlar,*
*Sağ durduqca mən özüm,*
*Ölsəm, torpağım ağlar.*

(davamı növbəti saylarımızda)

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**

# HAVA PROQNOZU

21 aprel

| | |
|---|---|
| Bakı | 14° / 20° |
| Gəncə | 15° / 19° |
| Mingəçevir | 14° / 24° |
| Naxçıvan | 14° / 18° |
| Şamaxı | 14° / 21° |
| Şəki | 14° / 20° |
| Şuşa | 14° / 18° |
| Qazax | 14° / 19° |
| Kürdəmir | 12° / 27° |
| Quba | 12° / 15° |
| Şirvan | 13° / 27° |
| Ağdam | 13° / 23° |
| Lənkəran | 13° / 21° |
| Zəngilan | 15° / 27° |
| Kəlbəcər | 8° / 16° |




Yüksək temperatur · Günəşli · Qismən buludlu · Parçalı buludlu · Buludlu · Arabir yağışlı · Yağış yağacaq · İldırım çaxacaq · İldırımlı-yağışlı · Qar yağacaq · Aydın gecə · Buludlu gecə · Külək əsəcək




# Azercell "GSMA M360 EURASIA 2023" konfransının baş sponsorudur

**Azercell "GSMA M360 Eurasia 2023" konfransının baş sponsoru olaraq bu nüfuzlu tədbirə ev sahibliyi edəcək. Konfrans Azercell və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərəfdaşlığı ilə həyata keçiriləcək.**

Azərbaycanda ilk dəfə təşkil edilən bu beynəlxalq tədbir mobil telekommunikasiya və rəqəmsal texnologiyalar sahəsində çalışan regional və beynəlxalq ekspertləri bir araya gətirərək onlara sənayenin əsas tendensiyaları, imkan və çağırışları ətrafında müzakirələr aparmağa şərait yaradacaq.

"Biz "GSMA M360 Eurasia 2023 konfransı"nın baş sponsoru olaraq bu tədbirə ev sahibliyi etməkdən qürur duyuruq", - deyə **Azercell-in prezidenti Zərinə Zeynalova** bildirib. "Azərbaycanın lider mobil operatoru kimi biz mobil rabitə sənayesində innovasiyaları və inkişafı daim təşviq edirik. Tədbir mobil bağlantı sahəsinin gələcəkdə böyüməsi və dəyər qatması üçün doğru sərmayə yatırımını müzakirə etmək, bu kritik infrastrukturun qorunması ilə bağlı fikir mübadiləsi üçün əla platforma olacaq".

Qeyd edək ki, GSMA-nın təşkilatçılığı ilə keçirilən tədbirdə məruzəçilərin çıxışı ilə yanaşı, panel müzakirələri də yer alacaq. Konfrans gələcək inkişaf üçün rəqəmsal davamlılıq, müştəri vertikalının gücləndirilməsi, 5G və infrastrukturun gələcəyi, Əşyaların İnterneti, Süni İntellekt və Maşın Öyrənməsi, Fintek, kibertəhlükəsizlik kimi bir sıra aktual mövzuları əhatə edəcək. Tədbirdə Azərbaycandan, Avrasiya regionundan ekspertlər, o cümlədən tənzimləyici qurumların nümayəndələri, aparıcı mobil operatorların və rəqəmsal korporasiyaların rəhbərləri iştirak edəcək.

16 və 17 may tarixlərində Bakıda keçiriləcək bu tədbirdə iştirak etmək üçün GSMA M360 Eurasia səhifəsində onlayn qeydiyyatdan keçmək olar.

Tədbir barədə daha ətraflı məlumatı bu səhifədən əldə etmək mümkündür: https://www.mobile360series.com/eurasia/.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 48 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 48 yoluxma faktı qeydə alınıb, 82 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 41 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 399 nəfər müalicə olunaraq sağalıb, 10 min 220 nəfər vəfat edib. Aktiv xəstə sayı 422 nəfərdir. Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1002, indiyə qədər isə ümumilikdə 7 milyon 580 min 828 test icra olunub. ■




# Aprelin 20-də Azərbaycanda COVID-19 əleyhinə 140 doza vaksin vurulub

**Aprelin 20-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 140 doza vaksin vurulub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 89, ikinci doza vaksinlərin sayı 12, üç və daha çox doza vaksinlərin sayı 31, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 8-dir.

Azərbaycanda indiyə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 958 min 954, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 409 min 746, ikinci mərhələ üzrə 4 milyon 880 min 515, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 402 min 597, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 266 min 96-dır. ■

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı

AZ1073, Bakı, Mətbuat prospekti,
529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 İndeks 0240 Tiraj: 5238

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 976, Satış qiyməti 40 qəpik

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Salyan Rayon Məhkəməsinin sədri Adil Vəliyevə, anası**
**EMMA HÜSEYNOVANIN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**"Prant" firmasının kollektivi başda Yusif Ələkbərov olmaqla Ələkbərov İlham Əlişah oğluna, anası**
**ZÜMRÜD xanımın**
**vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının və Onkologiya kafedrasının kollektivi Milli Onkologiya Mərkəzinin Şişönü xəstəliklərinin müalicəsi və diaqnostikası şöbəsinin rəhbəri, dosent Sevinc Rəhimzadəyə, atası**
**ELXAN müəllimin**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

# Bəşəriyyətin təkamülü prosesləri və ya dünya düzənini dəyişdirən hadisələr

*(keçmişdən indiyə)*

**İnsanlığın yaranışından bəri nə qədər vaxt keçsə də, tarixən baş verən bəzi hadisələr öz təsirini itirməyib və bəşəriyyətin formalaşmasında böyük rol oynayıb. Təkcə yaşandığı dövrlərlə məhdudlaşmayan sadədən mürəkkəbə, ibtidaidən aliyə inkişaf yolu keçən bu proseslər həm də keçmişdən gələcəyə dəyərli miras qoyub. Müəyyən şərtlər altında ortaya çıxan müharibələr, ixtiralar kimi, bəzi mühüm olaylar kəpənək effekti yaradaraq bütünlükdə tarixin gedişatına təsir etməklə dünyanın gələcəyini dəyişdirib. Təkərin, yazının ixtirasından sənaye inqilabına, Dünya müharibələrindən insanın Aya ilk ayaq basmasına və bu gün robototexnikadan tutmuş dron, çip, ağıllı cihazların inkişafına qədər bir sıra texnologiyaların istehsalı ilə əl əməyinin getdikcə sıradan çıxması həm bugünkü dünyanın nizamına, həm də həyat tərzimizə böyük təsir göstərib. Bəlkə də bu hadisələrin çoxu yaşanmasaydı, dünya indikindən daha fərqli olardı. Həyatımıza və sivilizasiyaya təsir edən təsadüfdənmi, yoxsa zərurətdən doğan bu hadisələrlə planetimizdə yaşamın haradan-haraya gəlməsinə nəzər salmaqla tarixə ekskurs edək...**

**Ənənəmizə uyğun olaraq bəşəriyyətin təkamülünə səbəb olmaqla tarixin gedişatını dəyişdirən ən mühüm hadisələrdən olan "Çin Xalq Respublikasının yaranması"nı oxuculara təqdim edirik:**

**"Respublika".**



## Çin Xalq Respublikasının yaranması

Bəşəriyyətin təkamülünə səbəb olmaqla tarixin gedişatını dəyişdirən ən mühüm hadisələrdən biri də 1949-cu il oktyabr ayının 1-də Çin Xalq Respublikasının yaranmasıdır. Sivilizasiyanın beşiyi hesab edilən Çində belə bir hadisənin baş verməsi dünyada siyasi-iqtisadi əlaqələrin, ən əsası isə sivilizasiyanın inkişafında böyük rol oynamışdır. Belə ki, insanlıq tarixində baş verən bu həlledici hadisənin nəticələri milyonlarla insanın və dövlətlərin gələcəyinə təsir edərək bəşəriyyətin təkamülündə böyük rol oynamış, dünyanın düzənini dəyişdirmişdir.

1840-cı ildə Tiryək müharibələrinin başlanması Çin tarixində böyük dəyişikliyə yol açdı. XIX əsrin əvvəllərindən etibarən İngiltərə kontrabanda yolu ilə Çinə böyük miqdarda tiryək ixrac etmiş və eləcə də Çin gümüşünü ölkədən çıxarmışdır. Bu, Çinin iqtisadi cəhətdən zəifləməsinə gətirib çıxardı. 1839-cu ildə Çinq (Qing) hökuməti Tiryək kontrabandasının yox edilməsi üçün Lin Ceşunu Quanqdonqa məmur təyin etdi. İngiltərəyə mənfəət gətirən bu kontrabandanı qorumaq üçün 1840-cı ildə Çinə müharibə elan etdi. Çin xalqı Lin Ceşu ilə birlikdə silaha sarılsa da, Çinq hökuməti İngiltərəyə boyun əydi və alçaldıcı Nankin müqaviləsini imzaladı. Müqavilə Çini yarı feodal, yarı müstəmləkə bir dövlətə çevirdi.

XX əsrin əvvəllərində Çin yarımfeodal ölkə olaraq qalırdı. Əhalinin çoxu mülkədarlardan asılı olan torpaqsız və aztorpaqlı kəndlilər idi. Kəndlilər, sənətkarlar, fəhlələr və milli burjuaziyanın ən cəsarətli hissəsi olan qabaqcıl ziyalılar Çindəki mütləqiyyət quruluşu əleyhinə çıxış edirdilər. 1905-ci ildə "Birləşmiş ittifaq" adlı gizli təşkilat yarandı.

Bu təşkilata rəhbərlik edən Sun Yatsen 1906-cı ildə "Üç xalq prinsipi" adlanan müddəalarını irəli sürdü: millətçilik, demokratizm, xalq rifahı. Millətçilik prinsipi tezisində Mancur sülaləsinin təzyiqinə qarşı mübarizədə Çin xalqının birliyi ideyası öz əksini tapmışdı. Demokratizm prinsipinin məzmununu Çin demokratik respublikasının yaradılması təşkil edirdi. Sun Yatsen kəndlilərin istifadəsinə verilmək üçün torpaqların milliləşdirilməsinə çalışırdı. "Xalq rifahı" prinsipi də bunu ifadə edirdi. Sun Yatsenin prinsipləri xırda milli burjuaziya tərəfindən tamamilə qəbul edilirdi. Nəticədə 1906-cı ildən etibarən Çində kəndlilərin, qabaqcıl ziyalıların və milli burjuaziyanın çıxışlarının yeni dalğası başlandı. 1911-ci ilin oktyabrında Uçan şəhərindəki üsyan inqilabın başlanğıcı oldu. Üsyançılar şəhəri tutdular. Bütün Xubey əyaləti respublika elan edildi. 1911-ci ilin sonlarına yaxın isə Çinin bütün cənubi və mərkəzi əyalətləri artıq mancur əsarətindən azad edilmiş və üsyançıların hakimiyyəti altına keçmişdi. Antimonarxiya ruhlu bütün əyalətlərin nümayəndələrinin Nankində toplanmış konfransında Sun Yatsen respublikanın müvəqqəti prezidenti seçildi və 1912-ci il 1 yanvarda öz vəzifəsinin icrasına başladı. Liberal-mülkədarlar irticaçı general Yuan Şikayla sövdələşirdilər. 1912-ci ilin fevralında xüsusi fərmanla Tsin monarxiyası ləğv edildi. 1912-ci il 1 apreldə isə liberalların təzyiqi ilə üzləşən Sun Yatsen istefa verdi və irticaçı burjuaziyanın köməyi ilə Yuan Şikay respublikanın prezidenti seçildi. 1912-ci ilin avqustunda "Birləşmiş ittifaq" təşkilatı ilə bir sıra liberal təşkilatlar Homindan partiyasında (Milli partiyada) birləşdilər. Partiyanın sədrliyinə Sun Yatsen seçildi. 1913-cü ilin yayında ölkənin cənubunda mürtəce hökumətin siyasətinə qarşı "ikinci inqilab" adlandırılan üsyanlar baş verdi. Lakin xarici qoşunlar inqilabçıları darmadağın etməkdə Yuan Şikaya kömək etdilər. "İkinci inqilab" da məğlub oldu. 1911-1913-cü illərin Çin inqilabı qarşısında duran vəzifələrdən yalnız birini - monarxiyanı devirmək vəzifəsini yerinə yetirdi.

Rusiyadakı Oktyabr inqilabından sonra marksizm ideologiyası Çinə də yayıldı. Oktyabr inqilabının təsiri altında 1921-ci ildə Çin Kommunist Partiyası yaradıldı. 1935-ci ildə isə Çində Mao Tszedunu Mərkəzi Hərbi Şuranın başçısı təyin etdilər. Bu dövrdən etibarən o, Partiyanın VII Qurultayında Baş katib olmasına baxmayaraq, partiyanın bütün işlərini faktiki olaraq idarə etməyə başladı.

1937-ci ilin 7 iyulunda Uluntsyao körpüsü yaxınlığında Yaponiya Çinə qarşı irimiqyaslı hərbi əməliyyatlara başladı. Hansı ki, bu, Yaponiyanın Çinə qarşı olan təcavüzünün başlanğıc mərhələsi idi. Bu mərhələdə Sovet İttifaqı birinci növbədə, Çin inqilabının qələbəsi naminə, ikincisi isə öz təhlükəsizliyi üçün Mao Tszedun və Çan Kayşinin birləşib yapon təcavüzünü dəf etməsində maraqlı idi. Atasına təzyiq göstərmək məqsədilə Sovet İttifaqı Çan Kayşinin bu dövrdə Uralmaş zavodunda işləyən oğlundan istifadə edirdi. Lakin bütün bunlar nəzərəçarpacaq nəticələr vermirdi. Bu zaman Çan Kayşi Sianda general Çtan Syuelyanın başçılığı ilə şimal hərbçiləri tərəfindən ələ keçirilmişdi və şimal hərbçiləri ilə danışıqlara gələn Çjou Enlay faktiki olaraq onun həyatını xilas edir. Bir kommunist tərəfindən xilas edilməsi Çan Kayşidə böyük təəssürat doğurur və bu hadisə sonrakı proseslərə təsir göstərir. Beləliklə, 1937-ci ilin sentyabrında Çan Kayşi və Mao Tszedun birgə cəbhə haqqında, Qomindan və Kommunist Partiyası arasında hər hansı silahlı mübarizənin dayandırılması barədə razılığa gəldilər. Çin Qırmızı Ordusunun adı səkkizinci inqilab ordusu ilə əvəz olundu və o, Qomindan xalq-inqilabi ordusunun hissəsi oldu. Çan Kayşi Ali baş komandan təyin edildi, sonralar isə partizan dəstələrində yeni dördüncü ordu yaradıldı ki, bu da Çan Kayşinin komandanlığında idi. 9 may 1945-ci ildə Almaniya məğlub edilsə də, Çin cəbhəsində dönüş nöqtəsi yalnız 8 avqust 1945-ci ildə Sovet Ordusunun Mancuriyada Kvantun ordusunu darmadağın etməsindən sonra başlanmışdır. Təslim edilmiş yaponların bütün silahları Çin Kommunist Partiyasına verildiyindən o, öz qoşunlarını yenidən silahlandıra bildi. Artıq Amerika linkornu Missuridə Yaponiyanın kapitulyasiya aktı imzalananda kommunistlərin milyonluq yaxşı silahlanmış ordusu var idi. Tezliklə Kommunist Partiyası ilə Çan Kayşi arasında münaqişə yarandı və o, özünün təqribən iki milyonluq tərəfdarı ilə Tayvana qaçmalı oldu. Bu zaman özü ilə ölkənin bütün qızıl ehtiyatını və böyük miqdarda daş-qaş götürdü. Beləliklə, Çində vətəndaş müharibəsi başa çatdı, 7-ci Amerika donanmasının ucbatından Çin Tayvan boğazını keçə bilmədi. Öz növbəsində Çan Kayşi qısa müddət ərzində yerli hakimiyyətin müqavimətini qırıb Tayvanda möhkəm Qomindan hakimiyyəti yaratdı. Yapon kapitulyasiyasının şərtlərinə əsasən Çinə yenicə qaytarılmış Tayvan təzədən itirildi.

1949-cu il sentyabrın 21-dən 30-dək Pekində Çin Xalq Siyasi Məşvərət Şurasının (CXSMS) sessiyası keçirildi. Sessiya müvəqqəti Konstitusiya rolunu oynayan "Ümumi proqram" qəbul etdi, Mərkəzi xalq hökuməti şurasına seçkilər keçirdi, bunun da sədri Mao Tszedun seçildi. Çjou Enlay ÇXR İnzibati Şurasının sədri və xarici işlər naziri təyin olundu. Oktyabrın 1-i Pekində Tyananmen meydanına təntənəli mitinqə yığışan 300 min insanın iştirakı ilə Sədr Mao Tszedun Çin Xalq Respublikasının yarandığını rəsmi olaraq elan etdi.

Kommunistlər hakimiyyətə gəldikdən sonra, ilk növbədə, kandlarda kollektivləşmə prosesinə başladılar. Çində kollektivləşmə qolçomaqlığın bir sinif kimi ləğv edilməsi əsasında aparılmadı, əksinə, onlar nümunəvi sahibkarlar kimi qəbul edildi və digərləri onlarla bəhsə başladı. Əvvəlcə onlar qolçomaqların ətrafında muzdlu işçi adlandırılan qarşılıqlı kömək üçün əmək briqadaları yaratdılar. İstehsalın artım həddi ilə onlar yüksək tipli kooperativlərə çevrildi. Bu yolla onlar kənd təsərrüfatının kollektivləşməsinə tədricən nail oldular. Çində kollektivləşmə ona görə lazım idi ki, torpaqdan rasional istifadə edilsin və bu da öz müsbət izini buraxdı. Çində kollektivləşmənin inkişafı Rusiyada olduğu kimi, istehsalın azalmasına gətirib çıxarmadı, əksinə, artım baş verdi. Şəxsi istehsalat və ticarətdə islahatlarla əlaqədar Mao Tszedun deyirdi: "Bizə təkcə kapitalistlərin cibində deyil, həm də onların başındakı kapital lazımdır". Hər şeydən öncə çinlilər Cənub-Şərqi Asiyada yaşayan diaspora göz gəzdirdilər və onların hər zaman Çinə kömək edən Hong Konqu var idi. Xüsusilə Şanxayda çox olan şəxsi müəssisələr dövlət müəssisələrinə çevrilirdilər.

1953-1956-cı illərdə irimiqyaslı sosial dəyişikliklər həyata keçirilmiş, beşillik plan (1953-1957) vaxtından əvvəl yerinə yetirilmişdi. İstehsalatın baza sahələrinin bütöv sırası yaradılmışdı. Çində ilk dəfə olaraq sənaye ölkəsi üçün zəruri olan təyyarəqayırma, avtomobil sanayesi, ağır va dəqiq maşınqayırma, energetika, metallurgiya və mədən avadanlıqları istehsalı, çoxaşqarlı polad və əlvan metal əridilməsi meydana gəlmişdi. "Elm və texnikanın inkişafının 12 illik proqramı (1956-1967)" vaxtından bir il əvvəl yerinə yetirildi, elm və texnikanın bir çox yeni sahələrinin inkişafı daha sürətli templərlə gedirdi. Bu onilliyin gedişində ÇKP və Çin hökuməti tərəfindən işlənmiş idarəedici kursda bir sıra ciddi səhvlər də üzə çıxmışdı ki, bu da xalq təsərrüfatında çətinliklər törədirdi. 1966-cı ilin mayından 1976-cı ilin oktyabrınadək davam edən "Böyük mədəni inqilab" ÇKP MK Sədri Mao Tszedun tərəfindən başlanılmışdı və onun rəhbərliyi altında həyata keçirilirdi. Lin Byao va Tszyan Tsinin başçılıq etdiyi əks-inqilabi qruplaşmalar Mao Tszedunun ömrünün son illərində buraxdığı səhvlərdən istifadə etdilər və onun arxasınca ölkəyə və xalqa fəlakət gətirən geniş fəaliyyətə başladılar. Dövlətə və onun vətəndaşlarına ÇXR qurulduqdan sonrakı bütün müddət ərzində ən ağır və ən ciddi ziyan vuruldu. "Mədəni inqilab" zamanı Mao Tszedun ciddi səhvlər buraxmışdısa da, onun bütün həyat va fəaliyyəti təsdiq edir ki, Çin inqilabı qarşısında onun xidmətləri buraxılan xətalardan qat-qat üstündür. 1976-cı ilin oktyabrında Çin Kommunist Partiyası geniş xalq kütlələrinin dəstəyi ilə Lin Byao və Tsyan Tsinin əks-inqilabi qruplaşmasını darmadağın etdi. Çin yeni inkişaf dövrünə qədəm qoydu. 1977-ci ilin iyulunda bütün ölkənin təkidli tələbi ilə Den Syaopin "mədəni inqilab" zamanı kənarlaşdırıldığı bütün partiya və dövlət postlarına bərpa olundu. 1978-ci ilin dekabrında keçirilən 11-ci çağırış ÇXR MK-nın 3-cü plenumu Yeni Çinin yarandığı dövrdən ölkənin həyatında böyük dönüş yaratdı. 1978-ci ildən Çin islahatlar və xarici əlaqələrin genişləndirilməsi siyasətini tətbiq etməyə başladı.



Beləliklə, 30 ildən artıq aparılan islahatlar və siyasət sayəsində Çində mühüm dəyişikliklər baş verdi. Bu gün ölkədəki şərait ÇXR-in əvvəlki dövründən daha yaxşıdır. Bu da xalqa daha çox səmərə və fayda gətirir...

**Hazırladı:**
**Elenora HƏSƏNOVA,**
**"Respublika".**